RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 238 (9693) 29 oktyabr 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Azərbaycanın mədəni incisi, MDB-nin mədəniyyət mərkəzi

Laçının özünəməxsus füsunkar təbiəti və rəngarəng landşaftı şəhərin turizm məkanı kimi inkişaf etdirilməsinə, açıq hava istifadəsi və sağlam həyat imkanları olan canlı və cəlbedici regional mərkəzə çevrilməsinə şərait yaradır. Beynəlxalq hava limanının yaxınlığında, beynəlxalq və respublikaəhəmiyyətli bir sıra avtomobil yollarının kəsişməsində yerləşdiyi üçün şəhər regiona giriş qapısı funksiyasını daşımaqla, çoxşaxəli inkişaf istiqamətlərinə malikdir.

Oktyabrın əvvəlində Moskvada keçirilmiş Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının iclasında Laçının MDB-nin mədəniyyət paytaxtı elan edilməsi də elə bunlardan qaynaqlanır. Mühüm geostrateji mövqeyə malik Laçın həqiqətən də mədəniyyət mərkəzidir.

Bu xoş xəbər yayıldıqdan sonra təbii ki, MDB-nin mədəniyyət paytaxtında müəyyən hazırlıq işlərinə start verilib. Biz də qədim yurdumuzun mədəni, tarixi abidələri, burada həyata keçiriləcək yeni müxtəlifistiqamətli layihələri ilə tanış olmaq üçün Laçına gəlmişik.

Laçın şəhərinin mövcud planlaşdırma strukturunun saxlanılması və bərpası, o cümlədən yeni yaşayış ərazilərinin inkişaf etdirilməsi əsas hədəf götürülməklə zonalaşdırılıb. Növbəti 20 il ərzində şəhər ərazisinin genişlənərək 713 hektara, əhali sayının isə 18 min nəfərə çatacağı proqnozlaşdırılıb.

Baş planın konseptual əsasını "Təbiətlə vəhdətdə olan şəhər" yanaşması təşkil edir. Buraya urbanizasiya mərkəzinin xüsusiyyətlərinin formalaşdırılması, iqtisadi şaxələndirmənin təmin edilməsi, ekoloji həssas ərazilərin mühafizəsi, "yaşıl enerji" mənbələrindən və müasir texniki infrastruktur texnologiyalarından istifadə, həmçinin şəhər xidmətlərinə piyada əlçatanlığının artırılması daxildir. Plana əsasən, Laçın şəhəri "ağıllı idarəetmə", müasir qabaqcıl təhsil və inklüziv mobillik həlləri ilə seçilən davamlı və innovativ mərkəzə çevriləcək.

Baş plan layihəsində təbii yaşıllıqlarla əhatələnmiş şəhərin tarixən mövcud olmuş təxminən 258 hektar məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilib. Bununla yanaşı, çoxfunksiyalı zonalarda və digər yaşayış ərazilərində çoxmənzilli binaların tikilməsi təklif edilir. Şəhərdə xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də yaradılacaq. Planlaşdırmada tətbiq edilmiş "15 dəqiqəlik şəhər" prinsipi isə yaşayış məhəllələrinin, gündəlik tələbat obyektlərinin yaxın məsafədə olmasını və aşağısürətli yol infrastrukturunun təşkilini nəzərdə tutaraq sakinlərin və qonaqların şəhər daxilində rahat hərəkətini təmin edəcək.

→ 4

# Azərbaycan və Pakistan ərazi bütövlüyü və suverenlik məsələlərində bir-birini həmişə dəstəkləyiblər

## Prezident İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Pakistan İslam Respublikası Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Sahir Şamşad Mirzanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı general Sahir Şamşad Mirzanın səfərinin ölkələrimiz arasında güclü tərəfdaşlıq, müdafiə və digər sahələrdə əməkdaşlıq məsələlərinin bir daha nəzərdən keçirilməsi üçün yaxşı imkan yaratdığını dedi.

Prezident İlham Əliyev bu il qardaş Pakistana dövlət səfərinin çox uğurlu və məhsuldar keçdiyini vurğulayaraq, bunun dostluq və qardaşlıq münasibətlərimizin daha yüksək səviyyəyə qalxması işinə töhfə verdiyini bildirdi.

Dövlətimizin başçısı ölkələrimizin ərazi bütövlüyü və suverenliyi məsələlərində bir-birini həmişə dəstəklədiyini və bundan sonra da dəstəkləyəcəyini qeyd etdi.

Əməkdaşlığımızın, o cümlədən ticarət sahəsində əlaqələrimizin əsas istiqamətlərinin artıq müəyyənləşdirildiyini bildirən dövlətimizin başçısı dedi ki, özünün Pakistana dövlət səfəri zamanı Azərbaycanın bu ölkəyə 2 milyard ABŞ dolları məbləğində investisiya qoyuluşu imkanları barədə bəyanat verilib və bu sahədə sıx əməkdaşlıq hər iki tərəf üçün faydalı ola bilər.

Müdafiə sahəsində əməkdaşlığa toxunan Prezident İlham Əliyev bir müddət əvvəl artıq Azərbaycan Hərbi Hava Qüvvələrinin arsenalına daxil edilən "JF-17C" təyyarələrinə baxdığını məmnunluqla xatırlayaraq, onların dünya səviyyəsində ən yaxşı təyyarələrdən olduğunu dedi. Dövlətimizin başçısı bu hadisənin müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlığımızın daha da gücləndirilməsi işinə xidmət etdiyini vurğuladı.

→ 2

# "Səsvermənin nəticələri xalqınızın Sizin qətiyyətlə yürütdüyünüz siyasi xəttə olan inam və etimadının təzahürüdür"

## Özbəkistan Respublikasının Prezidenti zati-aliləri cənab Şavkat Mirziyoyevə



Hörmətli Şavkat Miromonoviç!

Əziz Qardaşım!

Özbəkistan Ali Məclisinin Qanunvericilik palatasına seçkilərin uğurla keçirilməsi münasibətilə Sizi və qardaş xalqınızı ürəkdən təbrik edirəm.

Qardaş Özbəkistanın tarixində ilk dəfə olaraq qarışıq seçki sistemi üzrə keçirilmiş bu səsvermə ölkənizin demokratik dövlət quruculuğu prinsiplərinə sadiqliyini bir daha bariz şəkildə nümayiş etdirdi.

Səsvermənin nəticələri xalqınızın Sizin qətiyyətlə yürütdüyünüz siyasi xəttə olan inam və etimadının təzahürü, Özbəkistanın daha da inkişafı və qüdrətlənməsi istiqamətində xidmətlərinizə real dəstəyinin ifadəsidir.

Yeni tərkibdə fəaliyyətə başlayacaq Ali Məclisin Qanunvericilik palatasının işinə müvəffəqiyyətlər arzulayıram.

Fürsətdən istifadə edərək bir daha Sizə səmimi təbriklərimi çatdırır, möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Özbəkistan xalqının rifahı və firavanlığı yolunda ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar və nailiyyətlər diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 oktyabr 2024-cü il*

# "Gürcüstan vətəndaşları inkişafa, sabitliyə və ənənəvi dəyərlərə öz dəstəyini ifadə etdilər"

## Gürcüstanın Baş naziri zati-aliləri cənab İrakli Kobaxidzeyə



Hörmətli cənab Baş nazir!

Gürcüstanda keçirilmiş parlament seçkilərinin nəticələri və ölkənizin aparıcı siyasi qüvvəsi olan "Gürcü Arzusu - Demokratik Gürcüstan" partiyasının qələbəsi münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bu səsvermə vasitəsilə Gürcüstan vətəndaşları inkişafa, sabitliyə və ənənəvi dəyərlərə öz dəstəyini ifadə etdilər. İnanıram ki, seçkilərin nəticələri Gürcüstanın hərtərəfli inkişafına və çiçəklənməsinə xidmət edəcəkdir.

Eyni zamanda seçkilərin nəticələrinin tarixən dostluq, qardaşlıq və mehriban qonşuluq şəraitində yaşamış xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan-Gürcüstan dövlətlərarası əlaqələrinin davamlı inkişafına, Cənubi Qafqazda və daha geniş coğrafiyada ölkələrimizin mövqelərinin daha da möhkəmlənməsinə töhfə verəcəyinə inamımı ifadə edirəm.

Siyasi dialoqumuzu davam etdirmək üçün Sizi münasib vaxtda Azərbaycana rəsmi səfərə dəvət edirəm.

Əminəm ki, ölkələrimizin və xalqlarımızın firavanlığı, regionumuzun rifahı və təhlükəsizliyi naminə strateji tərəfdaşlığımızın möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada qarşılıqlı faydalı fəaliyyətimizin müvəffəqiyyətlə davam etdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə ən xoş arzularımı çatdırır, dost Gürcüstan xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2024-cü il*

# İlham Əliyev Petr Paveli təbrik edib

## Çex Respublikasının Prezidenti zati-aliləri cənab Petr Pavelə

Hörmətli cənab Prezident!

Çex Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Çexiya arasında dostluq münasibətlərinin genişlənməsi, əməkdaşlığımızın inkişafı üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 oktyabr 2024-cü il*

# Qərb Gürcüstanda niyyətinə çatmadı

## Gürcüstan vətəndaşları ölkədə və Cənubi Qafqazda qarşıdurma yaratmaq istəyənlərə deyil, sabitliyə və rifaha səs verdilər

Seçkinin nəticələrinə yalnız Gürcüstanda siyasi partiyaların parlamentə düşmək uğrunda mübarizəsinin göstəricisi kimi yanaşmaq olmaz. Çünki bu seçki bütün parametrləri ilə yanaşı, Gürcüstan vətəndaşlarının ölkədə söz sahibi olmaq üçün kənar qüvvələrin, onu öz müstəqil yolundan döndərmək istəyən Avropa siyasi dairələrinin və onların maliyyələşdirdiyi qeyri-hökumət təşkilatları üzərində qələbəsi oldu. Bu seçkinin nəticəsi Gürcüstan vətəndaşlarının ölkənin milli və mənəvi mentaliteti ilə üst-üstə düşməsi qeyri-mümkün olan yad dəyərlər üzərində zəfərinə çevrildi.

Cənubi Qafqazı qarşıdurma meydanına çevirmək, buradan Rusiyaya qarşı ikinci cəbhə açmaq istəyən Qərb siyasi dairələri bu seçkilərdə darmadağın edildilər. Bu baxımdan Gürcüstan vətəndaşları əmin-amanlığa, sülhə və sabitliyə səs verdilər. Vətəndaşlar hakim partiyanı dəstəkləyərək, sülhlə müharibə, ənənəvi və amoral dəyərlər arasında prinsipial seçimlərini etdilər.

Parlament seçkilərinin nəticələri və "Gürcü Arzusu - Demokratik Gürcüstan" partiyasının qələbəsi münasibətilə Gürcüstanın Baş naziri İrakli Kobaxidzeni təbrik edən Prezident İlham Əliyev bildirib ki, bu səsvermə vasitəsilə Gürcüstan vətəndaşları inkişafa, sabitliyə və ənənəvi dəyərlərə öz dəstəyini ifadə etdilər.

→ 5

# Azərbaycan və Pakistan ərazi bütövlüyü və suverenlik məsələlərində bir-birini həmişə dəstəkləyiblər

## Prezident İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədrini qəbul edib



*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev müdafiə sənayesi ilə bağlı genişhəcmli əməkdaşlıqda, o cümlədən istehsal, investisiya, texnologiyalar sahələrində uğurlu nəticələrin əldə olunacağına əminliyini bildirdi.

Dövlətimizin başçısı Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin COP29 tədbirində iştirakının və gələn il ölkəmizə dövlət səfərinin Azərbaycanda səbirsizliklə gözlənildiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədrinin Bakıda keçirəcəyi görüşlərin uğurlu olacağına ümidvar olduğunu bildirdi.

Azərbaycan dövlətinin başçısı ilə görüşündən şərəf duyduğunu vurğulayan Sahir Şamşad Mirza Prezident İlham Əliyevin əfsanəvi şəxsiyyət olduğunu qeyd etdi. Qonaq Pakistan Prezidenti Asif Əli Zərdari və Baş nazir Məhəmməd Şahbaz Şərifin salamlarını, Pakistan xalqının ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Pakistanın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

Sahir Şamşad Mirza Azərbaycan Prezidentinin Pakistana dövlət səfərinin ikitərəfli münasibətlərimizin inkişafında tarixi təməl daşı olduğunu dedi.

Qonaq ölkəmizdə keçirilən prezident seçkilərində İlham Əliyevin, parlament seçkilərində isə hakim Yeni Azərbaycan Partiyasının qələbəsinin önəmini qeyd edərək vurğuladı ki, dövlətimizin başçısı Ümummilli Lider Heydər Əliyevin müdrik siyasətinin davamçısıdır. Sahir Şamşad Mirza qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin inkişafı fenomenal hadisə olmuşdur. Qonaq bu cür inkişafa, o cümlədən ümumi daxili məhsulun və əhalinin rifah halının artma templərinə heç bir ölkədə rast gəlinmədiyini dedi.

Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Vətən müharibəsində Azərbaycanın Qələbəsinin önəmini vurğulayaraq qeyd etdi ki, ölkəmizin əsgər və zabitlər ilə bağlı baxışı, yerli istehsalın təşviqi, müharibədə müdafiə sənayesi kompleksi və güclü hərbi imkanlarla bərabər, müdafiənin bir növü olan qabaqlayıcı strategiyanın tətbiqi dünyaya çox aydın bir siqnal oldu ki, Azərbaycan hədəfə köklənib və irəliləyir.

Ölkəmizdə gedən inkişaf proseslərinin nümunə olduğunu qeyd edən qonaq Pakistanın Azərbaycan ilə qardaşlıq əlaqələrinin qarşılıqlı inama, səmimiliyə, əməkdaşlığa, mədəni əsaslara söykəndiyini dedi. O, qarşıdan gələn Zəfər Günü münasibətilə təbriklərini çatdırdı və bu bayramın Pakistanda da qeyd edildiyini məmnunluqla vurğuladı.

Sahir Şamşad Mirza qeyd etdi ki, Kəşmir məsələsində Azərbaycan Pakistanın yanında olduğu kimi, Ermənistan məsələsində də Pakistan Azərbaycanın yanındadır.

# COP29-a hazırlıqla bağlı FHN tərəfindən görülən işlərin böyük hissəsi yekunlaşıb

**Noyabrda Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıqla bağlı Fövqəladə Hallar Nazirliyi (FHN) üzərinə düşən vəzifələrin icrasını davam etdirir.**

Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq FHN-in Mətbuat xidmətindən bildirilib. Qeyd edilib ki, bu məqsədlə cari ilin yanvar ayında FHN-də tərkibinə nazirliyin rəhbər vəzifəli şəxslərinin daxil olduğu Qərargah və onun tərkibində müvafiq sahələr üzrə peşəkar mütəxəssislərdən ibarət işçi qruplar yaradılıb, Tədbirlər Planı hazırlanaraq təsdiq edilib.

"Təsdiq olunan Tədbirlər Planı üzrə qarşıya qoyulan tapşırıqların yüksək səviyyədə icrası üçün nazirliyin bütün qüvvələri ilk gündən səfərbər olunub. Bu çərçivədə, FHN-in müvafiq qurumları tərəfindən əhalinin, o cümlədən qonaqların təhlükəsizliyinin etibarlı şəkildə təmin edilməsi üçün səlahiyyətləri çərçivəsində obyektlərdə yanğın, texniki, tikinti və radiasiya təhlükəsizliyi sahələri üzrə müayinə və monitorinqlər həyata keçirilir, maarifləndirmə, mümkün fövqəladə hallara çevik reaksiya verilməsi, habelə Bakı buxtasının ekoloji vəziyyətinin yaxşılaşdırılması və digər istiqamətlərdə zəruri tədbirlər görülür.




COP29-a hazırlıqla bağlı fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə mütəmadi olaraq müşavirələr keçirilir, görülmüş işlərə dair Qərargah üzvlərinin hesabatları təqdim olunaraq geniş müzakirəsi aparılır, aidiyyəti təhlükəsizlik məsələlərinin həllinə dair zəruri tapşırıqlar verilir, icrası nəzarətə götürülür", - deyə nazirlikdən bildirilib.

Əlavə olunub ki, COP29-a hazırlıqla bağlı FHN tərəfindən işlərin böyük hissəsi yerinə yetirilib.

# İZİA - iqtisadiyyatda dövlət-özəl tərəfdaşlığının körpüsü

**Azərbaycanda illərdir iqtisadiyyatın şaxələndirilməsi məqsədi ilə sənayeləşmə siyasəti həyata keçirilir. Elə ölkənin müxtəlif bölgələrində yaradılan sənaye parkları və məhəllələri də bu məqsədə xidmət edir. Həmin sənaye subyektlərinin idarə edilməsinin təkmilləşdirilməsinə isə Prezident İlham Əliyevin müvafiq fərmanı ilə yaradılmış İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA) cavabdehdir.**

İZİA sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların fəaliyyətinin təşkili, onların idarə olunması və inkişafı ilə bağlı tədbirlər hazırlayan, onların həyata keçirilməsini təmin edən, o cümlədən bu istiqamətdə göstərilən dövlət dəstəyi tədbirlərində yaxından iştirak edən qurum kimi fəaliyyət göstərir. Agentlik, eyni zamanda həm sənayedə, həm də aqrar sektorda daha innovativ hesab olunan məhsulların istehsalına, dövlət-özəl tərəfdaşlığının və dövlət dəstəyinin gücləndirilməsinə xidmət edir ki, bu da Azərbaycana sərmayə axını, ixracın genişlənməsi və yeni iş yerlərinin yaradılması prosesini sürətləndirir, yerli istehsalın dünya bazarında rəqabət qabiliyyətini gücləndirir. Bundan başqa, İZİA ölkədə aqrar sənayenin modernləşməsinə şərait yaradaraq sahibkarlar arasında əlaqə qurulmasında da böyük rol oynayır.

Prezident İlham Əliyevin "Bizim uğurlu inkişafımız qeyri-neft sənayesinin hesabına təmin edilməlidir" tələbi çərçivəsində sənayenin inkişafı üçün addımlar atılır. Xüsusən son illər rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilir. İnnovativ üsullarla sənaye istehsalı ilbəil genişləndirilir, yeni istehsal sahələri yaradılır, davamlı olaraq sistemli və uğurlu nəticə verən tədbirlər reallaşdırılır. Cari ilin 9 ayının nəticələrinə nəzər yetirək. Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkə üzrə yanvar-sentyabr aylarında 47,8 milyard manatlıq və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çox sənaye məhsulları istehsal edilmişdir. Məhsul istehsalı neft-qaz sektorunda 0,6, qeyri neft-qaz sektorunda isə 8,7 faiz artmışdır. Sənaye məhsullarının 64 faizi mədənçıxarma, 30,2 faizi emal, 4,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Bu gün Azərbaycan qeyri-neft sektorunun inkişafına nail olmaqla, bir tərəfdən müxtəlif mallara olan tələbatı tam şəkildə yerli istehsal hesabına ödəyir, digər tərəfdən xarici bazarlarda Azərbaycan məhsulları ilə təmsil olunur və bu yolla neft daxilolmalarının azalmasını kompensasiya edir. Qlobal iqtisadiyyata sıx inteqrasiya edən Azərbaycan bunun üçün dünya miqyasında təsdiqini tapan və yaxşı nəticələr verən qabaqcıl təcrübədən bəhrələnir.

İndi dünyanın ayrı-ayrı inkişaf etmiş ölkələrində sənaye quruculuğunda müşahidə edilən əsas trendlərdən biri müxtəlif istehsal sahələrinin hər cür infrastruktur təminatına malik eyni bir məkanda cəmləşməsi və innovasiyalara əsaslanan sənaye zonalarının yaradılması ilə bağlıdır. Azərbaycan da məhz bu yolu tutub. Sənaye zonalarının qısa zaman ərzində yaradılmalarına baxmayaraq, onların qeyri-neft sektorunun inkişafında çox böyük payları var. Bəllidir ki, 2011-ci ildə yaradılan ilk sənaye zonası Sumqayıt Kimya Sənaye Parkıdır. Amma hazırda sənaye parklarının sayı 7-yə, sənaye məhəllələrinin sayı isə 5-ə çatıb. Bu da ondan xəbər verir ki, əsasən regionlarda yaradılan sənaye parkları və sənaye məhəllələri iqtisadi cəhətdən özünü doğruldur.

Sənaye zonalarının üstün cəhətlərindən biri burada əlverişli investisiya mühitinin yaradılmasıdır. Sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, mənfəət vergilərindən, istehsal məqsədi ilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunublar. Məhz bu hesaba sənaye zonalarında investorların sayı artır. Yeri gəlmişkən qeyd edək ki, 2013-cü ildən indiyədək sənaye zonaları üzrə ümumi investisiya həcmi 7,79 milyard manat olan 140-dan çox sahibkarlıq subyektinə rezident statusu verilib. Onlar artıq sənaye zonalarına 6,8 milyard manatdan çox investisiya yatırıb və 10 min 500-dən çox daimi iş yeri yaradıblar. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 1 milyard manatdan çox investisiyanın yatırılması və 9400-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur. İZİA-nın məlumatına görə, bu ilin 9 ayı ərzində sənaye zonalarında 2,4 milyard manatlıq satış həyata keçirilib ki, bunun da 801,1 milyonluq hissəsi ixracın payına düşür.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

# Azərbaycanın Baş naziri gürcüstanlı həmkarına təbrik məktubu ünvanlayıb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov oktyabrın 28-də Gürcüstanın Baş naziri İrakli Kobaxidzeyə təbrik məktubu ünvanlayıb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Ə.Əsədov Gürcüstanda keçirilmiş parlament seçkilərində "Gürcü Arzusu - Demokratik Gürcüstan" partiyasının qalib gəlməsi münasibətilə İ.Kobaxidzeyə təbriklərini çatdırıb, bu qələbəni dost Gürcüstan xalqının ölkədə həyata keçirilən siyasi kursa dəstəyinin növbəti təsdiqi kimi qiymətləndirib.

Seçkilərin nəticələrinin Gürcüstanın tərəqqisinə və daha da çiçəklənməsinə xidmət edəcəyinə, eyni zamanda iki xalq arasında çoxəsrlik dostluq və mehriban qonşuluq ənənələrinə əsaslanan Azərbaycan-Gürcüstan strateji tərəfdaşlıq münasibətlərinin hərtərəfli inkişafına töhfə verəcəyinə əminlik ifadə olunub.

# Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Kazanda BRICS üzv ölkələrinin milli statistika xidmətləri rəhbərlərinin 16-cı görüşündə iştirak edir



**2024-sü ilin 28-29 oktyabr tarixlərində Rusiya Federasiyasının Kazan şəhərində BRICS üzv ölkələrinin milli statistika xidmətləri rəhbərlərinin 16-cı görüşü keçirilir. Tədbirdə qonaq qismində ölkəmizi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov təmsil edir.**

Tədbir statistik istehsalın modernizasiyasına, statistika peşəsinə müasir tələblərə, Rusiyada və BRICS ölkələrində statistika cəmiyyətinin inkişafına dair sessiyalardan ibarətdir.

Görüş çərçivəsində rəsmi statistikanın inkişafı ilə bağlı 2030-cu il hədəflərini özündə əks etdirən milli strategiyalar, siyahıyaalmalar, dayanıqlı inkişaf məqsədləri göstəriciləri, irihəcmli məlumatlara dair BMT qlobal platforması, statistik məqsədlər üçün məlumatların yeni toplanma üsulları və statistik nəşrlərin təkmilləşdirilməsi, məlumat ekosistemində yeni inkişaf dövrü və rəqəmsal həllər, smart statistika, süni intellektdən statistik məqsədlər üçün istifadə, turizm statistikasının təkmilləşdirilməsində irihəcmli və geoməkan məlumatlardan istifadə, metaməlumatlar və yeni statistik məlumat mübadiləsi standartlarının tətbiqi, biznes reyestr, statistik məlumatların keyfiyyətinin təmin olunması üçün keyfiyyətin idarəolunması sistemi, statistik təhsil və bu sahədə prioritetlər və problemlər müzakirə edilir.

Tədbir çərçivəsində BRICS ölkələrində birgə statistik nəşrlərin və əsas statistik göstəricilərin onlayn platformaları haqqında təqdimatların edilməsi də nəzərdə tutulmuşdur.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# BRICS-lə əməkdaşlıq

## Bu, Azərbaycan iqtisadiyyatının təqdimatı baxımından vacibdir

**BRICS-in Kazanda 33 dövlətin nümayəndələrinin iştirakı ilə 16-cı sammiti keçirildi. Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika tərəfindən təsis edilən BRICS sammitinin gündəliyi iqtisadi məsələlərlə zəngin oldu.**



BRICS-in qlobal iqtisadiyyatda payının artdığının müşahidə olunduğunu deyən Milli Məclisin deputatı Vüqar Bayramov bildirib ki, yalnız son illər təşkilatın payı 35 faizdən 37 faizə qədər yüksəlib. O qeyd edib ki, eyni zamanda Qərb ölkələrinin qlobal ümumi daxili məhsuldakı payı 30 faizdən 28 faizə qədər azalıb. Yəni bu o deməkdir ki, BRICS həm də qlobal gücdür. "Praktik olaraq dünya iqtisadiyyatının 37 faizi məhz bu təşkilata üzv olan ölkələrin payına düşür. Azərbaycan BRICS-lə əməkdaşlığı gücləndirməkdə maraqlıdır. BRICS-lə əməkdaşlıq Azərbaycan üçün xüsusən qeyri-neft məhsullarının ixracı baxımından vacibdir. Daha çox məhsulun BRICS ölkələrinə ixrac olunması qeyri-neft sahəsində gəlirlərimizin artması aspektindən önəmlidir", - deyə deputat əlavə edib.

V.Bayramov vurğulayıb ki, xüsusən pandemiyadan sonra BRICS ölkələri ilə turizm sahəsində əməkdaşlığın güclənməsi müşahidə olunur. Azərbaycana gələn turistlərin əhəmiyyətli hissəsi BRICS ölkələrinin payına düşür. Xüsusən Hindistandan, Çindən Azərbaycana gələn turistlərin sayında kəskin artım müşahidə edilir. Bu da məhz təşkilatla ölkəmizin turizm sahəsində xüsusi əməkdaşlığa malik olduğunu göstərən faktorlardan biridir.

Deputat bildirib ki, BRICS-lə əməkdaşlıq həm də Azərbaycan iqtisadiyyatının təqdimatı baxımından vacibdir: "Bu, nəticə etibarilə Azərbaycan iqtisadiyyatının BRICS coğrafiyasına təqdimatına, həmçinin yeni sərmayələrin cəlb edilməsinə, birgə layihələrin reallaşdırılmasına imkan yarada bilər. Bu baxımdan BRICS Azərbaycan üçün vacib təşkilatlardan biridir".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Göstəricilər ətraflı təhlil olunub

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərlik etdiyi "Texnologiya və innovasiyalar" işçi qrupunun növbəti iclası keçirilib.**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, iclasda Komissiya Katibliyinin rəhbərliyi, işçi qrupun rəhbəri, üzvləri və özəl sektor nümayəndələri iştirak ediblər.

Xatırladaq ki, sözügedən işçi qrupun ilkin iclası oktyabrın 8-də keçirilib, lakin müzakirə edilən məsələlərin çox olması səbəbindən iclasın davamının oktyabrın 24-də keçirilməsi qərara alınıb.

İclasda "Texnologiya və innovasiyalar" işçi qrupunun cari il ərzində fəaliyyəti, eyni zamanda 26 sentyabr tarixində dərc edilmiş "2024-cü il üzrə Qlobal İnnovasiya İndeksi"nin (Qİİ-2024) nəticələri ətraflı şəkildə təhlil edilib.

Komissiya Katibliyinin rəhbəri Vüsal Şıxəliyev açılış çıxışı edərək ölkənin Qlobal İnnovasiya İndeksindəki göstəricilərinin yaxşılaşdırılmasında işçi qrupun fəaliyyətinin mühüm rol oynadığını qeyd edib. Bu istiqamətdə həm işçi qrup daxilində, həm də digər qrup və altqruplarla əməkdaşlığın və kommunikasiyanın davamlılığının vacibliyini vurğulayıb.

İşçi qrupun rəhbəri, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov bildirib ki, oktyabrın 8-də keçirilən iclasda İndeksin 3-cü, 4-cü və 5-ci alt indikatorları ətraflı təhlil edilib, müvafiq qərarlar qəbul edilib, artıq bir çox qərarların icrasına da başlanılıb. Həmçinin qeyd olunub ki, bugünkü iclasda isə İndeksin 6-cı və 7-ci alt indikatorları təhlil edilib, onların hesablama metodologiyası araşdırılıb. Bu göstəricilər üzrə Azərbaycanın mövqeyinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər görüləcək. Eyni zamanda nazir müavini əlavə edib ki, növbəti illərdə indeksdə yuxarı yerlərdə qərarlaşmağımız üçün indidən zəruri addımlar atılmalı, növbəti ilin Fəaliyyət Planı hazırlanarkən birbaşa alt indikatora müsbət təsir göstərən tədbirlər əsas götürülməlidir.

Daha sonra, iclasın gündəliyinə uyğun olaraq, dövlət qurumlarının nümayəndələri tərəfindən 2024-cü ilin 9 ayı ərzində görülmüş işlərin hesabatları və növbəti rüb qarşıya qoyulmuş hədəflər, həmçinin "Qİİ-2024" hesabatının aidiyyəti alt indikatorları müzakirə edilib.

İclasda səsləndirilmiş fikirlər əsasında işçi qrupu tərəfindən müvafiq təkliflər verilib və qərarlar qəbul edilib.

Məlumat üçün qeyd edək ki, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Texnologiya və innovasiyalar" işçi qrupuna rəhbərliyi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Sumqayıtda "Ülviyyət" adlı tədbirdə iştirak edib

















**Oktyabrın 28-də Sumqayıt Reabilitasiya Mərkəzinin təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş "Ülviyyət" adlı tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, Sumqayıt Şəhər Heydər Əliyev Mərkəzində təşkil olunan tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Tədbirin açılışında Azərbaycan Milli Konservatoriyasının nəzdində Sumqayıt Musiqi Kollecinin simli kvartetinin ifasında musiqi əsərləri səsləndirilib.

Leyla Əliyeva tədbirdə sərgilənən müxtəlif sənət əsərləri ilə yaxından tanış olub. Sərgidə rəssamlıq, daş tozundan fiqurların tökülməsi, ağac üzərində bədii oyma, toxuculuq və digər sənət növləri üzrə əl işləri nümayiş olunub. Tədbir çərçivəsində həmçinin şəhid ailəsi üzvlərinin əl işlərindən ibarət kulinariya sərgisi də təşkil edilib.

Bundan əlavə, şəhid övladlarından ibarət "Zəfər sədası" xor qrupunun ifasında səsləndirilən Vətənə həsr olunmuş mahnılar tədbirə xüsusi ab-hava qatıb.

Sonda Sumqayıt Reabilitasiya Mərkəzinin əməkdaşları və sağlamlıq imkanları məhdud şəxslər birgə türk rəqsi ifa ediblər. Qarabağ müharibəsi qazisi və Sumqayıt Reabilitasiya Mərkəzinin əməkdaşının inklüziv rəqsi də iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

Qeyd edək ki, bu cür tədbir və sərgilərin təşkili əlilliyi olan şəxslərin və şəhid ailələrinin üzvlərinin cəmiyyətə daha çox inteqrasiyasına, onların inklüzivlik meyarlarının artmasına və sosial statuslarının yaxşılaşmasına xidmət edir.

# Dünya səyyahları Xudafərin körpüsü ilə tanış olublar









**Belçika vətəndaşı Yves Bouvienin başçılıq etdiyi Böyük Britaniyanın "Piki Reels" klubunun 33 nəfərlik səyyahlar qrupu Cəbrayıl rayonu ərazisində yerləşən tarixi abidə - Xudafərin körpüsündə olub.**

AZƏRTAC xəbər verir ki, səyyahlar Araz çayı üzərində yerləşən Xudafərin körpüsü ilə yaxından tanış olublar. Xudafərin körpüsü barədə, həmçinin Ermənistan silahlı qüvvələrinin qədim yurd yerlərimizdə törətdiyi vəhşiliklər və cinayət izləri haqqında səyyahlara məlumat verilib.

Bildirilib ki, dünyaəhəmiyyətli tarixi hadisələrlə bağlılığına, gözəl landşaftla üzvi birliyinə, yüksək memarlıq-mühəndis həlli və digər xüsusiyyətlərinə görə Xudafərin körpüləri Azərbaycan memarlığının universal dəyərli abidələridir. Tarixən İpək yolunun üzərində yerləşən körpülərdən biri 15, digəri 11 aşırımlıdır. XII-XIII əsrlərin yadigarı olan körpülər orta əsrlərdə Azərbaycanda yüksək sənətkarlığın inkişafından xəbər verir. Diqqətə çatdırılıb ki, digər ərazilər kimi bu yerlər də dağıntılara məruz qalıb, işğal illərində evlər talan, təbiət isə məhv edilib. Burada da bir çox tarixi-dini abidələr ermənilər tərəfindən təhqir edilib, məscidlər heyvan tövləsi kimi istifadə olunub. Qəbirlər qazılaraq dağıdılıb. Vurğulanıb ki, məhz işğaldan azad edildikdən sonra Şərqi Zəngəzurda da həyat canlanmağa başlayıb və ölkəmiz tərəfindən mühüm layihələr icra olunur.

Dünyanın əsas beynəlxalq səyahətçilər klublarının 2020-2024-cü illərdə Qarabağ və Şərqi Zəngəzura 11 səfəri təşkil olunub. Bu səfərlərdə, ümumilikdə, 50-dən artıq ölkədən 400-dən çox məşhur beynəlxalq səyahətçi iştirak edib.

Böyük Britaniyanın "Piki Reels" klubunun bu səfəri sayca 12-cidir. Bu səfərlər işğaldan azad edilmiş ərazilərin "black tourism" çərçivəsində tanıdılması, eyni zamanda aparılan nəhəng quruculuq və bərpa işlərinin nümayişi üçün müstəsna əhəmiyyət daşıyır.

# Dünya səyyahları işğaldan azad olunan torpaqların Ermənistan tərəfindən minalarla çirkləndirilməsi barədə məlumatlandırılıblar







**Belçika vətəndaşı Yves Bouvienin başçılıq etdiyi Böyük Britaniyanın "Piki Reels" klubunun 33 nəfərlik səyyahlar qrupu işğaldan azad olunan torpaqların Ermənistan tərəfindən minalarla çirkləndirilməsi barədə məlumatlandırılıb.**



AZƏRTAC xəbər verir ki, Füzuli rayonuna gələn səyyahlar işğaldan azad edilən Kənd Horadiz ərazisində ANAMA tərəfindən aparılan minatəmizləmə işləri ilə tanış olublar. Bildirilib ki, Kənd Horadizin ərazisində əsasən tankəleyhinə minalar basdırılıb. Axtarış zamanı ərazidə partlamamış silah-sursatlar da aşkarlanır. Qeyd edilib ki, işğal zamanı ərazilər tankəleyhinə minalarla bərabər, piyadaəleyhinə minalarla və digər partlayıcı qurğularla da həddən çox çirkləndirilib və aşkarlanan piyadaəleyhinə minalar Ermənistan istehsalıdır.

Bildirilib ki, ərazidə təmizləmə işləri mexaniki, əl ilə və təlim keçmiş itlər vasitəsilə aparılır.

Daha sonra ərazidə aşkarlanan tankəleyhinə minaların zərərsizləşdirilməsi prosesi həyata keçirilib.

Qeyd edək ki, Belçika vətəndaşı Yves Bouvienin başçılıq etdiyi Böyük Britaniyanın "Piki Reels" klubunun 33 nəfərlik səyyahlar qrupu işğaldan azad olunan torpaqlarımızda səfərdədir. Xarici səyyahlar erməni işğalı zamanı törədilən vandalizm barədə məlumatlandırılır, həmçinin azad olunan ərazilərdə Azərbaycan dövləti tərəfindən həyata keçirilən quruculuq işlərinə şahidlik edirlər.

# Azərbaycanın mədəni incisi, MDB-nin mədəniyyət mərkəzi

**Şərqi Zəngəzurun giriş qapısı, uca dağların qoynundakı cənnətməkan Laçındayıq...**

**Həkəri çayını keçib şəhərə doğru yüksəkliyə qalxdıqca, adama elə gəlir ki, sanki rəssamın çəkdiyi peyzaja baxırsan.**

**Laçının bir ayrı mənzərəsi var, baxdıqca adamın ürəyi dağa dönür...**

**Heyrətləndirici məqam isə odur ki, bu boyda əzəməti şanlı Zəfərin memarı İlham Əliyev cəmi 7 aya ərsəyə gətirib.**

**Qürurlanmayasan, fəxarət hissi keçirməyəsən neyləyəsən?!**





Ümumiyyətlə Laçının özünəməxsus füsunkar təbiəti və rəngarəng landşaftı şəhərin turizm məkanı kimi inkişaf etdirilməsinə, açıq hava istifadəsi və sağlam həyat imkanları olan canlı və cəlbedici regional mərkəzə çevrilməsinə şərait yaradır. Beynəlxalq hava limanının yaxınlığında, beynəlxalq və respublikaəhəmiyyətli bir sıra avtomobil yollarının kəsişməsində yerləşdiyi üçün şəhər regiona giriş qapısı funksiyasını daşımaqla, çoxşaxəli inkişaf istiqamətlərinə malikdir.

Oktyabrın əvvəlində Moskvada keçirilmiş Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının iclasında Laçının MDB-nin mədəniyyət paytaxtı elan edilməsi də elə bunlardan qaynaqlanır. Mühüm geostrateji mövqeyə malik Laçın həqiqətən də mədəniyyət mərkəzidir.

Bu xoş xəbər yayıldıqdan sonra təbii ki, MDB-nin mədəniyyət paytaxtında müəyyən hazırlıq işlərinə start verilib. Biz də qədim yurdumuzun mədəni, tarixi abidələri, burada həyata keçiriləcək yeni müxtəlifistiqamətli layihələri ilə tanış olmaq üçün Laçına gəlmişik.

## Laçın 2024-cü ildə mədəni sahədə 2 böyük uğura imza atıb

Şəhəri bir qədər gəzib dolaşdıqdan sonra suallarımıza ətraflı cavab almaq üçün Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinə baş çəkirik.

Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin rəsmisi Hüseyn Quliyevlə söhbətimiz əsnasında bəlli oldu ki, Laçın 2024-cü ildə iki böyük uğura imza atıb. Onlardan biri Ukraynanın İrpin şəhəri ilə Laçın şəhərinin qardaşlaşması haqqında razılaşmadır. Belə ki, Ukraynanın İrpin şəhərinin meri Oleksandr Markuşinin başçılıq etdiyi nümayəndə heyəti Laçına səfəri çərçivəsində Laçın rayonunda onunla Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi arasında memorandum imzalanıb. Sənəddə şəhərlərimizin tarixi mədəniyyəti və həyatı ilə yaxından qarşılıqlı şəkildə tanış olması, həm də dostluq əlaqələrinin yaradılması nəzərdə tutulub. Bu nəinki beynəlxalq müstəvidə, həmçinin şəhərlərin icmaları arasında iqtisadi, mədəni, turizm və təhsil sahələrində də əlaqələrin inkişafına töhfə verəcək. Şəhərlərarası münasibətlərin həyata keçirilməsi çərçivəsində nümayəndə heyətlərinin, idman və bədii kollektivlərin səfərləri nəzərdə tutulur. Bu zaman şəhərlərin həyatını əks etdirən foto sərgilərin nümayiş etdirilməsi və əlbəttə ki, şəhər idarəetməsi təcrübəsi sahəsində fikir mübadiləsi aparılacaq.

İkinci uğur isə Laçın şəhərinin MDB-nin mədəniyyət paytaxtı seçilməsidir. Hüseyn Quliyev deyir ki, hər il MDB dövlətlərinin bir şəhəri mədəniyyət paytaxtı seçilir. 2026-cı ildə isə növbə Ermənistanın Mehri şəhərinindir: "Burada da müəyyən mənada müxtəlif yanaşma var. İlk məqam odur ki, hər bir mədəniyyət paytaxtı seçilmiş şəhər, özündən öncəki şəhərdən bu adı təhvil alır. Yəni Mehri Laçından mədəniyyət paytaxtı statusunu almalı olacaq. Bu da qarşılıqlı səfərlər çərçivəsində baş verir. Zaman göstərəcək ki, ermənilər bu prosesdə necə davranacaqlar".




## Laçında nələr olacaq, nələr...

Şəhərin baş planına əsasən, növbəti ildə Laçında böyük layihələr həyata keçiriləcək. Hüseyn Quliyev deyir ki, gələn il Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi tərəfindən Zerti kəndində inşa edilən böyük otel kompleksinin açılışı olacaq. Eyni zamanda Qorçu qəsəbəsində yaradılan Beynəlxalq Hava Limanı da açılacaq.

Bu iki mühüm infrastruktur turistlərin Laçına səfəri və mədəni istirahətləri üçün çox böyük addımlardır. Növbəti mərhələdə şəhərin əsas küçələrindən biri, Ulu Öndərin adını daşıyan Heydər Əliyev küçəsinin bərpası həyata keçiriləcək. Bunun konsepsiyası işlənilir: "Həmin küçədə bizim özəl investorlar və eyni zamanda baş podratçımız tərəfindən bir çox mədəni layihələrin bərpası, təhvil verilməsi, işlək vəziyyətə gətirilməsi də nəzərdə tutulub. Bunlar həm əhalinin məşğulluğu və həm də daimi məskunlaşma prosesinə müsbət təsir göstərəcək".

Nümayəndəliyin rəsmisi deyir ki, Laçın yenidən qurulduqdan sonra simasını yeniləyib. Bundan sonra görüləcək işlər, reallaşdırılacaq layihələr Laçının simasını daha da əsrarəngiz edəcək.

## Tramvaya min, kanata çat, kanata əyləş, bulvara get

Hüseyn Quliyevin sözlərinə görə, Laçında əvvəllər olmayan layihələrin də reallaşdırılması planlaşdırılır. Onlardan biri də tramvay xəttidir. Artıq tramvayla bağlı qərar verilib və onun mexanizmi hazırlanıb:

"Heydər Əliyev küçəsində tramvay xətti də yaradılacaq. Əvvəllər belə bir sistem olmayıb. Belə qərara alınıb ki, Bayraq meydanının həmin küçə ilə birləşdirilən hissəsində tramvay xətti yaradılsın. Bu xəttin tamamlanacağı yerdən isə, yəni şəhərin həmin hissəsindən aşağıya kanat xətti çəkilsin. Yəni tramvayla gedib çıxacaqsan kanat xəttinin başlanğıcına. Kanata minib yüksəklikdən şəhəri seyr edə-edə Həkəri çayının kənarında salınacaq bulvara enəcəksən. Artıq bunun üzərində sistemli iş gedir.



Nümayəndəliyin rəsmisi deyir ki, Laçının MDB-nin mədəniyyət paytaxtı elan olunması bu proseslərin daha da sürətləndirilməsini şərtləndirir. 2025-ci ilə qədər Laçında bir çox layihələrin icrası yekunlaşacaq.

Bundan başqa müxtəlif layihələrin icrası davam etdirilir. Bəzi layihələr son mərhələdədir: "Prezident İlham Əliyevin qarşımıza qoyduğu tapşırıq və göstərişləri yerinə yetirmək üçün var gücümüzlə çalışırıq. İnanırıq ki, Laçın Şərqi Zəngəzurun giriş qapısı kimi öz gözəlliyi, müasirliyi ilə hər zaman turistlərin ən çox ziyarət edəcəkəri məkanlardan biri olacaq".

## Təbiətlə vəhdətdə olan şəhərin ərazisi böyüdüləcək

Laçın şəhərinin mövcud planlaşdırma strukturunun saxlanılması və bərpası, o cümlədən yeni yaşayış ərazilərinin inkişaf etdirilməsi əsas hədəf götürülməklə zonalaşdırılıb. Növbəti 20 il ərzində şəhər ərazisinin genişlənərək 713 hektara, əhali sayının isə 18 min nəfərə çatacağı proqnozlaşdırılıb.

Baş planın konseptual əsasını "Təbiətlə vəhdətdə olan şəhər" yanaşması təşkil edir. Buraya urbanizasiya mərkəzinin xüsusiyyətlərinin formalaşdırılması, iqtisadi şaxələndirmənin təmin edilməsi, ekoloji həssas ərazilərin mühafizəsi, "yaşıl enerji" mənbələrindən və müasir texniki infrastruktur texnologiyalarından istifadə, həmçinin şəhər xidmətlərinə piyada əlçatanlığının artırılması daxildir. Plana əsasən, Laçın şəhəri "ağıllı idarəetmə", müasir qabaqcıl təhsil və inklüziv mobillik həlləri ilə seçilən davamlı və innovativ mərkəzə çevriləcək.

Baş plan layihəsində təbii yaşıllıqlarla əhatələnmiş şəhərin tarixən mövcud olmuş təxminən 258 hektar məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilib. Bununla yanaşı, çoxfunksiyalı zonalarda və digər yaşayış ərazilərində çoxmənzilli binaların tikilməsi təklif edilir. Şəhərdə xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də yaradılacaq. Planlaşdırmada tətbiq edilmiş "15 dəqiqəlik şəhər" prinsipi isə yaşayış məhəllələrinin, gündəlik tələbat obyektlərinin yaxın məsafədə olmasını və aşağısürətli yol infrastrukturunun təşkilini nəzərdə tutaraq sakinlərin və qonaqların şəhər daxilində rahat hərəkətini təmin edəcək.

## Şərqi Zəngəzurun ən böyük məscidi

Ərazinin coğrafi mövqeyinə, quruluşuna uyğun olaraq yerli ənənələrə, müasir yanaşmalara əsaslanan və Laçın şəhərinin özünəməxsus simasının formalaşdırılmasında istifadə ediləcək memarlıq layihələri həyata keçiriləcək.

Hazirda şəhərdə Şərqi Zəngəzurun ən böyük məscidi tikilir. Hüseyn Quliyev deyir ki, işğaldan azad olunan ərazilərdə aparılan tikinti-quruculuq işləri çərçivəsində məscid və məbədlərin, dini inanc yerlərinin bərpası və tikintisi də xüsusi nəzarətdə saxlanılır. Hazırda Laçın şəhərində inşa edilən məscid binası azad olunan ərazilərdə ən böyük ibadət yerlərindən biri olacaq.

Məscid kompleksinin ərazisi 1 hektara yaxın sahəni əhatə edir. Relyefə uyğun inşa edilən məscid iki mərtəbədən ibarət olacaq, birinci mərtəbədə texniki otaqlar yer alacaq. İkinci mərtəbə isə birbaşa məscidin qarşısındakı eyvana açılacaq ki, bu da əhalinin rahat ibadəti üçün məscidə girişi təmin edəcək. Məsciddə qadınlar və kişilər üçün ayrıca ibadət zalları, dəstəmaz otaqları olacaq. 600 kvadratmetrə yaxın sahəsi olacaq məscid binası 16 metr hündürlükdə bir günbəz və hər biri 24 metr hündürlükdə iki minarə ilə layihələndirilib.

Məscid şəhərin qərb hissəsində girişdə magistral yolun kənarında yerləşir ki, bu da şəhərə gələn turist və qonaqların rahat ibadət etməsinə hesablanıb.

Bu ilin sonunda məscidin böyük hissəsinin təhvil verilməsi nəzərdə tutulur.




## Zerti kəndində böyük sənaye sahəsi yaradılıb

Bundan başqa Laçında "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonu da yaradılıb. Qarabağın çoxşaxəli nadir yaradıcılıq məkanı layihəsi olan "Hoçazfilm" studiyası Laçın şəhərində iki inzibati binadan və bir çəkiliş pavilyonundan ibarətdir. Studiyanın adı Laçın rayonunun əsas rəmzlərindən sayılan Hoçaz qayalıqlarının adından götürülüb. Studiya Laçın başda olmaqla, ümumilikdə Qarabağ regionunun işğal və işğaldan sonrakı dövrlərinin salnaməsini yaratmaqda regional audiovizual mərkəz kimi fəaliyyət göstərir.

Şəhərdən bir qədər aralıda yerləşən Zerti kəndində böyük sənaye sahəsi yaradılıb. Orada əhalinin məşğulluğu üçün bir çox müəssisələr fəaliyyət göstərir. Laçına geri qayıdan sakinlərin burada işlə təmin edilməsi prosesi reallaşır.

Hüseyn Quliyev deyir ki, yeni yaşayış məntəqələrinin salınması, yol infrastrukturunun qurulması nəzərdə tutulur. Əhalinin dövlət xidmətlərinə əlçatanlığının təmin edilməsi üçün şəhərdə DOST və "ASAN xidmət" mərkəzlərinin yaradılması planlaşdırılır.

Beləcə, şəhərdə yaradılacaq infrastruktur layihələri ilə bağlı geniş məlumat aldıqdan sonra üz tuturuq "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonuna...





*Rəşad BAXŞƏLİYEV,*
*Lazım QULİYEV,*
*"Azərbaycan"*

*Bakı-Laçın-Bakı*

---

29 ZƏFƏR gündəliyi
29 noyabr 2020-ci il

## Erməni əsgəri silahını, bayrağını atıb döyüş meydanından qaçır



Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 28-i gün ərzində və 29-na keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutublar.

Döyüş əməliyyatları əsasən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam edib. Düşmənin hücum etmək cəhdlərinin qarşısı qətiyyətlə alınıb.

Cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında ölən və yaralananlar olub.

Gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd "T-72" tankı, 2 ədəd "BM-21" "Qrad yaylım" atəşli reaktiv sistemi, 14 ədəd müxtəliftipli topu, bir neçə dayaq məntəqəsi və 6 ədəd avtomobil texnikası məhv edilərək sıradan çıxarılıb.

### Goranboy, Tərtər, Bərdə artilleriya atəşinə tutulub



Humanitar atəşkəs rejimini kobudcasına pozmaqda davam edən Ermənistan silahlı qüvvələri oktyabrın 29-da saat 09:25 radələrində Goranboy, Tərtər, Bərdə rayonlarının ərazisini artilleriya atəşinə tutublar.

### Düşmən çoxlu sayda zirehli texnikanı döyüş meydanında qoyaraq qaçıb

Əks-həmlə əməliyyatı həyata keçirən Azərbaycan Ordusu bölmələrinin zərbələri nəticəsində düşmən çoxlu sayda zirehli texnikanı döyüş meydanında qoyaraq qaçıb.

Müdafiə Nazirliyi düşmənin döyüş meydanında atıb qaçdığı döyüş sursatının, zirehli və avtomobil texnikalarının videogörüntüsünü yayıb.

### Qubadlı istiqamətində düşmənin iki "Su-25" təyyarəsi məhv edilib

Saat 13:18 və 13:20 radələrində cəbhənin Qubadlı istiqamətində Azərbaycan Ordusunun mövqelərinə aviazərbələr endirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin iki "Su-25" hücum təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib.

### Ermənistan xarici ölkələrin səfirlərini, diplomatlarını atəşə tutub

Saat 13:50 radələrində Azərbaycandakı diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin dövlət rəsmiləri ilə birgə Tərtərə səfəri zamanı humanitar atəşkəs rejimini növbəti dəfə kobudcasına pozan Ermənistan silahlı qüvvələri qəsdən həmin istiqaməti atəşə tutublar.

Müdafiə Nazirliyinin yaydığı məlumatda Ermənistanın bu addımı qəti surətdə pislənilib və beynəlxalq ictimaiyyətə qarşı təcavüz aktı kimi dəyərləndirilib.

### İrəvanın daha bir uydurması ifşa edilib

Ermənistan mətbuatı növbəti uydurma informasiya yayaraq, guya Azərbaycan Ordusunun bölmələrinin Xankəndiyə raket, Əsgəran, Ağdərə və Xocavəndə isə aviasiya zərbələri endirdiklərini iddia edib.

Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumatda qeyd edilib ki, bu xəbər düşmənin bu gün Azərbaycanın yaşayış məntəqələrini raket-artilleriya atəşinə tutmasından diqqəti yayındırmaq məqsədini güdüb.

Ermənistan silahlı qüvvələrindən fərqli olaraq Azərbaycan Ordusu humanitar atəşkəs rejiminə riayət edib və yalnız düşmənin atəş nöqtələrinə adekvat zərbələr endirib.

### "Amnesty International" təşkilatı Ermənistanı təcavüzkar kimi təqdim edib

"Amnesty International" təşkilatı Ermənistanın Azərbaycanın Bərdə şəhərinə istifadəsi qadağan olunmuş kasetli raketlərlə zərbələr endirdiyini təsdiqləyib.

Təşkilatın bu barədə yaydığı açıqlamada deyilib ki, Bərdə şəhərinə bir və ya bir neçə "Smerç" raketi atılıb və raket xəstəxanaya yaxın yaşayış ərazisinə düşüb. Nəticədə ən azı 21 nəfər həlak olub, 70-dən çox insan yaralanıb.

Qeyd olunub ki, "Amnesty International"ın böhrana cavab mütəxəssisləri şəkillərə əsasən şəhərə erməni qüvvələri tərəfindən atılan raket qalıqlarının Rusiya istehsalı olan 9M55 "Smerç" raketlərindən 9N235 sursat parçalarının olduğunu təsdiqləyiblər.

Vurğulanıb ki, kasetli sursatlardan mülki ərazilərə qarşı istifadə etmək amansızlıqdır və məsuliyyətsizlikdir. Bu, çoxsaylı insan itkisinə, yaralanmaya səbəb olur. Kasetli döyüş sursatlarının hər cür şəraitdə istifadəsi beynəlxalq humanitar hüquqa əsasən qadağandır.

*R.BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Gürcüstanda seçkilərin nəticəsi

## Qərbin yürütdüyü məqsədli siyasətə zərbədir

**"Gürcüstanda proporsional sistem üzrə 150 deputatın seçilməsi istiqamətində keçirilən parlament seçkilərində 5 faizlik baryeri keçən partiyalar artıq məlumdur. "Exit-poll"un nəticələrinə, eyni zamanda, Mərkəzi Seçki Komissiyasının məlumatına görə, "Gürcü Arzusu" partiyası 52 faizdən artıq səs toplayaraq irəlidə olub".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, Gürcüstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev deyib. A.Nağıyev bildirib ki, Azərbaycan parlamentinin 8 deputatdan ibarət müşahidə missiyası da seçkilərdə iştirak edib. Azərbaycanlıların kompakt yaşadığı Kvemo-Kartli bölgəsində olan 5 rayonda səsvermə ən yüksək səviyyədə keçib. Seçici fəallığı 50 faizdən çox olub. "Soydaşlarımıza bir daha təşəkkür edirik ki, Azərbaycan dövlətinin və Prezidentinin regional, iqtisadi, mədəni sahədə siyasətini dəstəkləyiblər. Gürcüstanda 300 minə yaxın azərbaycanlı yaşayır, onların olduğu bütün regionlarda səsvermə faizi yüksək idi. Hakim partiyanın ümumi səslərinin yüksək olmasında azərbaycanlıların xüsusi payı var. Bugünkü günə artıq hakim partiyanın siyahısı ilə iki, müxalifətdən isə bir soydaşımızın deputat seçildiyi barədə məlumat var", - deyə o əlavə edib.

Komitə sədri qeyd edib ki, Gürcüstanda hakim partiyanı dəstəkləyənlər sülhə, müharibənin, Qərbin ortaya atdığı müxtəlif qəbuledilməz işlərin əleyhinə səs veriblər. Seçkilərin nəticəsi Gürcüstanda Qərbin yürütdüyü siyasətə və regionda müxtəlif ayırıcı xətlərin yaradılmasına zərbədir. Gürcüstan vətəndaşları ümumilikdə regionda hegemonluq etmək istəyən, marağı olan Qərbə öz sözünü dedi, müstəqil siyasətini yürütdü.

Azərbaycanın daxili və xarici siyasətinin dönməz, müstəqil olduğunu qeyd edən Arzu Nağıyev deyib ki, ölkəmizə qarşı təsir mexanizmlərindən istifadə edə bilməyən Qərb Ermənistan və Gürcüstanda bundan istifadə etməyə çalışır: "Onlar Gürcüstanda da fiaskoya uğradılar. Bu seçkilər regionun parçalanmasının qarşısını aldı və dünyaya bir daha göstərdi ki, ermənilərin hansı siyasət yürütməsinə baxmayaraq, azərbaycanlılar və gürcülər Qərbin təsirinə düşməyəcəklər. Azərbaycan və Gürcüstan birliyi tarixi köklərə dayanır. Biz böyük layihələrdə tərəfdaşıq, eyni zamanda iqtisadi, siyasi, hərbi cəhətdən əməkdaşlıq edirik. Biz birlikdə güclüyük, öz maraqlarımızı müdafiə etməyə qadirik".

Deputat düşünür ki, yeni seçilən parlamentdə bundan sonra həm parlamentarilər, həm də işçi qruplar səviyyəsində orada yaşayan azərbaycanlıların da problemlərinin həlli üçün addımlar atılacaq. Bu istiqamətdə görülən işlər daha da yaxşılaşacaq. Seçkinin nəticələri Azərbaycan və Gürcüstan arasında münasibətlərin inkişafına təkan verəcək amil kimi səciyyələndirilməlidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Qərb Gürcüstanda niyyətinə çatmadı

## Gürcüstan vətəndaşları ölkədə və Cənubi Qafqazda qarşıdurma yaratmaq istəyənlərə deyil, sabitliyə və rifaha səs verdilər



**Gürcüstanda keçirilən parlament seçkiləri hakim "Gürcü Arzusu - Demokratik Gürcüstan" partiyasının qələbəsi ilə başa çatdı. Seçicilərin 53,92 faizinin səsini toplayan partiya ölkənin aparıcı siyasi qüvvəsi olduğunu bir daha təsdiq etdi. Dörd müxalifət partiyası isə birlikdə cəmi 37,78 faiz səs toplaya bildi.**

### Xalq yad dəyərlərə "yox" dedi

Əslində, bu seçkinin nəticələrinə yalnız Gürcüstanda siyasi partiyaların parlamentə düşmək uğrunda mübarizəsinin göstəricisi kimi yanaşmaq olmaz. Çünki bu seçki bütün parametrləri ilə yanaşı, Gürcüstan vətəndaşlarının ölkədə söz sahibi olmaq üçün kənar qüvvələrin, onu öz müstəqil yolundan döndərmək istəyən Avropa siyasi dairələrinin və onların maliyyələşdirdiyi qeyri-hökumət təşkilatları üzərində qələbəsi oldu. Bu seçkinin nəticəsi Gürcüstan vətəndaşlarının ölkənin milli və mənəvi mentaliteti ilə üst-üstə düşməsi qeyri-mümkün olan yad dəyərlər üzərində zəfərinə çevrildi.

Cənubi Qafqazı qarşıdurma meydanına çevirmək, buradan Rusiyaya qarşı ikinci cəbhə açmaq istəyən Qərb siyasi dairələri bu seçkilərdə darmadağın edildilər. Bu baxımdan Gürcüstan vətəndaşları əmin-amanlığa, sülhə və sabitliyə səs verdilər. Vətəndaşlar hakim partiyanı dəstəkləyərək, sülhlə müharibə, ənənəvi və amoral dəyərlər arasında prinsipial seçimlərini etdilər.

Parlament seçkilərinin nəticələri və "Gürcü Arzusu - Demokratik Gürcüstan" partiyasının qələbəsi münasibətilə Gürcüstanın Baş naziri İrakli Kobaxidzeni təbrik edən Prezident İlham Əliyev bildirib ki, bu səsvermə vasitəsilə Gürcüstan vətəndaşları inkişafa, sabitliyə və ənənəvi dəyərlərə öz dəstəyini ifadə etdilər.

Seçkinin nəticələri həm də Azərbaycanın və Gürcüstanın Ermənistanın regiondakı siyasətinə qarşı ortaq mövqedən çıxış etdiyini göstərdi. Əgər seçkilərin nəticəsi başqa cür olsaydı, regionda arzuolunmaz proseslər baş verərdi. Hazırda bir sıra Qərb siyasi dairələri seçkilərin nəticələrinə kölgə salmağa cəhd göstərsələr də, onların nə deməyinin əhəmiyyəti yoxdur.

### Azərbaycanlıların səsi hakim partiyanın qələbəsində həlledici rol oynadı

Bu seçkidə Gürcüstanda yaşayan azərbaycanlılar da fəallıq nümayiş etdirdilər. Qeyd edək ki, qonşu ölkədə 300 min azərbaycanlı yaşayır. Seçkidə soydaşlarımız müharibəyə, daxili qarşıdurmaya, milli-mənəvi dəyərlərin deqradasiyasına deyil, sülhə, inkişafa, milli ənənələrin və dəyərlərin təntənəsinə səs verdilər. Gürcüstanın azərbaycanlı vətəndaşları həm də Azərbaycan dövlətinin və Prezident İlham Əliyevin regional siyasətini, Azərbaycan-Gürcüstan münasibətlərinin möhkəmlənməsi və inkişafına yönəlmiş siyasətini dəstəklədilər.

Azərbaycanlıların yaşadığı bütün rayonlarda səs faizi yüksək olub. Bu baxımdan "Gürcü Arzusu - Demokratik Gürcüstan" partiyasının qələbəsində, onun 50 faizlik baryeri keçməsində soydaşlarımızın səsi əhəmiyyətli dərəcədə təsirini göstərib. Ümumilikdə isə azərbaycanlıların hakim partiyanın ümumi səslərinin formalaşmasında 7-8 faiz payı var. Bu da onu göstərir ki, azərbaycanlılar öz təsir imkanlarına görə Gürcüstanın siyasi arenasında vacib və həlledici rol oynayırlar. Əlbəttə ki, yeni inkişaf dövründə Gürcüstan hakimiyyəti azərbaycanlıların yaşadığı bölgələrdə sosial-iqtisadi və digər problemlərin həllinə daha çox diqqət ayırmalıdır.

Bütövlükdə seçkilərin nəticələri Qərbin Gürcüstanda yürütdüyü siyasətə və regionda ayırıcı xətlər yaratmaq məqsədinə zərbə vurdu. Bu prosesdə həlledici rola malik azərbaycanlılar da ənənəvi dəyərlərə sadiq çıxan digər Gürcüstan vətəndaşları kimi Qərbin regionu parçalamaq və müharibə ocağına çevirmək siyasətinə qarşı çıxış etdilər.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Avropa Parlamenti yenə öz ampluasındadır

## Saxta məlumatlardan ibarət qətnamə təşkilatın çirkin simasını bütün çalarları ilə göstərir

**"Avropa Parlamentinin qəbul etdiyi "Azərbaycanda vəziyyət, insan hüquqlarının və beynəlxalq hüququn pozulması və Ermənistanla münasibətlər" adlı qətnaməsi ölkəmizə qarşı yönəldilmiş məkrli niyyətlərin yeni nümunəsidir. Avropa Parlamenti bununla özünün şovinist, irqçi və müstəmləkəçi mövqeyini, azərbaycanofob, türkofob və islamofob düşüncəsini bir daha ortaya qoydu və türk dünyasına düşmən kəsildiyini göstərdi".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Deputat bildirib ki, Azərbaycana qarşı təsir mahiyyəti daşıyan, saxta məlumatlardan, əsassız faktlardan, yersiz iddialardan, ittiham, tələb və təhdidlərdən ibarət olan bu sənəd Avropa Parlamentinin çirkin simasını bütün çalarları ilə sübut edir. Ölkəmizə qarşı məkrli, yaramaz fəaliyyətdə olan ayrı-ayrı qrupların, dairələrin maraqları, düşüncələri bu qətnamədə bir yerə cəm edilib ki, bu da dövlətimizin beynəlxalq aləmdəki nüfuzuna, inkişafına kölgə salmaq məqsədi daşıyır.

COP29-un keçiriləcəyi gün yaxınlaşdıqca belə təhdidlərin artması, saxta məlumatların yayılması, əsassız qətnamələrin qəbul edilməsi gözləniləndir. "Çünki Azərbaycana qarşı çirkin planlar bir mərkəzdə hazırlanır və Avropadan, ABŞ-dən istiqamətləndirilir. ABŞ Konqresinin dövlətimiz əleyhinə yönəldilən anti-Azərbaycan çağırışlarına tez bir zamanda Avropa İttifaqından, AŞPA-dan, Avropa Parlamentindən dəstək verilməsi, eyni mövzuların, fikirlərin meydana gəlməsi bunun əyani ifadəsidir. Bütün hallarda Ermənistana xüsusi qayğı və diqqət göstərilir, təcavüzkar ölkə silahlandırılır, maliyyə vəsaitləri ilə təmin edilir. Ermənistan demokratik ölkə kimi dəyərləndirilir, ermənilərin çirkin əməlləri humanizm kimi təşviq olunur və onların yeni müharibələr törətmələri üçün əsaslar hazırlanır, təlimatlar verilir", - deyə T.Rzayev əlavə edib.

Komitə sədri deyib ki, torpaqları 30 il erməni silahlı birləşmələri tərəfindən zəbt olunmuş, şəhər və kəndləri, dini, tarixi-mədəni abidələri məhv edilən, milyondan çox qaçqın-köçkünü uzun illər çətinliklər içərisində yaşayan, sülh çağırışları bəhrə verməkdə ərazilərini güc yolu - xalqının canı, qanı bahasına azad edən Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlik edilir, daxili işlərimizə müdaxiləyə cəhdlər göstərilir. Qərb və Avropa qələbələrimizi, müstəqil siyasətimizi qəbul etmək istəmir. Avropa Parlamentində qəbul olunmuş qətnamə siyasi zorakılığın, faşizmə xidmətin, təcavüzə dəstəyin, beynəlxalq hüquqa, demokratiyaya, insan haqlarına hörmətsizliyin, parlament, deputat dəyərlərinin ayaqlar altına atılmasının, satılmasının ifadəsidir. İşğaldan illərlə əziyyət çəkən insanların, viran edilən şəhər və kəndlərin taleyinə laqeyd qalan, qərbi azərbaycanlıların haqlı tələblərini, ərazilərimizin minalanmasını, itkin düşən 4 minə yaxın vətəndaşın həyatını, ermənilər tərəfindən törədilən soyqırımlarını heç zaman dilinə gətirməyən Avropa parlamentarilərinin Azərbaycan xalqının qatillərini, sülh və insanlıq əleyhinə cinayətlər törətmiş, xalqımızın qanını tökmüş, soydaşlarımızın başını kəsmiş, gözünü çıxarmış, insanları diri-diri yandırmış şəxsləri hərbi əsir kimi qələmə vermələri, onların azadlığa buraxılmalarını təkidlə tələb etmələri, bu cinayətkarların həbs edilməsini ölkəmizdə insan hüquqlarının və beynəlxalq hüququn pozulması kimi səsləndirmələri bəşəri dəyərlərdən uzaq olmaq, qatillə həmrəylikdir. Prezident İlham Əliyev öz fəaliyyəti dövründə həmişə bəşəri dəyərlərə sadiqliyini, əməkdaşlığa, sağlam qonşuluğa, sülhə, demokratiyaya hörmət və ehtiramını nümayiş etdirib, dünya ölkələri ilə əlaqələrin möhkəmləndirilməsinə, genişləndirilməsinə böyük önəm verib.

Kazanda XVI BRICS sammitində çıxışında da ölkəmizin rəhbəri bu sadiqliyi bir daha göstərdi və Azərbaycanın beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipinin fəal tərəfdarı olduğunu qeyd etdi. Qoşulmama Hərəkatına dörd ildə uğurlu rəhbərlik, Azərbaycanın Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzindən birinə çevrilməsi, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynaması, bir çox beynəlxalq əhəmiyyətli tədbirin ölkəmizdə keçirilməsi, bəzi dövlətlərə yardım əlinin uzadılması, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin ölkəmizin ərazisindən keçməsi bunun əyani göstəricisidir.

Deputat vurğulayıb ki, növbəti ayda dünyanın ən böyük beynəlxalq iqlim konfransının Azərbaycanda keçirilməsinə dair yekdil qərar dövlətimizin siyasətinə hörmətin və dəstəyin parlaq sübutudur: "Çox təəssüflər olsun ki, Azərbaycanı gözü götürməyən dairələr, xüsusən də avropalı parlamentarilər bəşəriyyət üçün önəmli olan COP29-u da siyasiləşdirərək Azərbaycana qarşı təsir vasitəsi kimi istifadə edir, bu mühüm tədbirin keçirilməsinə maneələr yaratmağa çalışırlar. Qərbin, Fransanın, Ermənistanın və erməni lobbisinin bilavasitə sifarişi ilə hazırlanmış və yalan məlumatlara, uydurmalara əsaslanan bu qətnamə çirkin məqsədlərin, məkrli planların bəhrəsi olmaqla, beynəlxalq normaların, bəşəri dəyərlərin və prinsiplərin, haqq-ədalət, insanlıq anlayışlarının, demokratik ənənələrin üzərindən xətt çəkərək, həqiqətləri inkar etməklə şəxsi mənafelərə, rüşvətə, dönüklüyə, saxtakarlığa hesablanıb və Avropa üçün yaxşı heç nə vəd etmir. Bu qətnamə Azərbaycan həqiqətlərinə, sürətli inkişafımıza, beynəlxalq aləmdə qazanılan uğurlarımıza, müstəqil siyasət kursumuza kölgə salmaq cəhdidir. Çünki Azərbaycanın müstəqil siyasət yürütməsini, böyük dövlətlərin diktəsinə əhəmiyyət vermədiyini, demokratiya, haqq-ədalət yolunu tutmasını və öz sözünü deməsini istəməyən ölkələr, dairələr, təşkilatlar var".

T.Rzayev bildirib ki, Avropa Parlamenti bu sırada birincilərdəndir və mənfur məqsədlərə xidmət etdiyini, Azərbaycana düşmən kəsildiyini qəbul etdiyi saxta qətnamələrlə nümayiş etdirir. Ancaq bu kimi hallar, saxta qətnamələr, qərarlar Azərbaycanı öz yolundan döndərə bilməz. Dövlətimizlə təzyiq və ultimatum dilində danışmaq olmaz, çünki Azərbaycan güclü, iradəli, uzaqgörən rəhbərə, qüdrətli orduya və sədaqətli xalqa malikdir. Bunu düşmənlərimiz, pula satılan siyasətçilər, haqq-ədalətə dönük çıxan dövlətlər bir daha anlamalı və ciddi düşünməlidirlər.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## *Vado ŞAKARİŞVİLİ:* "Seçkilərdə yalnız müxalifətə deyil, Gürcüstanda ikinci cəbhə açmaq istəyən düşmənlərə də qalib gəldik"

**"Parlament seçkilərində qalib gəlmək gürcü xalqının böyük əksəriyyətinin son iki ildə, yəni Rusiya-Ukrayna müharibəsi başlayandan bəri Gürcüstana qarşı olan böyük ədalətsizliyə tutarlı cavabı idi. Kənar qüvvələrin ölkənin daxili işlərinə qarışmasına, şantajına, hədə-qorxusuna, medialara, agent şəbəkələrinə yatırılan pullara və s. baxmayaraq gürcü xalqı öz layiqli mövqeyini göstərdi. Biz yalnız müxalifətə deyil, Gürcüstanda ikinci cəbhə açmaq istəyən düşmənlərə də qarşı gəldik".**



Bu sözləri AZƏRTAC-a müsahibəsində gürcü ekspert, "Vahid neytral Gürcüstan" ictimai hərəkatının nümayəndəsi Vado Şakarişvili söyləyib.

Onun sözlərinə görə, seçkilərdə Gürcüstanın ayrılmaz tərkib hissəsi olan, bu dövlətin möhkəmlənməsində, inkişafında böyük xidmətləri olan azərbaycanlılar da mühüm rol oynayıblar. "Seçkilərdə göstərdikləri qətiyyətə, Gürcüstan dövlətinin gələcəyinə, sülhə səs verən azərbaycanlılara təşəkkürümü bildirirəm. Azərbaycanlılar ölkədə yaşayan bəzi Gürcüstan vətəndaşlarından fərqli olaraq sülhün, sabitliyin tərəfdarlarıdırlar. Əsrlərdir qardaşlıq və dostluq əlaqələrini qoruyub saxlamağı bacaran Gürcüstanın və Azərbaycanın yalnız bir məqsədi var, o da regionda sülhün, stabilliyin bərqərar olmasıdır. İki ölkə böyük layihələr həyata keçirməklə Cənubi Qafqaz dünyada öz mühüm yerini qoruyub saxlayacaq", - deyə ekspert vurğulayıb.

O deyib ki, seçkilərdə məğlub olmuş müxalifətin artıq heç bir perspektivi yoxdur. Heç kim gürcü xalqının seçiminə qarışa bilməz. 1 milyon 120 min vətəndaş öz seçimini etdi və heç kimə onların seçiminə qarşı çıxmağa imkan vermədi.

Ekspertin sözlərinə görə, demokratiyanın əsas prinsiplərindən biri elə idarəetmənin və qərar qəbuletmənin əksəriyyətin qərarı ilə baş tutmasıdır.

"Avropada olan bir təcrübəni götürsək, görərik ki, 25-26 faizlə qalib gələn qüvvələr dövləti idarə edirlər. Gürcüstanda keçirilən bu seçkilər dinc, ədalətli, azad seçkilər idi və vətəndaşlar da öz azad seçimlərini etdilər.

Gürcüstan dövləti regionda və dünyada sülhün tərəfdarıdır. Ölkədə və regionda sülhün bərqərar olması, regionun çiçəklənməsi üçün Azərbaycanla və digər sülhsevər dövlətlərlə əməkdaşlıq edəcək. Bizi bu yoldan heç kim döndərə bilməyəcək", - deyə Şakarişvili vurğulayıb.

## *Gia ABAŞİDZE:* "Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığı bundan sonra daha da möhkəmlənəcək"

**"Oktyabrın 26-da Gürcüstanda şəffaf, azad və demokratik seçkilər keçirildi. Qərbin və müxalifətin təzyiqlərinə baxmayaraq, "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyası böyük üstünlüklə rəqiblərinə qalib gəldi. Biz sülhə, sabitliyə səs verən hər bir gürcü vətəndaşına dərin təşəkkürümüzü bildiririk. Xüsusilə də Gürcüstanda yaşayan azərbaycanlılara dərindən təşəkkür etmək lazımdır".**




Bu sözləri AZƏRTAC-a müsahibəsində gürcü politoloq Gia Abaşidze söyləyib.

O qeyd edib ki, azərbaycanlılar "Gürcü Arzusu"nu dəstəkləməklə regionun inkişafına töhfə verdilər. Çünki Gürcüstandakı sabitlik regionun sabitliyinə birbaşa töhfədir.

"Azərbaycan və Gürcüstan strateji tərəfdaşlardır. Bizim ortaq maraqlarımız və layihələrimiz var. Bu əməkdaşlıq isə bundan sonra daha sürətlə inkişaf edəcək", - deyə G.Abaşidze vurğulayıb.

O deyib ki, müxalifət aksiyalarla heç nəyə nail ola bilməyəcək. Dörd il bundan əvvəl də onlar seçkinin nəticələrini qəbul etmirdilər. Nəticələri boykot etməklə müsbət nəticə qazana bilmədilər və sonda sakitləşib parlamentdə oturdular. İndi də müxalifət ümumilikdə 37 faizə yaxın səs toplayıb. Onlar topladıqları səslə qane olmalı və sakit şəkildə parlamentdə öz yerlərini tutmalıdırlar.

Politoloq həmçinin qeyd edib: "Qərbə gəldikdə, ATƏT, AŞPA və digər təşkilatlar artıq seçkinin demokratik şəkildə keçdiyini qəbul edib, rəqabətli seçkilərin olduğunu bildirib. Bəli, xırda səhvlər olub, amma bu səhvlər dünyanın hər yerində, xüsusilə elə ABŞ və Fransada, bütövlükdə Avropada da var. Ona görə də AŞPA nümayəndəsi açıq şəkildə dedi ki, avrointeqrasiya məsələsini yeni seçilmiş gürcü hökuməti ilə ətraflı danışacaqlar".

Xaricdən maliyyələşən, müəyyən avroparlamentarilərin dəstəklədiyi yerli müxalifətin boykotunun heç bir nəticə verməyəcəyini vurğulayan G.Abaşidze deyib: "Çünki gürcü xalqı öz sözünü deyib. Gürcü xalqı sülhü, sabitliyi və inkişafı seçib. Belə olan halda nə Qərbin, nə də müxalifətin etirazları nəticə verəcək".

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



◆ Qarabağdan reportaj






# Zəfər yolu ilə Şuşaya doğru

**Şuşa kəlməsi əlli-altmış il əvvəl evimizdə ən çox təkrarlanan söz idi. Kiçik yaşlarımızdan bu şəhərin, bu məkanın adını böyüklərimizdən tez-tez eşidirdik. Şuşanın adı dilimizdən düşmürdü. Bu müqəddəs məkanın adını tez-tez eşitməyimizin səbəbi böyük qardaşlarımızın Şuşadakı internat məktəbində orta təhsil almaları ilə bağlı idi. Onlar hər dəfə Şuşaya gedəndə də, qayıdanda da bu şəhər barədə eşidirdik. Hər dəfə eşidəndə də Şuşanı nağıllar şəhəri kimi təsəvvür edirdik.**

İllər bir-bir ötüb arxada qaldıqca yaşımızın üstünə yaş gəlirdi. Yaşa dolduqca da Şuşanı daha çox tanıyır, daha çox sevirdik. Qarabağın tacı, Azərbaycanın musiqi beşiyi olan bu gözəl diyarı görmək arzusu ürəyimizi heç vaxt tərk etmirdi. Amma səksəninci illərin sonlarında ermənilər Qarabağda işğalçılıq planlarının fitilini alovlandırmağa başlayanda narahat hisslər keçirdik. Havadarlarına arxalanan ermənilər hər gün azərbaycanlılar yaşayan kəndlərə hücum edir, insanları öldürür, evləri yandırırdılar. Çox keçmədi ki, işğal təhlükəsi nağıllar şəhəri olan Şuşanın da başının üstünü aldı. Ermənilər qəsbkarlıq planlarını reallaşdırmaq üçün bütün çirkin vasitələrə əl atırdılar. Təəssüflər olsun ki, 8 may 1992-ci ildə əsrlərdən bəri Qafqazın konservatoriyası hesab olunan gözəl Şuşa şəhəri düşmən əlinə keçdi. Bu qədim diyarın işğalı Azərbaycan xalqının ürəyini yandırdı. Bu yanğı, bu od-alov ev-ev gəzdi, el-el dolaşdı, heç vaxt sönmədi. İşğal olunsa da, düşmən əlinə keçsə də, Şuşa yaddaşımızda elə nağıllar şəhəri kimi qaldı.

## Şuşa yolu açıldı

Qarabağın tacı olan Şuşanın işğalı 28 ildən çox çəkdi. 28 ildən çox Azərbaycan xalqı bu gözəl diyarın həsrətini çəkə-çəkə qaldı. Bu həsrətin odu ürəkləri yandırdı, qəlbləri dağladı. İşğal illərində nağıllar şəhəri düşmən tapdağı altında sıxılıb əzildi, ağrılardan sızım-sızım sızıldadı, göyüm-göyüm göynədi. İllərdən bəri qəlbləri göynədən, ürəkləri dağlayan bu iniltiyə, bu sızıltıya, bu yanğıya qüdrətli Azərbaycan Ordusu ürəklərə sevinc ələyən zəfəri ilə məlhəm qoydu. 8 noyabr 2020-ci ildə Şuşa erməni işğalından azad olundu. Bu şad xəbərdən Şuşanın torpağının da, suyunun da, başı həmişə dumanlı olan dağlarının da, xarıbülbülün də, başqa güllərin, çiçəklərin də üzü güldü. Azərbaycan xalqının çöhrəsindən 28 illik kədər, həsrət, nisgil yavaş-yavaş silindi. İşğaldan sonra Şuşaya gedən yollar açıldı. Hələ yeniləri də çəkildi.

Həm işğaldan əvvəl, həm də torpaqlarımız azad olunandan sonrakı zamanlarda heç vaxt ürəyimizi tərk etməyən nağıllar şəhərini görmək arzumuz yenidən baş qaldırdı. Azad olunandan sonra uşaqlıq illərindən bəri qəlbimizdə qurduğumuz xəyalları reallaşdırmaq üçün əlverişli imkan yarandı. Artıq Şuşaya getmək elə də çətin deyildi. Çünki indi bu şəhərdə silahlar şaqqıldamırdı, toplar gurlamırdı, qan tökülmürdü. İşğaldan azad olunmuş bu şəhərdə yalnız quruculuq işləri aparılırdı.

Gözəl yay günlərinin birində nağıllar şəhərinə getmək xəbəri qapımızı döydü. Lap ertədən, səhər gözlərini əməlli-başlı açmamış yola çıxdıq. Yola ona görə tez çıxdıq ki, həm Şuşaya tez çataq, həm də günümüzün çoxunu bu gözəl məkanın qoynunda keçirək. Həmin gün ovqatımız kimi, hava da yaxşı idi. Dünənkinə baxanda bu gün göyün üzü tərtəmiz idi. Səmada əl boyda da olsa, bulud gözə dəymirdi. Sonsuz asimanın dərinliyinə insanın gözlərinə, ruhuna rahatlıq ələyən gömgöy aydınlıq çökmüşdü.

İşğaldan azad olunmuş ərazilərə keçmək üçün Füzuli rayonunda yaradılmış məntəqəyə çatanda gün üfüqdən xeyli yuxarı qalxmışdı. Məntəqənin qarşısındakı uzun növbəni görəndə ovqatımız bir az korlandı. Anladıq ki, növbədə xeyli ləngiyib vaxt itirəcəyik. İstirahət günü olduğundan hamı Şuşaya gedir, bu gözəl diyarı görməyə tələsirdi. Bir saata yaxın gözlədikdən sonra keçid məntəqəsinin girişinə çatdıq. Yoxlama, dəqiqləşdirmə işləri elə də uzun çəkmədi. İşini bacarıqla yerinə yetirən gənc polislər tez bir zamanda yoxlama prosesini başa çatdırdılar.

Tələsdiyimizdən məntəqədən, necə deyərlər, ildırım sürəti ilə çıxdıq. Çünki Şuşaya çatmaq üçün bizi qarşıda xeyli yol gözləyirdi. Yetmiş kilometrlik məsafəni qət edəndən sonra ayağımız uşaqlığımızın nağıllar şəhərinin torpağına dəyəcəkdi. Bir az irəli gedəndən sonra yolun sol tərəfində işğaldan sonra qısa müddət ərzində inşa edilmiş Füzuli Beynəlxalq Hava Limanı möhtəşəm bir abidə kimi gözlərimiz önündə ucaldı. Bir anlıq maşını saxlayıb onun gözəlliyinə tamaşa etdik. İşğaldan azad edilmiş ərazidə salınmış beynəlxalq aeroport geniş çölün düzündə ətrafa işıq saçan böyük mirvariyə bənzəyirdi. Səmadan Yer üzünə gülümsəyən günəşin isti şəfəqləri onun üstünə ələnərək parıltısını daha da artırır, gözün doymaq istəmədiyi gözəl bir mənzərə yaradırdı.



## Hərbçilərimiz canlarından keçmişdilər, amma bir qarış torpaqdan yox...

Bir az da irəlilədikdən sonra diqqətimizi böyük bir məlumat lövhəsi cəlb etdi. Lövhədə yazılanlar bu yerlərə ilk dəfə ayaq qoyanlara işğaldan azad edilmiş ərazilərin başlandığı xətti bildirirdi. Bir az qabaqda, yolun sağ tərəfində əzəmətlə dalğalanan üçrəngli bayrağımıza qürur və iftixarla baxdıq. Bayraq böyük bir daş abidənin üstündə dalğalanırdı. Asta, kövrək addımlarla abidəyə, dalğalanan üçrəngli bayrağımıza yaxınlaşdıq. Daş abidənin üstünə bu sözlər yazılmışdı: "Vətən uğrunda canından keçən qəhrəmanların şəhid olduğu ilk yerlərdən biri".






Dayandığımız bu ərazi bir vaxtlar erməni işğalçılarının ön xətti olmuşdu. Düşmən 28 ildən çox Azərbaycan əsgərinin gülləsindən qorunmaq üçün tülkü kimi bu mövqedə gizlənmişdi. 28 ildən sonra yağı hücumunun, işğalçı təxribatının qarşısını almaq, qəsbə son qoymaq üçün ordumuzun hissələri əks-hücuma keçmişdi. 27 sentyabr 2020-ci ildə indi sakitlik hökm sürən bu yerlərdə qanlı döyüşlər getmişdi. Azərbaycan Ordusunun zabit və əsgərləri torpaqlarımızı işğaldan azad etmək üçün cəsarətlə vuruşaraq düşməni bu yerlərdən qovmuşdular. Uzun illərdən bəri ön mövqeyində möhkəmlənən işğalçılar ilk dəqiqələrdə geri çəkilmək istəməmişdilər. Ciddi müqavimət göstərərək mövqelərini əllərində saxlamağa çalışmışdılar. Amma məqsədlərinə çata bilməmişdilər. Azərbaycan əsgəri cəsarəti, hünəri ilə yağıların arzusunu gözündə qoymuşdu. Bu gərgin döyüşlərdə hərbçilərimiz canlarından keçmişdilər, amma bir qarış torpaqdan yox. Nə qədər təhlükəli olsa da, bir addım da olsun geri çəkilməmişdilər. Belə böyük hünərin, yenilməz cəsarət və rəşadətin qarşısında dayana bilməyən işğalçılar ağır itki verib, meyitlərini də, silah-sursatlarını da atıb qaçmışdılar. Düşmənin ön mövqelərinin yarılması ilə də böyük zəfərin ilk kərpicləri qoyulmuşdu. Bundan sonra döyüşçülərimizi Qarabağa, qələbələrə aparan yollar geniş açılmışdı. Bir vaxtlar düşmənin ön mövqeyi olmuş səngərləri nəzərdən keçiririk. Hələ də ermənilərin atdığı patronların, mərmilərin gilizləri ətrafa səpələnmiş vəziyyətdə qalıbdır. Hələ də bu yerlərdən müharibə, qan-qada qoxusu çəkilməyib.

Yurdumuzun azadlığı uğrunda canlarından keçmiş şəhidlərin ruhuna dualar oxuyandan sonra ətrafı seyr edə-edə Şuşaya doğru gedirik. Bu yerlərdə ürəkaçan heç nə gözə dəymir. Ermənilər işğal dövründə bütün kənd və qəsəbələri darmadağın ediblər. Yanından ötüb keçdiyimiz kəndlərdə evlərin yarıya qədər uçurulmuş divarlarından başqa heç nə qalmayıb.

## Sevinc dolu uğur yolu

Şuşaya getmək üçün qarşıdakı dairəvi yoldan sağ tərəfə dönürük. Düz gedən yol yolçuları Xocavənd rayonuna aparır. Bir az qabağa gedəndən sonra Füzuli rayonunun sakinləri üçün inşa edilmiş yeni evləri görürük. Gördüklərimizdən ürəyimiz dağa dönür. Doğma ocaqlarına qayıtmış rayon sakinləri dövlətin onlar üçün tikdiyi hərtərəfli şəraiti olan evlərdə yaşayırlar. Artıq demək olar ki, Füzuliyə həyat qayıdıb. Uzun illər işğalda qalmış ərazilərdə insan nəfəsi duyulur, insan səsi eşidilir. Evlərin həyətlərində adamlar gözə dəyir, uşaqlar əl-ələ tutub geniş meydançada oynayırlar. Onların şən səsindən sanki torpağın da, daşın da üzü gülür.




Yolun kənarındakı lövhə Şuşaya əlli kilometr məsafə qaldığını göstərir. Zəfər yolu sanki bizi qollarının üstünə alıb nağıllar şəhərinə aparır. Qısa müddət ərzində çəkilən yol çox rahatdır. Bu rahatçılıq içində Zəfər yolunun yaranması haqqında istehkamçılardan eşitdiklərimizi xatırlayırıq. Biz hərbi hissədə olanda onlar danışmışdılar ki, erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda istehkamçılar canlı qüvvələrimizin və texnikalarımızın düşmən üzərinə getməsi üçün həyatlarını riskə qoyaraq "dəhliz" açıblar. Özü də təhlükəsizliyi nəzərə alaraq bu "dəhliz"i qəsbkarların gözləmədikləri, çətin keçilən ərazilərdən açmağa qərar vermişdilər. Ordu hissələri də istehkamçıların böyük çətinliklə açdıqları bu yerlərdən düşmən üzərinə əks-hücuma keçiblər. Çətin peşə sahibləri açdıqları təhlükəsizlik "dəhliz"ləri ilə yurdumuzun azadlığı uğrunda döyüşən qüvvələri Şuşaya aparıb çıxarmışdılar.

## "Oğullar verdi ki, can..."

Döyüşlər dayanan kimi Prezident İlham Əliyevin rəhbərliyi altında işğaldan azad edilmiş ərazilərdə geniş və sürətli quruculuq işlərinə başlanıldı. Təbiidir ki, yollar çəkilmədən bu işləri aparmaq mümkün deyildi. İşğal dövründə ermənilər bütün yolları dağıdıb yararsız hala salmışdılar. Şuşaya yeni yol dövlət başçısının göstərişinə uyğun olaraq müharibə gedən günlərdə ordu hissələrinin irəliləməsi üçün istehkamçıların açdıqları təhlükəsizlik "dəhliz"inin yerindən çəkildi. Adı da Zəfər yolu oldu. Çünki müharibənin davam etdiyi günlərdə zabit və əsgərlərimiz bu yerlərdən keçərək düşmən üzərinə getmiş və Zəfər qazanmışdılar.

Füzuli rayonunun mərkəzində tikilmiş yeni binaların yanından keçəndən sonra bənzərsiz dağları, dərələri gördük. Bir-birinə söykənərək başı buludlara uzanan dağlar ətrafa əsrarəngiz yaraşıq verirdi. Göz işlədikcə uzanıb gedən bir-birindən gözəl ərazilərə baxdıqca fikirləşirdik ki, zabit və əsgərlərimiz bu uca dağları, yastı dərələri, geniş çölləri erməni işğalçılarından azad edəndə necə böyük cəsarət və hünər göstəriblər. Bu yerlərin hər addımı uğrunda qan töküblər, sərrast atəşlə yağıları məhv ediblər. Bunları fikirləşdikcə Birinci Qarabağ müharibəsinin iştirakçısı olmuş şair Elxan Xəzərin bu misraları yada düşür: "Oğullar verdi ki, can, yaşasın Azərbaycan!"

Uca dağın ətəyində yerləşən Böyük Tağlar kəndindən keçirik. Ətraf qalın meşəlik və geniş çöllükdür. Bənzərsizliyi ilə bizi sehirləyən bu gözəlliyə tamaşa etmək üçün ayaq saxlamalı oluruq. Bir anlıq sinəmizdə Qarabağın təmiz havasını hiss edirik. Dağın ətəyində sıra ilə tikilmiş evlər kiçik qalaları xatırladır. Kəndin içi, ətrafı tamam yaşıllığa bürünüb. Bəzi evlərin həyətindən çıxış birbaş meşəyədi.

İrəli getdikcə Zəfər yolu yavaş-yavaş üzüyuxarı qalxır. Ətrafdakı gözəlliyi seyr etməkdən doymuruq. Ermənilər illər uzunu belə gözəl yerlərimizi, bənzərsiz məkanlarımızı əllərində saxlamışdılar. Avtomobillər Şuşaya gedən zirvələrin arasından keçən yollarla üzüyuxarı güclə dırmaşır. Bu anlarda düşünürük ki, qəhrəman zabit və əsgərlərimiz müasir texnikaların asfalt yolla çətinliklə qalxdığı bu yerləri vuruşa-vuruşa, ölümün gözünün içinə dik baxa-baxa, zəfər qazana-qazana addım-addım irəli gediblər. Bax, budur əsl qəhrəmanlıq, əsl igidlik, əsl Vətən sevgisi!

Yolun kənarına vurulmuş lövhə Şuşaya on kilometr məsafə qaldığını göstərir. Deməli, nağıllar şəhərini görəcəyimizə az qalıb. Bu məsafəni də qət edəndən sonra illərin həsrətinə son qoyulacaq. Qardaşlarımın bir vaxtlar orta təhsil aldığı Şuşanı görəcəyik, ayağımız bu yerlərin torpağına, daşına dəyəcək. Bu gözəl məkanın təmiz havasını udacaq, torpağına sığal-tumar çəkəcək, ətrafa gözəllik verən güllərinin xoş ətrini qoxulayacağıq.

## Şuşanın dağları dumanlı da gözəldir, dumansız da

Hündür bir dağın zirvəsində dayanırıq. Artıq illərdən bəri həsrətini çəkdiyimiz Qarabağ torpağının içərilərinə doğru xeyli yol gəlmişik. Göz işlədikcə uzanıb gedən gözəl mənzərə bizi sehrinə salır. Dağın zirvəsindən üzüaşağı möhtəşəmliyə tamaşa edirik. Yaşıllığa bürünmüş dağlar bir-birinin kürəyinə söykənərək göz işlədikcə sıralanıb gedir. Meşələr sanki dağların əyninə yaşıl don geydirib. Bu yaşıllıq da elə bil yerlə bərabər, göyün də rəngini dəyişib. Lap uzaqlardan Şuşanın dağları görünür. Onların başı seyrək dumanlıdır. Deməli, gözəlliyi vəsf olunan məşhur mahnıdakı "Şuşanın dağları başı dumanlı" sözlərini təsadüfi yazmayıblar. Dillərə düşən bu sözlərlə təbiətin gözəlliyini vəsf ediblər. Şuşanın dağları dumanlı da gözəldir, dumansız da.

Bir anda səmada dayanmış buludlar yerindən tərpənib sıxlaşır. Bu isə nəriltiyə, gurultuya çevrilir. Tezdən biz yola çıxanda göyün üzü tərtəmiz idi. Bəs bu buludlar birdən-birə haradan gəlib çıxdı? Göy üzünə çıxan kimi də Günəşin üzünü tutur. Az keçmiş yağış yağır, Qarabağ torpağına göydən nur ələnir. Deyəsən, yağış sakit yağmaq istəmir. Amma qəfil başlayan yağış elə qəfil də dayanır. Sıxlaşan buludlar tez bir zamanda bir-birilərindən uzaqlaşırlar. Yağış kəsən kimi Günəş yenə də parlaq şəfəqlərini Yer üzünə sərir.

Gözümüzü buludlardan bir anlıq çəkib ayağımızın altına baxanda yaşıllıqda bir-birinə bənzəməyən güllərin, çiçəklərin bitdiyini görürük. Sanki təbiət çiçəklərdən torpağa xalı sərib. Əyilib güllərin xoş ətrini qoxuyuruq. Güllərin özləri kimi, qoxusu da gözəldir. Bir-birinə bənzəməyən mənzərələri seyr etməkdən gözümüz yorulmur. Elə saatlarla burada dayanıb Qarabağın gözəlliyinə tamaşa etmək istəyirik. Amma yox, yolda çox ləngiməməliyik, nağıllar şəhərinə tez çatmalıyıq.

Yenə də Zəfər yolu bizi qoynuna alır. İkinci Qarabağ müharibəsindən sonra Qarabağa ilk və qısa müddət ərzində çəkilən Zəfər yolu insanların yaddaşında tarixi bir yol kimi qalacaq. İndi həmin yolla ətrafımızdakı gözoxşayan gözəllikləri seyr edə-edə Şuşaya doğru gedirik. Bütün bunları illər əvvəl yalnız xəyal edərdik. Amma artıq xəyallar reallığa çevrilib.

Bayaq çətinliklə qalxdığımız uca dağlardan asta-asta üzüaşağı düşürük. Yavaş-yavaş Şuşaya yaxınlaşırıq. Ətrafından keçdiyimiz kəndlərin yolun qırağındakı lövhəyə yazılmış adlarını oxuyuruq. Baharlı, Dəmirçi, Sığnaq... Kəndlərin adlarını oxuduqca fikirləşirik ki, Baharlı kəndi sanki Şuşaya yazı, baharı gətirir. Dəmirçi kəndi dəbilqə kimi onu qəfil olacaq təhlükələrdən qoruyur. Hava soyuq olanda isə sanki musiqi beşiyimiz Şuşa Sığnaq kəndinə sığınıb isinir.

## Meşələrin ətəyinə çiçəklər səpələnib

Şuşa torpağında həyatımızda ilk dəfə gördüyümüz gözəl bir mənzərəni daha da yaxından seyr etmək üçün ayaq saxlamalı oluruq. Yolun kənarından dağın ortasına qədər çəmənlikdir. Çəmənlik qurtarandan sonra isə sıx meşəlik başlayır. Yolun qırağından meşəliyə qədər uzanan çəmənlik ağappaqdır. Sanki yayın bu isti günlərində dağların ətəklərinə qar yağıb. Amma yox, bu ağappaq görsənən əraziyə qar yağmayıb, bunlar bir-birinə sıxlaşıb günəşə boylanan ağappaq çiçəklərdir. Diqqətlə fikir verəndə görürük ki, güllər hamısı eyni biçimdə, eyni boyda və eyni rəngdədi. Bu da təbiətin bənzərsiz bir möcüzəsidir, insanlara əvəzsiz gözəllik bəxşişidir. Bizi heyran edən bu gözəllikdən zövq alan quşlar da sinəsində güllərə yer vermiş çəmənliyin üstündən o tərəf - bu tərəfə uçuşa-uçuşa cəh-cəh vurub nəğmə oxuyurlar.



Bizdən başqa da bu gözəlliyə heyran olan insanlar maşınlarını bir neçə dəqiqəlik yolun kənarına çəkməli olurlar. Sanki möhtəşəm təbiət ahənrüba kimi yoldan keçən insanları özünə çəkir. Belə gözəlliyi yaxından seyr etmədən zövq almaq mümkün deyil. Avtomobillərdən düşən bir neçə qadın çəmənlikdən çiçək yığır. Qarabağın gözəllikləri görənləri elə ilk dəqiqədən heyran edir. Belə bənzərsiz mənzərəyə baxdıqca zövq alırıq, ürəyimiz açılır.

Bu anlarda təəssüf hissləri keçiririk ki, gözəlliyi ilə dünyaya meydan oxuyan Qarabağımız, Şuşamız uzun illər düşmən işğalında qaldı. Həmin müddət ərzində erməni vandalları bu yerlərin yerüstü və yeraltı sərvətlərini talayıb Ermənistana daşıdılar. Oradan da dünyanın ermənilər yaşayan başqa-başqa şəhərlərinə yola saldılar. Bu sərvətlərin hesabına varlandılar, pullandılar, sonra da harınlayıb cızıqlarından çıxdılar, əndazəni aşdılar. Şükürlər olsun ki, İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında doğma Qarabağımızı əsl sahiblərinə qaytardı. Dünya Qarabağın əbədi-əzəli sakinlərinin kim olduğunu gördü və yaxından tanıdı.

*(ardı var)*

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

*Bakı-Şuşa-Bakı*








# AZERBAIJAN COP29
## Yaşıl dünya naminə həmrəylik ili 2024



# "Yaşıl enerji": bir ildə iki dəfə artım

**Azərbaycanda bərpaolunan enerjinin istehsalı getdikcə artır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu növ enerji mənbələrindən su da daxil olmaqla istehsal iki dəfədən çox təşkil edib.**

Keçən il yanvar-dekabr aylarında istilik-elektrik stansiyaları (İES) üzrə 27 milyard 160,4 milyon kilovat-saat, su da daxil olmaqla bərpaolunan enerji mənbələrindən 2 milyard 116,2 milyon kilovat-saat elektrik enerjisi istehsal edilmişdi. Bu ilin 8 ayında isə ötən ilin müvafiq dövrü ilə müqayisədə su da daxil olmaqla iki dəfədən çox, yəni 2 milyard 771,8 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub. Beləliklə, həmin vaxt ərzində elektrik enerjisi istehsalında "yaşıl enerji"nin payı 14 faiz təşkil edib.

Energetika Nazirliyinin məlumatına görə, ötən il ölkəmizin bərpaolunan elektrik enerjisi gücü 373,6 meqavat artıb ki, burada da "Qaradağ" Günəş-Elektrik Stansiyasının (GES) xüsusi payı var. Bir il əvvəl istifadəyə verilən "Qaradağ" GES-in istismara daxil olduğu vaxtdan istehsal etdiyi elektrik enerjisinin həcmi də açıqlanıb. Stansiyada bu dövrdə 458,8 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib.

Bir yaşlı bu stansiya ekoloji cəhətdən təmiz elektrik enerjisi istehsal etdiyi üçün "yaşıl enerji" mənbəyi hesab olunur. Stansiyada "yaşıl enerji" istehsal edilməklə atmosferə istixana effekti yaradan qazların atılmasının qarşısı alınır. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa edilən stansiyanın ümumi gücü 230 meqavatdır.

"Masdar" və digər xarici şirkətlərin ölkəmizdə inşa etdiyi növbəti "yaşıl enerji" stansiyaları tikintinin müxtəlif mərhələlərindədir. Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti tərəfindən inşa edilən "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının gələn il istismara verilməsi gözlənilir. Stansiyanın pərləri artıq Bakıya gətirilib. Beləliklə, hər birinin gücü 6,5 meqavat olan 4 turbinə aid 12 pər qanadı hazırda Bakıdadır. Digər turbinlərin komponentləri qrafikə uyğun olaraq gətirilir. Quraşdırma Abşeron ərazisində başlayacaq. İlk 8 turbin bu sahədə quraşdırılacaq. Bu isə o deməkdir ki, ümumi gücü 240 meqavat olan "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının tikintisi uğurla davam etdirilir.

"Xızı-Abşeron"un ildə 1 milyard kilovat-saata yaxın elektrik enerjisi istehsal edəcəyi nəzərdə tutulub. Bu da 220 milyon kubmetr təbii qaza qənaət etməyə, 400 min tondan artıq karbon emissiyasının atmosferə atılmasının qarşısını almağa və 300 min evi elektrik enerjisi ilə təmin etməyə imkan verəcək. Layihənin ümumi dəyəri təqribən 300 milyon dollardan çoxdur və tam olaraq xarici investisiya hesabına həyata keçirilir.

Stansiya iki məkanda inşa ediləcək. Abşeron və Xızı rayonlarının ərazilərində 37 külək turbini optimal külək yığımını nəzərə alaraq yerləşdiriləcək. Abşeronda 12 külək turbinindən ibarət olan hissə 78 meqavat gücündədir. Xızıdakı 25 külək turbinindən ibarət olan hissənin ümumi gücü isə 162 meqavatdır. Stansiyanın təqribi illik enerji istehsalının Abşeronda 300 milyon kilovat-saatdan, Xızıda isə 600 milyon kilovat-saatdan çox olacağı gözlənilir.

Ölkəmizin enerji keçidinə sanballı töhfə olacaq bu stansiya "ACWA Power" şirkətinin Azərbaycanda ilk layihəsidir. Layihə Azərbaycanın iqtisadiyyatın diversifikasiyası və enerji sisteminin modernləşdirilməsi məqsədlərinə xidmət edir və qeyri-neft sektoruna xarici sərmayələrin artırılmasına dəstək verir.

Qeyd edək ki, mütəxəssislər küləyin sürətinin saniyədə 3-4 metr olduğu halda elektrik enerjisinin əldə edilməsini mümkün sayırlar. Bakıda küləyin orta sürəti saniyədə 11 metrdir. Eyni zamanda işğaldan azad olunmuş Laçın və Kəlbəcər rayonlarında da küləkdən elektrik enerjisi alınması potensialı böyükdür. Kəlbəcər rayonunun dağlıq ərazilərində küləyin orta illik sürəti saniyədə 7-8 metr təşkil edir.

Bütün bunlar respublikamızda külək enerjisindən istifadə imkanlarının geniş olduğunu göstərir. Günəşimiz də boldur. Abşeronda da, digər bölgələrimizdə də. Odur ki, xarici investorlar, o cümlədən "Masdar", "ACWA Power", BP və digər şirkətlər ölkəmizdə növbəti layihələri gerçəkləşdirmək marağındadırlar. Təqdirəlayiq haldır ki, "yaşıl enerji" layihələri paytaxtdan inamla regionlara da "addımlayır". Yaxın gələcəkdə Naxçıvan MR-də, işğaldan azad olunmuş Cəbrayıl rayonunda, Biləsuvarda, Neftçalada və digər bölgələrdə də "yaşıl enerji" stansiyaları tikiləcək. Bu da bir daha inam yaradır ki, Azərbaycanın ümumi elektrik enerjisi istehsalında "yaşıl enerji"nin payı ildən-ilə artacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# COP29-la bağlı tədbir məkanında nəqliyyat monitorinqləri aparılıb

**COP29 konfransına hazırlıq prosesi çərçivəsində nəqliyyatın idarə edilməsi üzrə monitorinqlərin davamı olaraq oktyabrın 27-də COP29-un konfrans məkanı olan Bakı Olimpiya Stadionunda nəqliyyatın hərəkəti üzrə növbəti sınaqlar keçirilib.**




COP29 Azərbaycan Əməliyyat Şirkətinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, proses çərçivəsində konfransın planı və marşrutuna uyğun stadionun müvafiq zonalarında COP29-a məxsus avtobusların hərəkəti, təhlükəsizlik və akkreditasiya yoxlamaları prosedurları test edilib. Budəfəki monitorinqin təşkilinə 600-dan çox COP29 könüllüsü cəlb olunub.

Qeyd edək ki, həmçinin ötən sutka ərzində COP29 Azərbaycan Əməliyyat Şirkəti, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, TƏBİB-in tabeliyində Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzi ilə birgə şəhərin mərkəzi küçə və prospektlərində genişmiqyaslı gündüz və gecə nəqliyyat proseslərinin monitorinqi uğurla tamamlanıb. Monitorinqlər çərçivəsində COP29-a məxsus avtobus və digər nəqliyyat vasitələri, təcili tibbi yardım və yanğınsöndürmə maşınları cəlb edilib.

Ümumilikdə nəqliyyat monitorinqlərinin məqsədi konfrans zamanı tətbiq ediləcək nəqliyyat sxeminin hərtərəfli sınaqdan keçirilməsi və nəqliyyat sahəsində planlaşdırılan tədbirlər üzrə tam hazırlığın təmin olunmasıdır.

# Noyabrda Bakıya gələcək qonaqlar üçün 25 tur proqramı hazırlanaraq aidiyyəti üzrə təqdim olunub

**COP29 kimi mühüm tədbirin ölkəmizdə yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədilə turizm sənayesinin texniki və təşkilati baxımdan tam hazır vəziyyətə gətirilməsi istiqamətində fəaliyyətlər davam edir.**

Azərbaycana bu tədbirlə əlaqədar səfər edəcək qonaqların rahat formada yerləşdirilməsi üçün mayın 23-dən etibarən vahid onlayn rezervasiya platforması istifadəyə verilib. Qeyd edək ki, həmin platforma üzrə rezervasiyaların qəbulu davam etməkdədir. **"COP29-accommodation.bnetwork.com"** ünvanında yerləşən platformada hər bir ulduz dərəcəsinə uyğun hotellər və yaşayış kompleksləri barədə məlumatlar təqdim olunur. Bu barədə AZƏRTAC-ın sorğusuna Dövlət Turizm Agentliyindən məlumat verilib.

Bildirilib ki, yerləşdirmə məkanlarının ümumi həcmi və növləri, təhlükəsizlik, logistika baxımından əlçatanlığı və qonaqlara xidmətlə bağlı digər sahələr beynəlxalq təcrübəyə və meyarlara əsasən götürülür.

Həmçinin Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu ərazisində fəaliyyət göstərən 300-dən çox yerləşmə məkanında audit həyata keçirilib və onlardan 220-yə yaxını ulduz dərəcəsi əldə edib. Bunlardan 10 hotel 5 ulduza, 20 hotel 4 ulduza, qalanları isə müvafiq olaraq digər ulduz dərəcələrinə sahib hotellərdir.

Hotellərə əlavə olaraq ehtiyac yarandığı təqdirdə yaşayış kompleksləri, villa kompleksləri, istirahət mərkəzləri və digər yaşayış yerlərinin istifadəsi nəzərdə tutulur. COP29-da iştirak etmək istəyənlər üçün şəhərin istənilən ərazisində evlərin kirayəsi prosesi digər platformalar (airbnb, booking və s.) vasitəsilə mümkündür.

Xidmət keyfiyyətinin artırılması məqsədilə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda fəaliyyət göstərən 300-ə yaxın yerləşmə obyektinin 2000-ə yaxın personalına 12 modul üzrə ixtisaslaşmış praktiki peşə təlimləri, eləcə də dayanıqlılıq üzrə təlim, yerləşmə məkanlarında mətbəx idarəedilməsi və qastronomiya ilə bağlı (veqan və vegetarian menyuların hazırlanması daxil olmaqla) təlimlər keçirilməkdədir.

Bundan əlavə, 200 turizm bələdçisi sertifikatla təmin edilib və tədbir müddətində hotellərə dəstək olmaq üçün turizm könüllülərinə təlimlər keçirilib.

COP29 tədbiri ilə bağlı ölkəmizə gələcək qonaqlar üçün yarımgünlük, tamgünlük və gecələmə ilə 25 tur proqramı hazırlanaraq aidiyyəti üzrə təqdim olunub. Bakı ərazisində İçərişəhər, Yanardağ, Atəşgah, Qobustan kimi qoruqlar, milli parklar və digər turistik əhəmiyyətli yerlərlə yanaşı, Bakı-Şimal, Bakı-Şimal-Qərb və Bakı-Cənub istiqamətində olan turizm marşrutları üzrə də əsas destinasiyalar əhatə olunub.

# *Saymon STİL:* "Milli iqlim planları qlobal istiləşmənin verdiyi zərərin qarşısını almaqda son dərəcədə yetərsizdir"

**"Oktyabrın 28-də dərc edilən Milli Müəyyənləşdirilmiş Töhfələrin (NDCs) yekun hesabatı uğursuzluq dövrünü başa vuran və yeni sürətlənmə mərhələsini açan dönüş nöqtəsini qeyd etməlidir. Bu, bütün ölkələrin gələn il daha iddialı milli iqlim planları təqdim etmələri ilə əlaqədardır".**



AZƏRTAC xəbər verir ki, bu barədə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibi Saymon Stilin 2024-cü il üçün NDCs yekun hesabatı ilə bağlı bəyanatında deyilir.

Hesabatın nəticələrinin məyusedici olduğunu, lakin təəccüblü olmadığını vurğulayan icraçı katib əlavə edib ki, hazırkı milli iqlim planları "qlobal iqtisadiyyatları və bütün ölkələrdə milyardlarla insanın həyatı və dolanışıq vasitələrini iflic edən" qlobal istiləşmənin vurduğu zərərin qarşısını almaqdan xeyli geri qalır. O qeyd edib ki, daha iddialı yeni milli iqlim planları nəinki iqlim xaosunun qarşısını ala bilər, həm də prosesin düzgün aparılacağı təqdirdə insanlara yeni səviyyələrə çatmağa və hər bir ölkədə firavanlığa səbəb olacaqdır.

Saymon Stil vurğulayıb: "Yeni iddialı iqlim planları investisiya cəlb etmək, iqtisadi artımı stimullaşdırmaq, imkanları artırmaq, iş yerləri açmaq, çirklənmənin səviyyəsini azaltmaq, sağlamlığı yaxşılaşdırmaq və xərcləri minimuma endirmək, təhlükəsizliyi təmin etmək və təmiz enerjiyə çıxışı asanlaşdırmaq üçün çox vacibdir və bir çox digər müsbət dəyişikliyə töhfə verə bilər".

Onun sözlərinə görə, gözlənildiyi kimi, hazırda gələn il yeni NDCs-lərin hazırlanması üzərində çalışan ölkələrə münasibətdə builki hesabat 2025-ci ildə gözlənilən və tələb olunanlarla müqayisədə az irəliləyiş olacağını göstərir: Stil əlavə edib: "Mövcud planlar birlikdə tam həyata keçirilsə, 51,5 giqaton emissiya ilə nəticələnəcək. 2030-cu ildə CO2 ekvivalenti 2019-cu ildə olduğundan cəmi 2,6 faiz azdır. Belə böyük həcmdə istixana qazlarının meydana gətirdiyi çirklənmə istisnasız olaraq bütün ölkələr üçün humanitar və iqtisadi fəlakətə zəmanət verir. İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panel (IPCC) qeyd edir ki, 2019-cu il səviyyələri ilə müqayisədə 2030-cu ilə qədər istixana qazları emissiyalarının 43 faiz azaldılması lazımdır. 2035-ci ilə qədər ümumi qlobal istixana qazı emissiyaları 2019-cu il səviyyəsi ilə müqayisədə 60 faiz azaldılmalıdır. Bu, ən pis iqlim təsirlərindən qorunmaq üçün XXI əsrdə qlobal orta temperatur artımını 1,5 dərəcə Selsi ilə məhdudlaşdırmaq baxımından çox vacibdir. İqlim fəlakətləri sürətlə artmaqdadır və bu kontekstdə temperatur dərəcəsinin hər bir detalı vacibdir".

Qeyd edək ki, yekun hesabatında ölkələrin NDCs töhfələrinin 2030-cu ildə gözlənilən qlobal emissiyalara birgə təsiri, eləcə də digər göstəricilər haqqında proqnozları yer alır.

*IRENA-nın baş direktoru:*
# "COP29 iqlim dəyişikliyi ilə mübarizə üçün həlledici mərhələdir"

**Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) iqlim dəyişikliyi ilə mübarizə üzrə beynəlxalq öhdəliklərin gücləndirilməsi üçün həlledici mərhələdir.**




AZƏRTAC "SolarQuarter"ə istinadla xəbər verir ki, bu sözləri Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) baş direktoru Françesko La Kamera BƏƏ-nin Əbu-Dabi şəhərində keçirilən IRENA Şurasının 28-ci Toplantısında bildirib.

Onun sözlərinə görə, COP29 əməkdaşlıq və əhəmiyyətli nəticələr əldə etmək üçün dövlətlərin son şansıdır.

"2030-cu ilə qədər bərpaolunan enerjiyə 31,5 trilyon dollar həcmində investisiya qoyulmasına, şəbəkənin təkmilləşdirilməsinə, dayanıqlılıq tədbirlərinə və enerji səmərəliliyinə təcili ehtiyac var. Bərpaolunan enerji investisiyaları isə 2023-cü illə müqayisədə üç dəfə artırılmalıdır", - deyə o bildirib.

Françesko La Kamera ölkələri COP29-dan iqlim maliyyələşməsinin artırılması və qlobal enerji keçidinin irəliləyişində səyləri birləşdirmək üçün platforma kimi istifadə etməyə çağırıb. O, həmçinin COP29-un uğurlarına əsaslanaraq xalis sıfır emissiyaya nail olmaq və iqlim dəyişikliyi ilə bağlı təcili problemlərin həlli istiqamətində qlobal səylərdə daha bir mərhələyə çatmaq məqsədilə COP30-a evsahibliyi edəcək Braziliya ilə əməkdaşlığa başladıqlarını əlavə edib.

# Nyu Dehlidə "Yaşıl dünya naminə həmrəylik ili"nə və COP29-a həsr olunmuş veloyürüş keçirilib

**Azərbaycanın Hindistandakı səfirliyi Hindistan Velosipedçilər Konfederasiyası ilə birgə paytaxt Nyu Dehli şəhərində 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) həsr olunmuş velosiped yürüşü təşkil edib.**



Səfirlikdən AZƏRTAC-a bildirilib ki, səhər saatlarında səfirliyin önündən başlayan veloyürüş paytaxt Nyu Dehlinin mərkəzindəki tarixi "India Gate" abidəsinin önünə qədər davam edib.

Müxtəlif yaş kateqoriyalarından olan 100-dən artıq həvəskar velosipedçinin qatıldığı yürüşün məqsədi sağlam və dayanıqlı həyat tərzinin təşviqi, iqlim dəyişikliyinin mənfi təsirləri barədə məlumatlılığın artırılması, Azərbaycanın COP29 sədrliyinin fəaliyyət gündəliyinə diqqətin cəlb edilməsi və geniş ictimai dəstəyin əldə edilməsi idi.

Veloyürüşün sonunda çıxış edən səfir Elçin Hüseynli Azərbaycan Prezidentinin Sərəncamı ilə ölkəmizdə elan edilmiş 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində aparılan fəaliyyətlər və ölkəmizin COP29 sədrliyi dövründə irəli sürülən təşəbbüslər barədə məlumat verib. O, Hindistan Velosipedçilər Konfederasiyasının Azərbaycanın COP Atəşkəs çağırışına qoşulan ilk təşkilatlardan biri olduğunu diqqətə çatdırıb.

Konfederasiyanın prezidenti Ratan Rajnan Hindistan cəmiyyətində iqlim dəyişikliyi ilə bağlı məlumatlılığın artırılması, sağlam həyat tərzi və daha təmiz ətraf mühitin təşviqi məqsədilə veloyürüşü təşkil etdiyinə görə səfirliyə təşəkkür edib. O, rəhbərlik etdiyi təşkilatın və onun üzvlərinin Azərbaycanın COP29 sədrliyinin fəaliyyətini dəstəklədiyini bildirib.

Tədbir zamanı səfirliyin həyətində və "India Gate" abidəsinin yanında "Yaşıl dünya naminə həmrəylik ili" və COP29-a həsr olunmuş fotostendlər yerləşdirilib, iştirakçılara müvafiq loqoların əks olunduğu xüsusi hazırlanmış köynəklər təqdim edilib.

# Sumqayıt yubileyə hazırlaşır

**Sumqayıtın 75 illik yubileyi ilə bağlı tədbirlər davam edir. Növbəti belə tədbir Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə "Kimyaçı" sarayında keçirilib.**



Şəhər rəhbərliyinin, hüquq-mühafizə orqanları, idarə, müəssisə və təşkilatların, eləcə də ictimaiyyətin nümayəndələrinin iştirak etdikləri tədbir Dövlət himninin səsləndirilməsi və şəhidlərin xatirəsinin yad edilməsi ilə başlayıb. Yubileyə həsr olunan sərgiyə baxış keçirildikdən sonra çıxış edənlər bildiriblər ki, 1949-cu ildə şəhər statusu alan Sumqayıt ötən dövr ərzində mühüm inkişaf yolu keçərək Azərbaycanın ən gözəl şəhərlərindən birinə çevrilib. Vurğulanıb ki, Cənubi Qafqazın mühüm sənaye mərkəzlərindən biri kimi tanınan Sumqayıtın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün Ulu Öndərin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu iqtisadi islahatlar nəticəsində Sumqayıt yeni bir dövrünü yaşayır. Dövlət başçısının apardığı iqtisadi və sosial siyasət nəticəsində həyata keçirilən dövlət proqramlarının uğurlu icrası Sumqayıt şəhərinin də inkişafında mühüm rol oynayıb.

O da qeyd olunub ki, son 20 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi altında Sumqayıt şəhərində çox böyük layihələr reallaşdırılıb, şəhərin inkişafı ilə bağlı önəmli işlər görülüb. Onların sırasında sənaye parklarının yaradılması, ətraf mühitin qorunması, şəhərin infrastrukturunun yenidən qurulması və modernləşdirilməsi, təhsil və sağlamlıq xidmətlərinin yaxşılaşdırılması kimi mühüm yeniliklər var.

Tədbir konsert proqramı ilə yekunlaşıb.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

# Yağışlar yığımı ləngitsə də...

## Tərtərli pambıqçılar yetişdirdikləri məhsulu son qozayadək toplamaq əzmindədirlər

**Artıq bu yerlərdən barıt qoxusu çəkilib. Güllə səsi, top gurultusu da eşidilmir. Qəhrəman oğullarımızın, şanlı ordumuzun hünəriylə erməni faşistlərinin 30 illik işğalından azad edilən, bizlərə doğmadan doğma olan ana torpaq indi rahat nəfəs alır, sanki xilaskar övladlarına öz minnətdarlığını bərəkətli düzlərdə, geniş tarlalarda yetirdiyi bol barı, bəhəri ilə bildirir.**

Dünən öz canı, qanı bahasına ana yurdu düşmən tapdağından qoruyan, müqəddəs Qarabağ savaşında gerçək qəhrəmanlıq nümunəsi göstərərək Vətən müharibəsinin tarixinə adını yazan tərtərlilər döyüş meydanlarında olduğu kimi, əmək sahəsində də xariqələr yaradırlar.

Artıq bir neçə gündür ki, rayonun təsərrüfatlarında pambıq yığımına başlanılıb. Pambıq bu yerlərin qiymətli sərvətidir. Strateji məhsul olan pambığın bolluğu kəndlilərin firavan həyatına, xoş güzəranına əhəmiyyətli təsir göstərir, yerlərdə sosial-iqtisadi inkişafı şərtləndirir. Günümüzün reallığı budur ki, dövlət də, torpaq mülkiyyətçisi də pambıqçılığı inkişaf etdirməkdə maraqlıdır. Kəndlini razı salan ən əsas amil isə yetişdirdiyi məhsulun əlində qalması riskinin olmamasıdır. Digər kənd təsərrüfatı məhsullarından fərqli olaraq, pambığın etibarlı müştərisi, sərfəli bazarı var.



Tərtərdə cari ilin pambıq yığımına ilk olaraq Hüsənli kəndində - təcrübəli pambıqçı Firuz Rzayevin fermer təsərrüfatında başlanıb. Rayonun ucqar kəndi olan Hüsənli Ağdamın uzun illər işğal altında olmuş əraziləri ilə həmsərhəddir. Müharibə bu kəndin sakinlərinə də olmazın ağrı-acı yaşadıb. Parlaq qələbədən, şanlı zəfərdən sonra üstünə azadlıq günəşi doğan Hüsənli indi tamam fərqli günlər yaşayır. Torpağa, zəhmətə bağlı hüsənlililər min bir həvəslə çalışır, dövlətin iqtisadi qüdrətini artırmaq, öz firavan həyatını təmin etmək, güzəranını yaxşılaşdırmaq üçün səy və bacarıqlarını əsirgəmirlər.

Fermer Firuz Rzayev söhbət zamanı dövlət səviyyəsində göstərilən qayğıdan, yetişdirdikləri pambığın onların dolanışığına əhəmiyyətli təsirindən həvəslə söz açdı:

- İllərdir pambıq əkib becəririk. Heç zaman peşman olmamışıq. Dövlətin güclü əlini kürəyimizdə hiss etdikcə işləmək həvəsimiz daha da artır. Bu il 15 hektar sahədə pambıq əkmişik. Yazda yağışlı-yağmurlu günlər çox olduğundan əlavə tədbirlər görməli olduq. Aqrotexniki qaydalara ciddi əməl etdik. Şükürlər olsun ki, çəkdiyimiz zəhmət hədər getmədi. İndi ağ örpəyə bürünmüş bol məhsullu tarlalara baxanda aylardan bəri çəkdiyimiz zəhmətin, axıtdığımız alın tərinin ağrı-acısını unuduram. İnanıram ki, bu il hər hektarın məhsuldarlığını 50 sentnerə çatdıracağıq. Bizə qələbə sevincini bəxş edən Müzəffər Ali Baş Komandan İlham Əliyevə, şanlı ordumuzun qəhrəman əsgərlərinə minnətdarıq. Onların sayəsində bu gün dinc əməklə, halal zəhmətlə məşğuluq. Firavan həyat, xoş güzəran isə öz əlimizdədir. Bu imkanı bizə yaradan dövlətimizə güvənirik.

Bu il Tərtər rayonunun təsərrüfatlarında 2436 hektarda pambıq əkilmişdir. Onun 1195 hektarı "MTK İstehsal Kommersiya" MMC-nin, 827 hektarı "Azərpambıq" MMC-nin, 414 hektarı isə digər şirkətlərin payına düşür. Yetişdirilmiş məhsulu tez və itkisiz yığıb təhvil vermək üçün rayonda bütün qüvvələr səfərbərdir. Ötən illər olduğu kimi, məhsul yenə də texnikanın gücü ilə yığılır. Traktorlar, lafetlər də yetərincədir.

Son günlər havalar pambıq yığımı üçün əlverişsiz keçir. İntensiv yağışlar əlavə problemlər yaradır, amma bu, fermerləri qorxutmur. Əmindirlər ki, havalar onlara məhsulu toplamaq üçün möhlət verəcək.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# GDU ilə Təhsil Tələbə Krediti Fondu arasında əməkdaşlıq genişlənəcək

**Təhsil Tələbə Krediti Fondunun (TTKF) nümayəndələri Gəncə Dövlət Universitetində olmuşlar. Görüşdə fondun İdarə Heyəti sədrinin müavini Tahir Xələfov, universitetin tədris məsələləri üzrə prorektoru Şahin Xurşudov və hər iki tərəfdən digər məsul şəxslər iştirak etmişlər.**



Şahin Xurşudov çıxış edərək dövlətin təhsilə qayğısından, bu istiqamətdə həyata keçirilən layihələrdən danışmış, tələbələrin təhsil haqqını ödəməsi baxımından fondun yaradılmasının böyük əhəmiyyət daşıdığını diqqətə çatdırmışdır. Tahir Xələfov isə çıxış edərək fondun fəaliyyət istiqamətləri və təhsil kreditinin verilməsinin meyarları, eləcə də fonddan yararlanmış şəxslərin məşğulluq imkanlarının artırılması, məzunların işlə təmin olunması istiqamətində fond tərəfindən aparılan işlər, dövlət və özəl sektor təmsilçiləri ilə əməkdaşlıq əlaqələri haqqında məlumat vermişdir.

Görüşdə fondun Gəncə Dövlət Universiteti üzrə koordinatoru Sevinc Quliyeva təhsil tələbə krediti ilə bağlı mütəmadi maarifləndirmə işlərinin aparıldığını diqqətə çatdırmışdır. Bildirilmişdir ki, 2021-ci ilin noyabr ayından fəaliyyətə başlayan Təhsil Tələbə Krediti Fonduna universitetlərdən təxminən 55 min müraciət daxil olmuş, 43 mindən çox təhsil tələbə krediti müqaviləsi imzalanmışdır.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

# Goranboylular 3 şirkətlə müqavilə bağlayıblar

**Ötən əsrin 70-ci illərində Azərbaycanda kənd təsərrüfatının digər sahələri kimi, pambıqçılıq da sürətlə inkişaf etməyə başladı. Hətta həyata keçirilən tədbirlər nəticəsində respublikada 1 milyon ton pambıq istehsal olundu. Bu sahədə qazanılan uğurlar respublikada aqrar sektorun sürətli inkişafını təmin etdi, kənd əhalisinin rifah halını yüksəltdi.**

Lakin sovetlər birliyinin dağılması və keçmiş respublikalar arasında iqtisadi əlaqələrin qırılması nəticəsində pambıqçılıq da tənəzzülə uğradı. Uzun illər bu sahədə zəngin təcrübə toplayan pambıqçılar tədricən bu işdən uzaqlaşdılar. Ancaq Prezident İlham Əliyevin təşəbbüsü ilə bir neçə il əvvəl bu gəlirli sahənin yenidən dirçəldilməsi üçün görülən konkret tədbirlərdən sonra pambıqçılıqda dönüş yarandı.



Ölkə üzrə pambıqçılıqda uğurlu göstəricilər qazanan rayonlardan biri də Goranboydur. Rayonun əkinçiləri strateji məhsul olan pambığın istehsalını artırmaq üçün bütün imkanlardan istifadə edirlər.

Rayonda pambığın becərilməsi və tədarükü ilə "MTK İstehsal Kommersiya", "Azərpambıq" və "Goran-Cotton" MMC-lər məşğul olur. Cari ilin məhsulu üçün istehsalçılarla 1450 hektar üzrə müqavilə bağlanmışdır. Bu sahələr əsasən Fəxralı, Qaramusalı, Səfikürd, Xan Qərvənd, Əlirzalı, Yeniyol, Balakürd, Boluslu, Nərimanlı, Qarapirimli, Goranlı, Quşçular, Gülməmmədli, Düzqışlaq və Aşağı Ballıqaya kəndlərindədir. Hazırda pambıq sahələrində 3 kombayn işləyir. Son məlumata görə, sahələrdən 800 tona yaxın məhsul toplanmışdır. Məhsuldarlıq da pis deyil. Məsələn, Qırıxlı kəndində hər hektardan 25, Xanqərvənd kəndində 30 sentnerədək məhsul toplanmışdır.

"Goran-Cotton" MMC-də də qüvvələr səfərbərliyə alınıb. Şirkətin pambıq qəbulu məntəqəsi rayonun Dəliməmmədli şəhərində yerləşir. Burada pambıq emal ediləndən sonra preslənərək anbara yığılır.

Rayonda böyük pambıq istehsalçılarından biri də "MTK İstehsal Kommersiya" MMC-dir. Hər il olduğu kimi, bu il də MMC-nin müqavilə bağladığı sahələrdə bol məhsul yetişdirilmişdir. Texnika sarıdan da elə bir çətinlik yoxdur. Şirkətin özünün 7 pambıqyığan kombaynı, bir neçə becərmə traktoru var.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# 12 min ting əkiləcək

**Samux rayonunun Ziyadlı kəndinin inzibati ərazisində, Samux-Kür yolunun kənarında "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində ağacəkmə aksiyası keçirilmişdir.**

Rayon rəhbərliyi, şəhid ailələri, qazilər, idarə müəssisə və təşkilatların kollektivləri, eləcə də gənc könüllülərin iştirak etdikləri aksiyada avtomobil yolunun kənarına yerli iqlim şəraitinə uyğun xan çinarlar, şam, sərv ağacları və digər gül kolları əkilmişdir. Aksiya çərçivəsində əvvəllər əkilən ağac tinglərinə də aqrotexniki qulluq göstərilmişdir.

Qeyd edək ki, son 5 gün ərzində Samux rayonunda 9 mindən çox ağac və gül kolu əkilmişdir. Əkilən ağacların suvarılması üçün müasir damcı suvarma sistemi yaradılmışdır. Ümumiyyətlə, mövsüm ərzində 20 hektar ərazidə 12 minədək tingin əkilməsi planlaşdırılmışdır.

*"Azərbaycan"*

# Tezliklə Abşeronda abadlaşmayan ərazi qalmayacaq

## Rayon ərazisində aparılan yenidənqurma və yaşıllaşdırma işləri COP29 ərəfəsi daha da sürətlənib

**BMT-nin İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) az vaxt qalıb. Ölkəmizdə keçirilən bu möhtəşəm tədbirə hazırlıq işləri isə özünün son mərhələsinə qədəm qoyub.**

2024-cü il ölkəmizdə həm də "Yaşıl dünya naminə həmrəylik ili" kimi əlamətdardır. Əslində, COP29 və "yaşıl dünya" naminə həmrəylik bir-birindən ayrılmaz anlayışlardır, məntiqcə bir-birinin davamıdır. Bu çərçivədə keçirilən tədbirlər, o cümlədən ölkəmizin bütün regionlarında aparılan abadlıq və yaşıllaşdırma işləri bunu təsdiqləyir. Abşeron rayonu da təbii olaraq bu mühüm kampaniyadan kənarda qalmır.

Rayon rəhbərliyinin, idarə və müəssisələrin kollektivlərinin, Abşeron RİH könüllülərinin, şəhid ailələrinin, müharibə iştirakçılarının və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri "yaşıl aksiya"lar ilk növbədə rayon ərazisindən keçən magistral yolların kənarlarını əhatə edir. Oktyabrın 18-dən başlanan aksiyada ümumilikdə 16500 ağac və həmişəyaşıl gül kolu əkilib. Əkilən ağaclara lazımi aqrotexniki qulluq göstərilib, həmin sahələrə suvarma şəbəkəsi çəkilib.

Xırdalan şəhərindəki Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında da abadlıq tədbirləri həyata keçirilib. Parkın ərazisində 2000 kvadratmetrə yaxın sahədə çəmənlik salınıb, mövcud yaşıllıqlara aqrotexniki qulluq göstərilib. Bundan əlavə, parkda ümumi iməcilik keçirilib, ərazi alaq otlarından təmizlənib. Bütün bunların sayəsində yarımsəhra ərazi hesab olunan Abşeron rayonunun bütün kənd və qəsəbələri yeni görkəm alıb.



Amma bir iş də var ki, təmizlik və abadlıq yoxdursa, yaşıllığın heç bir faydası olmaz. Yaşıllıq nə qədər gözəllik gətirsə də, ətrafa təmiz hava bəxş etsə də, səliqə-sahman, abadlıq bir başqadır. Odur ki, rayonda bu məsələlər diqqət mərkəzindədir. Abadlıq və Kommunal Xidmətlər İdarəsinin işçiləri daim küçə və parklarda ümumi səliqə-sahmanın olmasına çalışır, eyni zamanda yaşıllıqlara qulluq edirlər. Saray, Mehdiabad, Masazır, Novxanı, digər kənd və qəsəbələrdə yolların kənarlarına əkilmiş ağacların boy atıb böyüməsində onların da əməyi az deyil.

Bakı-Quba yolunun Abşeron rayonu ərazisindən keçən hissəsində əsaslı təmir işlərinin aparılması sayəsində həm ərazi abadlaşıb, həm də sürücülər, sərnişinlər, piyadalar rahatlığa çıxıblar. Masazır, Saray, Ceyranbatan və yaxınlıqda yerləşən yaşayış massivlərində isə ticarət obyektləri təmir edilir. Təmirdən sonra onlar yol kənarında salınan yaşıllıq zolaqları ilə birlikdə əraziyə ayrı görkəm verəcək. Yeri gəlmişkən, ərazidəki bir çox reklam lövhəsi də yenilənir, yolların işıqlandırılması sistemi dəyişdirilir.

Həmişə qonaqlarını günəşinin hərarəti ilə qarşılayan "qızıl qumlu" Abşeron indi onları həm də yaşıllıqları ilə heyrətləndirəcək, gülü-çiçəyi ilə salamlayacaq. Başqa sözlə, abşeronlular da COP29-un qonaqlarını layiqincə qarşılayacaqlar.

*A.ƏLİYEV,*
*"Azərbaycan"*

# Narkomaniyaya qarşı mübarizə maarifləndirmədən başlayır

**Şirvan Şəhər İcra Hakimiyyətinin və Şirvan Şəhər Polis Şöbəsinin birgə təşkilatçılığı ilə 1 nömrəli şəhər tam orta məktəbində narkomaniyaya qarşı mübarizə mövzusunda maarifləndirici tədbir keçirilib.**

Tədbirdə ŞİH-in başçısı, ŞPŞ-nin rəisi, şəhər prokuroru, Dövlət Təhlükəsizliyi Xidməti Şirvan şəhər şöbəsinin rəisi, Şirvan-Salyan Regional Təhsil İdarəsinin əməkdaşları, məktəbin müəllimləri və yuxarı sinif şagirdləri iştirak ediblər.

Çıxış edən ŞİH-in başçısı İlqar Abbasov narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə nəzərdə tutulan tədbirlərin icrasını təmin etmək məqsədilə yaradılan müvafiq komissiyanın fəaliyyətindən danışıb, narkomanlığın ictimai bəla olaraq cəmiyyətə ziyanı, bu bəla ilə mübarizədə təbliğat və maarifləndirmə işinin gücləndirilməsi, yeniyetmə və gənclərin sağlam həyat tərzi ruhunda tərbiyə edilməsi, müxtəlif zərərli vərdişlərin yayılmasının qarşısının alınması istiqamətində şəhərin idarə, müəssisə və təşkilatlarında mütəmadi kütləvi tədbirlər təşkil edildiyini diqqətə çatdırıb. Ölkəmizdə sosial-iqtisadi inkişafın təmin edilməsinin, insanların sağlamlığının qorunmasının, rifah halının yaxşılaşdırılmasının və cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərin önəmini vurğulayan ŞİH-in başçısı narkomaniyaya qarşı mübarizə sahəsində dövlət siyasətinin strateji istiqamətlərini müəyyən edən bir sıra qanun və dövlət proqramlarının Şirvan şəhərində də həyata keçirildiyini qeyd edib.

Şəhər Polis Şöbəsinin rəisi Fizuli Əhmədov, şəhər prokuroru Kamal Talıbov, Dövlət Təhlükəsizliyi Xidməti Şirvan şəhər şöbəsinin rəisi Mehman Qasımov da dövrümüzün bəlası olan narkomaniyanın insanlara vurduğu mənəvi və maddi zərərlərdən danışıblar. Hazırda Şirvan şəhərində narkomaniyaya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı sərt tədbirlərin həyata keçirildiyini, qısa müddətdə şəhərin narkotik "tacir"lərindən təmizlənməsi istiqamətində xeyli işlər görüldüyünü, ardıcıl maarifləndirmə və profilaktik işlərin aparıldığını vurğulayan natiqlər gəncləri sağlam həyat tərzi keçirməyə səsləyiblər.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 27 aprel (Bazar günü) tarixli 167-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Yekşənbə, 26 rəcəbül-mürəccəb sənə 1337.
27 nisan 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

Bakı Şəhər İdarəsi bununla elan edir ki, aprel ayının 27-sində saat birdə Təsərrüfat Şöbəsi dəftərxanasında şəhər budkalarını icarəyə verməkdən ötrü torq [hərrac] olacaqdır. Budkaların biri bulvarda Tamojna [Gömrük] körpüsü qarşısında, digəri isə Mixaylovski bağda Nikolayevski küçədən girən yerdə, hovuzun qarşısında. Şəraiti [şərtləri] Təsərrüfat Şöbəsi dəftərxanasında oxumaq olar.

*T-113*

## İNGİLTƏRƏ-QAFQAZİYA BANKİR KANTORASI

*(Bakı, Velikoknyajeski küçədə, nömrə 1)*

Müamilat [əməliyyatlar] türk və rus dillərindədir.

İngiltərə-Qafqaziya Bankir Kantorası may ayının 3-ndən etibarən açılıb, bu aşağıdakı müamilatda bulunacaqdır:

Əcnəbi valyuta alıb-satmaq. Qiymətli kağızlar alıb-satmaq. Mal xərid və füruş [alıb-satmaq]. İldə 6 faizlə hesabi-cariyə tövdilər [cari hesaba əmanətlər] qəbulu. Təcili tövdilər qəbulu. Para bərat edilməsi [göndərilməsi]. Mal və mal sənədlərinə rəhn [girov] olaraq borc verilməsi. Bundan əlavə müxtəlif komisyon sifarişatı qəbul edilir. Tiflisdə, Batumda, İstanbulda və Londonda dəxi kantoralar açılır.

*8739*

## TELEQRAF XƏBƏRLƏRİ

(Royter acentəliyindən)

**Krımda mütarikə**

Bolşeviklər Krım hökumətini Sevastopolun təxliyəsi ilə ittiham edirlər. Müttəfiqlər Komandanlığı 8 günlük bir mütarikə əqd etmişdir [atəşkəs imzalamışdır].

**Sülh əhdnaməsinə dair**

Almaniya hökumətinə dəvətnamə göndərilmişdir ki, öz nümayəndələrini aprelin 25-də Versala göndərsin. 200 nümayəndənin vürudu [gəlməsi] gözlənir. Ümid edilir ki, sülh əhdnaməsi [sazişi] mayın 25-nə qədər imza edilsin. Almanlar öz nitqlərində hal-hazırda və gələcəkdə Almaniyanın fövqəladə tələfatına [itkisinə] səbəb olan sülh əhdnaməsini qəbul etməkdən imtina edirlər. Hökumətin sülh bərpa etməsi, adi işlərə başlaması və məmləkətə çörək verməsi arzuları düşmən müsaibəyə amalını tərk etmədiyi mümaniətə [maneəyə] düçar olur. Ablukanın [blokadanın] davamı Almaniyanı fövqəladə bir hala salacaqdır.

**Qərq edilmiş qayıqlar**

Bəhri idarələrin [dənizçilik idarələrinin] verdikləri hesaba görə, Müttəfiqlər Avropa müharibə[si] zamanında düşmənlərdən 205 sualtı qayığı qərq etmişlər.

**Çembersin bəyanatı**

Çembers mətbuat nümayəndələrinə məlum etmişdir ki, sülh əhdnaməsi imza edildikdən sonra Parlamana təqdim olunacaqdır. Sülh əhdnaməsi imza edilmədikcə onun elan edilməməsinə qarşı edilən protestoya cavab olaraq Pişon tələb etmişdir ki, hökumətə izhari-etimad edilsin [etimad göstərilsin]. Pişonun bu tələbi 120 səs əleyhinə 360 səslə qəbul edilmişdir.

- Almaniyanın əhvali-maliyyəsini [maliyyə vəziyyətini] təyin edən Paris komisyonu bəyan edir ki, iki il müddətində Almaniya 9 milyon qızıl, gümüş və qeyri qiymətli şeylərlə və 160 milyon nağd ilə borcunu ödəyə biləcəkdir.

**Almaniyada tətil**

Almaniyanın kömür mədənlərində olan tətil qayət xətərnakdır [təhlükəli hal almışdır]. 37 min nəfər əmələ [fəhlə] 6 saatlıq iş günü və Almaniya Şura Hökuməti[ndən] Rusiya ilə əlaqədə bulunmağı tələb edirlər.

**Macarıstanda anarşi**

Romaniya əxbar [xəbərlər] bürosu xəbər verir ki, Peştəni ümumi anarşiya xətrə [təhlükə] altında saxlayır. Sosialistlər hökuməti qeyb edir. Getdikcə hökumət Rusiyadan gəlməkdə olan bolşeviklərin əlinə keçir. Almaniya afserlərinin müavinəti [köməyi] ilə Macarıstan ordusu təşkil edilir.

## SÜLH ƏTRAFINDA

**Türkiyə və sülh**

İstanbulda fransızca çıxan "Monitor oriental" qəzetəsinun yazdığına görə, Türkiyə Xariciyyə naziri tərəfindən Ali Beynəlmüttəfiqin Komissariatına Paris Sülh Konfransı üçün aşağıdakı mürəxxəslərin intixab edildiyini [nümayəndələrin seçildiyini] bildirərək, Parisə ezam edilmələrini tələb etmişdir:

Mustafa Rəşid paşa – sabiq Xariciyyə naziri, Keçəçizadə İzzət paşa – Xariciyyə naziri müstəşarı, Rəşad Xalis bəy – yeni Bern səfiri, Qalib Kamali bəy – Tərki-Təslihat [Silahların Tərk edilməsi] Komisyonu rəisi, Rəşid bəy – Xariciyyə Nəzarəti Ümuri-siyasiyyə [Siyasi işlər] müdiri-ümumisi, qaimməqam [polkovnik-leytenant] Ədib bəy – mürəxxəsi-əsgəri [hərbi nümayəndə], Əmin bəy – Xariciyyə Nəzarəti Kabinəsi müdiri və heyəti-mürəxxəsə baş katibi. Bu mürəxxəslər bir həftə zərfində İstanbulu buraxıb Parisə gedəcəklər.

* Dördlər Şurası hər gündə iki dəfə iniqad edir [yığışır]. Şuranın qətnamələri məxfi tutulur.

**Vilsonun bəyanatı**

Paris – Bu gün Amerika rəisi-cümhuru [prezidenti] Vilson bu məzmunda bir müraciətnamə dərc eyləmişdir:

*"Bəzi dairələrdə böylə fikir hasil olmuşdur ki, guya Cəmiyyəti-Əqvam müahidəsi [Millətlər Cəmiyyəti sazişi] xüsusi komissiya tərəfindən müzakirə edildiyi üçün sülh əhdnaməsinin qəti surətdə qurtarması ləngə düşmüşdür. Şimdi mən bəyan edirəm ki, bu komissiya birinci olaraq öz qətnaməsini Sülh Konfransına təqdim eyləmişdir. Qətnamə fevralın 14-də Konfransa təqdim edilmişdir. Bu layihəni müzakirə üçün neçə ay vaxt var idi. Bu neçə ayda layihə maddə-maddə müzakirə edilə bilərdi. Son günlərdə komissiya bəzi maddələrin təbdili [dəyişdirilməsi] ilə məşğuldur. Komitə bitərəf dövlətlərin nümayəndələri ilə məşvərətdə bulunmuşdur. Bitərəf dövlətlər nümayəndələri Cəmiyyəti-Əqvama daxil olmağı arzu etmişlərdir. Hər halda komissiya üzvləri heç bir vaxt sülh danışıqları gedişinin təxirinə səbəb olmadıqları ilə özlərini təbrik edə bilərlər."*

**Vilson hüzurunda**

Şənbə günü Vilson Assuriya və Xaldeya heyətini, İstanbul patrikini [patriarxını], yunan səfirini, Romaniya Rəisi-vükəlası [Baş naziri] Bratianunu, Albaniya sülh heyətinin rəisi Əsad paşanı, Ermənistan sülh mürəxxəsləri rəisi Poqos Nubar paşanı və Serbiya Rəisi-vükəlası Paşiçi hüzuruna qəbul eyləmişdir.

**İngilis donanması**

Xəbər verilir ki, İngiltərə donanması Baltik dənizində mühəyyadır [hazırdır]. Hərgah nemeslər Tupa, Livoniya və Vitebski işğal etmək fikrindən daşınmazlarsa, o zaman ingilis donanması Almaniya iskələlərini [limanlarını] işğal edəcəkdir.

* Versalda Sülh konfransına almanlar tərəfindən təqdim ediləcək şərtləri Almaniya mətbuatı müzakirə etməkdə davam edir. Yazıldığına görə, Müttəfiqlər alman nümayəndələrinin şəraitini [şərtlərini] dinləməyəcəkdirlər.

**Dördlər Şurasında**

Fələstin müstəqil bir dövlət olur. O qitəni [regionu] idarə etmək ixtiyarı İngiltərəyə verilir. Dünən Şura Helqoland məsələsini müzakirə edərək, həman təhkimatın [istehkamların, müdafiə qurğularının] dağılmasına qərar verilmişdir.

## QƏZETƏLƏRDƏN

**Qafqaziya əhvalı haqqında "Tayms"**

Londrada çıxan ingiliscə "Tayms" qəzetəsinin xüsusi müxbiri "Qafqaziyada milli rəqabətlər" sərlövhəsi ilə bir qaç məqalə yazıb göndərmişdir. İngilis mətbuatının Qafqaziya haqqında nələr düşündüklərini oxuculara bildirmək məqsədi ilə o məqalələrin ikincisini qismən tərcümə etdik:

*"İslam millətinin qüvvət və əksəriyyətini ən ziyadə haiz bulunan [əhatə edən] və Turançılıq fikrinin ocağı sayılan Azərbaycanda hökumət ilə Müttəfiq qüvayi-işğaliyyəsi [işğal qüvvələri] arasında münasibət olduqca yolundadır. Hökumət milli ordusunu ingilis Baş komandasının əmrinə görə mühafizə etdi. Axır zamanlarda səy və ücrət [əmək və əməkhaqqı] məsələlərindən dolayı bəzi uyğunsuzluqlar əmələ gəldi amma tatar (!) fəhlələrinin ağıl və məntiqə görə hərəkət edə bilmələri haqqında çətinlik olmadı. Fəqət ruslar və erməniləri başa salmaq mümkün olmadı...*

*Azərbaycan Məclisi-Məbusanının birinci ictiması [iclası] dekabr ayının 7-də açıldı...*

*Rus əleyhdarlığı Azərbaycanda, Ermənistanda olduğu qədər şiddətlidir. (?)*

*Dağıstan ərazisində rus anarşisindən doğmuş bir Şimali Qafqaziya Cümhuriyyəti vardır. Bu hökumət milli deyil, bəzi siyasi təsirlərlə dünyaya gəldi. (?) O qədər qüvvətli bir irqi hissiyyata tabe olmadığı üçün mövcudiyyətini saxlaya bilməsi məsələsi şübhəlidir.*

*Bolşeviklərin irəliləmələri üzündən Şimali Qafqaziya mərkəz hökuməti Vladi-qafqazdan Teymurxanşuraya köçürüldü. Bu axırıncı şəhər Dağıstanda olmaqla bərabər, hökumət dağıstanlıların müavinət və müzahirətindən [köməyindən] istifadə edəmməyir. (?!)*

*Ermənistan yaxud digər adla Ararat Cümhuriyyəti Batum müahidəsinə [sazişinə] görə hüdud vüsəti [sərhədlərinin genişliyi] təyin edilmiş və Qafqaziya hökumətlərinin ən kiçiyini təşkil eyləmişdir. Bu hökumət ermənilərin milli yurdu olan (?) İrəvan əyaləti ilə bunun ətrafında bulunan bəzi kiçik ərazidən ibarətdir.*

*Ermənistanda iki siyasi firqə vardır: Daşnaksütyunlar, yəni sosialistlər (?) və sosialist ziddi hürriyyətpərvərlər. Bu sol firqənin nüfuzu çoxalır. Ermənistanda bolşevizm məslək və cərəyanı yoxdur. Əmlakı müsadirə etmək məsələsi də heç mövzuyi-bəhs [müzakirə mövzusu] deyildir. Bütün firqələr xarici işlərdə bərabərdirlər. Nubar paşanı ermənilər millətinin mürəxxəsi [nümayəndəsi] olaraq tanıyırlar. Onların məqsədləri indiki Ermənistana Türkiyənin ermənilərlə sakin bulunan vilayətlərini birləşdirməkdir. Sülh Konfransı bu hüdudları göstərərsə, müvəqqətən müstəqil bir Ermənistan hökuməti təşkil edəcəklərdir. Əgər Nubar paşanın təklifləri qəbul edilərsə, Türkiyə Ermənistanı Qara dənizdən Ağ dənizə [Aralıq dənizinə] qədər böyüyəcəkdir.*

*Aldığım və öyrəndiyim fikirlərə görə, İrəvan həvalisindən [tərəflərindən] Kiçik Asiyaya doğru böyük bir mühacirət hərəkətinə intizar etməlidir [böyük bir köç gözləmək lazımdır]. Çünki nüfus [əhali] məsələsi xaricdən mühacirlər gətirmək və başqa tərəfə doğru köçənləri əski yurdlarına iadə eyləmək [qaytarmaq] surəti ilə həll edilə biləcəkdir. 1915-ci ilindən bəri İrəvan həvalisi Türkiyədən gələn qaçqınlar və millətçilərlə dolmuşdur. Bunlara İttihad və Tərəqqi ordusundan qaçan Batum, Ərdahan, Qars erməniləri də iltihaq etmişdir [qoşulmuşdur].*

*Müstəqil bir Ermənistan təşkil edilməsi təsəvvür edilərsə, İrəvan həvalisinin dəxi əlavə ediləcəyi məmuldur [gözləniləndir]. Çünki ermənilərin rəisi-ruhanisi [dini rəhbəri] İrəvan əyaləti daxilində Eçmiyədzində oturmaqdadır.*

*Ermənilər gürcüləri ittiham edirlər ki, İttihad və Tərəqqi ordusunu Qafqaziyaya gətirənlər və yol verənlər onlardır. Onun üçün də gürcülərlə ermənilər arası yaxşı deyildir. Axalkələyə sahib olmaq üçün ermənilərlə gürcülər arasında çıxan qanlı müharibələrdən sonra iki tərəf arasında nifrət və düşmənlik hissləri daha da artmışdır. Bundan sərfi-nəzər [bundan əlavə], ermənilərlə müsəlmanlar arasında daha fəna bir münasibət vardır. İki millətdən birinə aid və əksəriyyəti-nüfusun əqəliyyətə [çoxluğun azlığa] qarşı göstərdiyi vəhşiyanə müqabileyi-bilmisillər [eynilə qarşılıq vermələri] nəticəsi olaraq qanlar töküldü. Qafqaziyalılarda sülhcuyanə əməllər [sülhpərvər niyyətlər] azdır. (?) Müttəhid [birləşmiş] bir hökumət təşkil ediləcəyi təsəvvürləri boş şeydir. (?) Digər tərəfdən, Rusiya da Qaf-qaziya məsələlərini həll edə biləcək bir halda deyildir. Bununla bərabər, üç və ya dörd millətin ittihadı [birləşməsi] ilə əgər bir intizam və sülh doğarsa, o zaman milli və irqi bir dairədə hökumətlər təşkili mümkün ola biləcəkdir. Hər nə olarsa da, Qafqaziyada payidar [qalıcı, daimi] bir vəziyyətin hüsulu üçün daha epeyi [çox] zaman lazımdır."*

**Osmanlı vilayətlərində islamların əksəriyyət təşkil etdiyinə qəti bir dəlil daha!**

Hökumət və millət arasında ciddi məsaisi [fəaliyyəti] ilə şayanidiqqət [diqqətəlayiq] bir çox işlər görən Osmanlı Milli Konqresi Vilson düsturlarına qəti bir surətdə mütabiqət edəcək [uyğun gələn] elmi və fənni bir istatistika tərtib etmişdir. Aşağıda mühərrər bulunan [yazılan] bu istatistikadan məlum olacaqdır ki, Osmanlı məmləkətində əqəliyyətdə [azlıqda] qalan millətlərin yekunu ancaq üç milyona qərib [yaxın] bulunmaqdadır.

Kastamonu, Konya, Ankara, Trabzon vilayətləri ilə Aydın vilayətinin dörddə üç hissəsi, Ədirnə vilayətinin üçdə ikisi və sair vilayətlərin isə əksəriyyətini islamlar təşkil etməkdədir.

Milli Konqre şu surətlə Osmanlı nüfusi-ümumiyyəsini [ümumi əhalisini] təyin etmişdir:

| Sayısı | Əsami [adlar] | Mində |
|---|---|---|
| 13,559,786 | islam | 804 |
| 1,614,981 | rum | 103 |
| 1,214,453 | erməni | 77 |
| 226,006 | başqa millətlər | 16 |
| 16,615,226 | yekuni-ümumi | 1,000 |

Bu istatistika son 1919 sənəsinə aid olmasına görə, Türkiyə 1912-dən bu tarixə qədər 10 milyon islam nüfusu qeyb etmişdir.

**"Tayms" yeni alman xətrəsi [təhlükəsi] barəsində**

Amerikanın məşhur siyasiyyunundan [siyasətçilərindən] Simyons Frank Almaniyanın yeni təhlükəsi ilə Müttəfiqləri xəbərdar edir.

Simyonsun rəyinə görə, Almaniya bu üç ayın müddətində nəinki yalnız fəlcdən [iflicdən] səhhətyab olmuşdur [sağalmışdır], eyni zamanda Almaniyada baş qalxızan bolşevizmi məğlub eyləmişdir və yeni ciddi müharibə üçün Almaniyanın ruhunu hazırlamışdır. Bu müharibə üçün ən birinci silah Amerikada və amerikalılar tərəfində istila edilən yerlərdə almanların təbliğatıdır.

Almanlar bu cür təbliğatda bulunurlar:

*"Biz nemeslər öz evimizdə asudəlik bərpa etmişik. Biz imperatoru və kronprinsi iş başından düşürdük. Ən xalis demokrat olduq. Bütün köhnə günahlar iş başından düşürdüklərimizin öhdəsinədir. Şimdi biz təmiz əl və milli ruhla tələb ediriz ki, bizi də millətlər ailəsi heyatinə bir hüquqda qəbul edəsiniz. O millətlər heyatinə ki, Vilsonun 14 maddəli əhdnaməsini qəbul edirlər.*

*Burası təbiidir ki, Fransa, İngiltərə və onların müttəfiqləri ədalətli sülh axtarmayırlar. Yalnız biz Vilsonun dediklərini düşünürüz. Çünki, onu ancaq həqiqi demokratlar düşünə bilərlər."*

Almanlar bu sözlərlə ümid deyil, yəqin edirlər ki, nəinki müharibənin cəzasından azad olarlar, həttə müharibədə qazanarlar.

Hərgah, almanlar Elzas-Loreni qeyb etsələr belə, yeni beş milyon əhalisi ilə bir vüsətli [geniş] yer əllərinə keçirəcəklərdir.

Simyons deyir ki: Bundan əlavə, almanlar Rusiya sahillərinə də sahib olacaqdırlar. Müttəfiqlər Rusiya işlərindən vaz keçdilər. Onlar Böyükadada şura şüarını meydana qoydular. Bu da o deməkdir ki, Müttəfiqlər Şura Hökumətini qəbulla bir çox yerləri almanlara açıq buraxdılar. Almaniya Rusiyanın irticakar üzvlərini başına cəm edib, sülh zamanı Rusiyanın bütün ticarətini əlinə alacaqdır. O Rusiya üzvləri ki, Müttəfiqlərə müraciət edib, bolşeviklərdən xilas edilmələrini onlardan gözləyirdilər. Onlar üçün şimdi Almaniyanın ağuşuna atıl-maqdan başqa heç bir çarə yoxdur.

Simyonsun bu bəyanatı zinhar [qətiyyən] mübaliğə deyil, əsl həqiqətdir. Hərgah, almanların fövqdə zikr edilən [yuxarıda deyilən] təbliğatı müvəffəqiyyətli olarsa, o zaman biz müharibəni uduzub, birinci müzəffər Almaniya olacaqdır və Almaniya bütün Rusiyanı özünə mükafat alaraq Şərq siyasətində də bəxtiyar olacaqdır.

Almaniya Paris Konfransına öylə töhfə hazırlayır ki, necə ki, Napoleon Vyana Konfransına hazırlamışdı.

**Almaniya ordusu**

Berlinə gəlmiş olan fransız müxbiri yazır:

Almaniyada hal-hazırda qayət ciddi surətdə yeni güclü ordu təşkil edilir. Berlində külli tanklar, zirehli avtomobillər, bomba atan makinalar vardır. Onlar Berlində asudəliyi saxlamaq üçündürlər. Ordunun cavan üzvləri hələ də silah altındadırlar. Sülh vaxtında olan bütün hərbi müəssisələr müstəqilən öz işlərini görürlər. Digər tərəfdən dövləti hər növ afətdən xilas və gələcəkdə Polşa ilə müharibə təqdirində müqabildə durmaq üçün külli könüllü dəstələri təşkil edilir. Almaniya qəzetələrində hər gün müxtəlif elanlar nəşr edilərək afserlər, əsgərlər könüllü orduya dəvət edilirlər. Forqun könüllü dəstələri, Qvardiya korpusu, Hindenburq alayları və sairə təşkil edilir. Əsgərlikdən azad edilən şəxslər böyük maaşla külli surətdə bu dəstələrə yazılırlar. Böyləliklə, nemeslər öylə bir qüvvəli müqtədir ordu təşkil edirlər ki, həqiqətən gələcəkdə almanların inadını müdafiə edə biləcəkdirlər.

**Krımda**

Üç gün bundan əvvəl Krımdan Batuma gələnlərin rəvayətinə görə Sevastopol, Feodosiya və Kerçdə əhval ümumən yaxşıdır. Krım hökuməti Sevastopoldadır. Müttəfiqlər və rus məmurları bu iskələlərin [limanların] əllərində qalmasına var qüvvələri ilə çalışırlar. Əhali arasında olan həyəcanı da inkar etmək olmaz.

Sevastopoldan Novorossiyskə əzimət edən [yola düşən] "Rion" paroxodunda cəhənnəm makinası partlayıb 70 nəfər sərnişini öldürüb və yaralamışdır.

**Qaqranın işğalına dair**

Batumdan Qaqraya iki paroxod rəngli qoşunlar göndərilmişdir. Bu münasibətlə şayiat [şayiələr] dövran edir ki, ingilislər Könüllü və gürcü müharibəsinə qatışmaq fikrindədirlər.

Novorossiyskdə ciddi surətdə səfərbərlik elan edilir. Buraya gələnlərin həpsini silahlandırıb cəbhəyə göndərirlər. Bugünlərdə cavanlar da səfərbərliyə alınacaqlardır.

## DAĞISTAN ƏHVALI

**Təkzib**

*(Rəsmi)*

Azərbaycan Hökuməti nəzdində olan Dağıstan siyasi nümayəndəsi Əlixan Kantemir Dağıstan Hökuməti rəisi Kotsevdən aşağıdakı məzmunda rəsmi bir məktub almışdır:

"Yedinaya Rossiya" qəzetəsində "Dərbənd" ünvanlı yazılan məqalə münasibətilə icra edilən təhqiqatdan sonra aşkar olmuşdur ki, həman məqalədə hökumətsizlik, mədənlərin dağıdılması, iş görülmək mümkün olmaması, qarətgərlik və qeyri bu kimi hadisələr haqqında yazılmış əhvalat Dağıstan Hökuməti zamanında deyil, bəlkə bolşeviklərin və biçeraxovların həman rayonda olduqları vaxt baş vermişdir. Qarətgərlik ancaq o zaman olmuşdur. İndi isə mühafizə vardır ki, iş görməyə də imkan verir. Dərbənd rayonunda xırda oğurluqlar və cinayətlər olursa da, onların əleyhinə tədbirlər görülmüşdür. Dağıs-tanda quldurluq və oğurluq özgə yerlərə nisbət azdır.

*Baş nazir: Kotsev*

**Çeçenistan və Denikin**

Aprelin 13-də Şali kəndində çeçen əhalisinin fövqəladə ictiması [yığıncağı] vaqe olub, Qroznıda olan konfransda Denikin ilə münasibat qət edilməsi [münasibətlərin kəsilməsi] münasibətilə əhvali-hazirə haqqında müzakirədən sonra böylə bir qətnamə çıxarılmışdır:

1) Dağıstan Cümhuriyyətinin hürriyyət və istiqlaliyyətini axırıncı qətrə qana qədər mühafizə etmək.

2) Silah daşımağa müqtədir kişilərin hamısını əsgərliyə dəvət etmək.

3) Hər külfətdən ancaq bir adam külfəti saxlamaq üçün azad edilir. Hər bir kənd camaatı öz əsgərlərini ərzaqdan təmin etməlidir.

4) Dağıstan hökumətinin hər bir əmrinə, binagüzarlığına [sərəncamına] bila-təəmmül [müzakirə etmədən] əməl etməlidir.

5) Qroznıya və düşmən tərəfindən işğal edilən yerlərə ərzaq aparılması qadağan olunur.

6) Bu qətnaməni xələldar edənlər [pozanlar] Dağıstan millətlərinin düşməni ədd [hesab] edilib və xainlər kimi qanundan xaric elan edilirlər.

**Kabardada və Osetiyada**

Lyaxov tərəfindən əsgərliyə alınmış kabardinlər və osetinlərin hamısı qaçmışlardır. Kabardada və Osetiyada vaqe olan ictimalarda [yığıncaqlarda] ancaq Dağıstan Hökumətinə tabe olunması tələb edilir.

**Tersk kazakları və Denikin**

Tersk kazakları qan tökülməsinin ağır nəticələrini nəzərə alıb, dağıstanlılar əleyhinə müharibə etməkdən imtina ilə böyük dəstələrlə cəbhədən qaçırlar.

**Dağıstan Parlamanı və Denikin**

Dağıstan Parlamanının aprelin 7-də vaqe olan iclasında Denikin məsələsi haqqında böylə bir qətnamə qəbul edilmişdir:

Könüllü ordu ilə saziş hüsula gətirmək qəsdi ilə müzakiratda bulunmaqdan ötrü aşağıdakı əsaslar üzərinə heyət göndərilsin:

1) Bilatəxir [dərhal] Dağıstan Cümhuriyyəti Könüllü ordu dəstələrindən təmizlənib dağıstanlılarla məskun işğal edilən yerlər Dağıstan Hökumətinə qaytarılsın.

2) Dağıstan Cümhuriyyəti daxilində Könüllü ordu tərəfindən bərpa edilən əsgəri və mülki administriyasiya yığışdırılsın.

3) Könüllü ordu tərəfindən əsgərliyə alınan Dağıstan əsgəri dəstələri evlərinə buraxılsın.

4) Rusiya işlərinə qarışmaq qəsdi ilə Könüllü ordu ilə bərabər hər cür çıxışlardan imtina etməli.

5) Lyaxov tərəfindən təşkil edilən Dağıstan millətləri ictimasında Dağıstan Hökumətinin razılığı və xəbəri olmadan iştirak etməmək və bu cür ictimalar tərtibi əleyhinə protesto etmək.

**Dağıstanlılar və Kuban Radası**

Kuban Hökuməti sədri Dağıstan hökumətinə bir teleqraf göndərib Cənubi hökumət təşkilatlarının konfederasiya məsələsini müzakirə etməkdən ötrü mayın 18-də Yekaterinodarda vaqe olacaq konfransa üç nəfər nümayəndə göndərilməsini xəbər vermişdir. Verilən xəbərlərə görə, Dağıstan hökuməti bu dəvətin cavabını Qafqaziya cümhuriyyətlərinin ümumi arzusu ilə əlaqədar tutur.

**Dağıstanlılarla Könüllü ordu müharibəsi**

Qroznı Konfransında münasibat qət edilməsinə görə dağıstanlılarla Könüllü ordu arasında aprelin 16-da müharibə hərəkatı təzələnmişdir. Düşmən bütün cəbhədə geri əyləşdirilmişdir.

**Zaqafqaziya Konfransında Dağıstan heyəti**

Tiflisdə Zaqafqaziya Cümhuriyyətləri Konfransında iştirak etməkdən ötrü Dağıstan Hökuməti tərəfindən Penzulayev, Butayev və Kantemir vəkil edilmişlərdir. Dəmiryol hərəkatı başlanan kimi bu nümayəndələr yola düşəcəklər.

**Dağıstan dəmiryolunda tətil**

Neçə gündür ki, Dağıstan dəmiryolunda tətil başlanmışdır.

Dağıstan siyasi nümayəndəsi Əlixan Kantemir hökumət rəisi Kotsevdən aprelin 24-də böylə bir kağız almışdır:

Dəmiryol qulluqçularının noyabrın 1-dən öz məvaciblərinin Azərbaycan dəmiryol qulluqçuları məvacibi qədər artırılması haqqında təqdim etdikləri tələbnaməyə hökumət müsbət cavab vermişdir.

1918-ci il yanvarın 1-dən noyabra qədər Moskva dekreti üzrə para verilməsi tələbi rədd edilmişdir. Qalan maddələr isə qəbul edilmişdir. Bu şərait bu gün dəmiryol qulluqçularının ümumi ictimasında [yığıncağında] müzakirə edilir.

Dağıstan dəmiryol tətilini bərtərəf etməkdən [aradan qaldırmaqdan] ötrü Bakı Kəsbkarlar [Həmkarlar] İttifaqı Şurası tərəfindən Dərbəndə və Teymurxanşuraya üç nəfər nümayəndə azim olur [yola düşür]. Dağıstan Hökuməti ilə dəmiryol fəhlələri arasında olacaq saziş əsasları aşkar edilmişdir, məzkur [deyilən] nümayəndələr varid olduqdan [çatdıqdan] sonra elan ediləcəkdir. Yəqin olar ki, dəmiryol tətili sabah bərtərəf edilsin.

## CÜMƏ GÜNKÜ MÜHÜM XƏBƏRLƏR

Srağagün seyri-səfain [gəmiçilik] cəmiyyətlərindən bəzilərinə xəbər verilmişdir ki, Hacı-Tərxan kazaklar tərəfindən işğal edilmişdir. Rəvayətə görə, Hacı-Tərxanı Kalmık səhrası tərəfindən hücum edən Krım Gireyin dəstəsi ilə Ural kazakları almışlardır. Bir şayiə var ki, bolşeviklər şəhəri davasız təslim etmiş, fəqət çıxarkən yandırmışlardır. Şəhər hələ də yanmaqdadır.

**Yalandır**

İngiltərə komandanlığından aldığımız mövsuq [etibarlı] xəbərlərə görə, Hacı-Tərxan heç kəs tərəfindən işğal edilməmişdir. Bir neçə gün bundan əqdəm [qabaq] yapılmış hava kəşfiyyatı göstərmişdir ki, Hacı-Tərxanda bolşeviklərdir. Reyddə isə bolşevik gəmiləri durmuşdur.

**Müdafiə ittifaqı**

Amerikanın Fransa və İngiltərə ilə müdafiə ittifaqı bağladığı haqqındakı şayiələr təyid [təsdiq] olunurlar. Fransa, İngiltərə və Amerika heyətləri əzasından heç birisi bu xüsusda bir söz belə söyləməyirlər. Fransa mətbuatı birdən-birə gözlənmədiyi halda dilini dəyişərək Amerikanın ümum [bütün] layihələrini təsvib edir [bəyənir].

Səlahiyyətdar vəkillərdən birisi deyir ki, bu ittifaq fransızların Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] layihəsini qəbul etmələri bahasına əmələ gəlmişdir. Fəqət həman vəkil bu işdə böyük bir zəiflik təzahür etdiyini göstərir. Çünki, Cəmiyyəti-Əqvam güclü olsa, müdafiə ittifaqına lüzum qalmaz. İttifaq lazım isə, Cəmiyyəti-Əqvamın qiyməti qalmaz; xüsusi müttəfiqi bulunmayan bir çox millətlər üçündür.

**Qafqaziya haqqında Çörçilin bəyanatı**

İngiltərə Hərbiyyə naziri Çörçil Avam Kamerasında mükəlləfiyyəti-əsgəriyyə [hərbi mükəlləfiyyət] qanunundan bəhs edərkən demişdir ki:

*"İşğal ordusunun məsarif smetası 133 milyona yetişir. Almaniyadan alınacaq olan 80 milyon çıxıldıqdan sonra bu il işğal ordusunun məxaricində 2-3 qat ziyadə bir məbləğ alınacağı gözlənir. Ağ dənizdən [Aralıq dənizindən] Bəhri-Xəzərədək bütün məsafə alov içindədir. Xırda dövlətlər böyük təhlükə altındadırlar və əgər kəndi qoşunumuzu geri çağırsaq, Avropada cərəyani-həvadisə icrayi-təsirdən [hadisələrin gedişinə təsir etməkdən] aciz qalarız. İngiltərə qoşunları təqribən böylə təqsim ediləcəklərdir [paylaşdırılacaq]: İngiltərədə 170 min, Fransada 120 min, Reyndə 264 min, İtaliya və onunla həmhüdud yerlərdə 10 min. İtaliya ilə civarına bizim qoşunumuz hər iki tərəfin ricası ilə İtaliya ilə Cənubi Sloveniya arasındakı ixtilafı yatırmaq və qalxa biləcək binizamlıqların önünü almaq üçün göndərilmişlərdir. Heç bir yerdə əsgərlərimiz Qafqaziyadakı qədər insaniyyətpərvəranə məqsədlərə xidmət etməyir. Hal-hazırda Qafqaziyada 75 min əsgərimiz var. Fəqət, ümidvar olmalıdır ki, tədricən bunların miqdarını əskiltmək mümkün olacaqdır. Hələlik bizim qoşunlarımız orada Sülh Konfransının qəti qərarınadək nizam və asayişi mühafizə üçün saxlanır. Beynənnəhreyndə [Mesopotamiyada] 30 min və Şimali Rusiya ilə Sibiryada 20 min əsgərimiz var. 859 min nəfərdən ibarət işğal ordumuzun 208 mini qeyri-hərbidir."*

Çörçil qeyd edir ki:

*"İngiltərə əsgər və generalları haqqında hər nə desələr də, onlar hər bir məmləkətdə qanun və hüquq müdafeləri [müdafiəçiləri] olmaq üzrə məmuldurlar [arzuedilələndirlər]. Filhəqiqə [doğrudan da], kontrolu altında Misir nəşvü-nüma [tərəqqi] edən Britaniya ordusu heç vaxt əsgəri [hərbi] olmayıb, həmişə idareyi-mülkiyyə [mülki idarə] olmuşdur. Doğrudur, müharibə vaxtı fövqəladə tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür]. Fəqət məmləkət həmişə idareyi-mülkiyyə tərəfindən idarə olunmuşdur."*

**Vüsuqüddövlə haqqında**

Srağagün İrandan Bakıya gələn bir çox mötəbər şəxslərin dediyinə görə, bu günlərdə Tehranda İran Rəisi-vükəlası [Baş naziri] və İran mürtəcelərindən Vüsuqüddövlə qətl edilmişdir. Vüsuqüddövlə ilə bərabər birinci müavinlərindən olan sabiq Məclisi-Məbusan əzası [üzvü] məşhur sərdar Mənsur dəxi qətl edilmişdir. Qatillər fərar eyləmişlərdir. Qəti surətdə bu xəbərin dərəceyi-səhhəti [doğruluq dərəcəsi] və təfsilat məlum deyildir.

Delbruk – Sevastopolda Müttəfiq qoşunları arasında həyəcan davam edir. Fransız generalı Amet ingilis paroxoduna köçmüşdür. Yunan qoşunları içində qarğaşalıq vardır. Hindistan qoşunları ha-kəza [həmçinin] intizamı pozaraq əhaliyə təcavüz və qarət edirlər. İnqilab komitəsi təşkil edilmişdir. Sevastopol qalaları çıxışa hazırlanırlar. Şəhəri mühasirə edən Qırmızı qoşunlar mütarikənin intəhasını [atəşkəsin bitməsini] gözləyirlər.

**Müsəlman əmələlərinin tələbi**

N – Əski ordunun ştabı İdilboyu kənarlarının altında olması müsəlman əhalinin inqilab hərəkatına səbəbiyyət vermişdir. Alakozov zavodunun müsəlman əmələləri rus və beynəlmiləl əks-inqilabçılarla müharibə etməyə hazırdırlar, əsgərlikdən qaçanlarla amansız mübarizəni tələb edir. Müsəlmanlar Müttəfiqlərin cahangiranə [imperialist] siyasətlərinə qarşı mübarizə və Kazan və İdilboyunu Kolçak təcavüzündən xilas etmək üçün Qırmızı qoşun təşkilinə dəvət edirlər. Türkiyədə inqilab başlanması xəbəri bir qədər də onları ruhlandırmışdır. Müsəlmanlar Qırmızı alaylara yazılırlar.

Paris – Saar hövzəsindən yeni bir dövlət təşkil edilir. Bu dövlət Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] himayəsi altında olacaqdır. Kömür istehsalatı fransızlara yetişəcəyi kimi, ümuri-idarə [idarəçilik işləri] də fransızların əlində olacaqdır. Almaniya Reyn qoşunlarının maaşı üçün 586 milyon mark pul vermişdir. Fəqət təvəqqe eyləmişdir ki, bu məbləğ bir qədər əskilsin.

## AZƏRBAYCAN HAQQINDA TARİXİ, ƏDƏBİ VƏ SİYASİ MƏLUMAT

*(keçən nömrələrdən mabə'd*)*

Bədxahlarımızın, düşmənlərimizin xətalı hərəkətləri nəinki biz Azərbaycan türklərinə məşəqqət vermiş, bəlkə imdadımıza çağırılmış Türk Ordusunun da irəli yeriş etməyinə çox əngəl çıxarmışdır.

Türklər Kürdəmir stasyonundan başlayıb Bakıya doğru qədəm-qədəm ölkəmizi xilas edirdilər. Yayın hərarətli günləri altında Muğanın ilan mələyən susuz səhralarında canını fəda edən qəhrəman Türk Ordusu hər bir cəfaya davam edib axırda sentyabr ayının 15-ci günündə sübh zamanı Azərbaycanın paytaxtı olan Bakını hərb ilə zəbt etdilər və arxaları ilə Azərbaycan Hökuməti Gəncədən böyük şadlıqla Bakıya azim oldular [yola düşdülər].

Türklərin Azərbaycana gəlib iğtişaşın yatırılmasına etdikləri fədakarlığa və yaratdıqları nizam və qaydaya və istiqlaliyyətə bir tək türk azərbaycanlıları şad olmadılar, bəlkə, qeyri millətlər də məmnun qaldılar.

İnsaf üzrə türklərin heç bir vaxtda gərək bu yaxşılıqlarını yaddan çıxartmasınlar. Amma çifayda insan övladı nəməkbəharamdır [nankordur]. Quyruğu qapı arasından qurtarandan sonra nə qapını tanıyır, nə də qurtaranı. Türk Ordusu iğtişaşı yatırmaqla Azərbaycandakı yövmiyyə [gündəlik] adam öldürmək və quldurluğu bilmərrə kökündən qət etdi [kəsdi] və eyni zamanda Azərbaycanın istiqlaliyyətini möhkəmləşdirdi. Asayiş və asudəlik bərpa olunduqda dərhal bütün ictimai və hökuməti idarələr, dəmiryollar, postalar, məhkəmələr və sairələri işləməyə başladılar. Əsl nizam hökumətin paytaxtımızda iqamət etdiyindən [yerləşdikdən] sonra quruldu. Bu vaxtdan sonra hökumət məmuriyyətləri qaydaya salındı. Mahal və əyalət məhkəmələrinə lazımi əhəmiyyət verildi. Məmləkət qanun və ədalət üzrə idarələnməyə başladı. Məmləkətin bütün hər nöqtəsində həyat və hərəkət oldu. Məgər bir Qarabağdakı Andranikin təhtikomandasında [komandanlığı altında] erməni dəstələri tərəfindən mühasirəyə alınıb böyük xəsarət verməklə müsəlmanların kəndlərdə xırda və körpə uşaqlarına kimi qılıncdan keçirdilər.

Bu quldur dəstəsi türklər ilə ingilislər arasında əqd edilən əhdnaməyə [bağlanan sazişə] görə türklərin buradan getmələrindən sonra artıq şiddət edib, məzlum və biçarə müsəlmanların qanlarının tökülməsinə səbəb olmuşdur. Fəqət hökumət səbir ilə türklərdən sonra buraya gələn Müttəfiq dövlətlərin erməni quldur dəstələrinin bu həyasızlığı barəsində edəcəkləri tədbiri gözləyirdi. Vaxt keçirdi, fəqət bu həyasızlıq ortadan götürülməyib davam edirdi. Bu cəhətdən Şurayi-Vüzəra [Nazirlər Kabineti] yanvar ayının 15-də 1919-cu sənədə öz iclasında Qarabağ mahalı üçün bir general-qubernatorluq mənsəbi müqərrər etdi [qərarlaşdırdı] və Xosrov bəy Sultanov general-qubernator təyin olundu.

Türklərin nə qədər başları Bakının alınması ilə məşğul idi, Andranik, vaxtında fürsət tapıb Qarabağda müsəlmanlara rəva gördüyü zülmü icra etdi. Mühasirəyə alınmış Qarabağ müsəlmanlarının əhvalı o qədər fənalaşmışdı ki, həttə o binəvalara şirin su içməyi haram etmişdi. Bu səbəbdən müsəlmanlar azuqəsizliklə bərabər şor su içib yay fəsli zindəganlıq edirmişlər [yaşayırmış]. Türklər Bakını aldıqdan sonra bütün diqqətlərini Qarabağa sərf edib oranı mühasirədən xilas etdilər. Türklər Qarabağ və Zəngəzur mahallarını daha tez xilas edərdilər, fəqət Müttəfiq ordunun buraya gəlməsi türklərə Qarabağ mahalını büsbütün xilas etməyə qoymadı.

General Tomsonun komandası altında paytaxtımıza varid olmuş [gəlmiş] Müttəfiq ordu namından Andranikə Qarabağa bu məzmunda bir teleqraf göndərildi:

*"Verilən məlumata görə, ermənilər Qarabağda müsəlmanlara qarşı bəd hərəkətlər və zülümlər icra edirlər. Mən Müttəfiq ordunun nümayəndəsi sifəti ilə məlum edirəm ki, ermənilərə söyləyəsiniz öz yerlərində rahat oturub binizamlıqlar eyləməsinlər. Əgər mənim bu hökmümə əməl etməyib də genə binizamlıqlar görülsə, o zaman bütün məsuliyyət şəxsən sizin öhdənizə düşəcəkdir. Xahiş edirəm, bu teleqram sizə vüsul olduqda cavabını məlum edəsiniz.*

*General Tomson"*

Müttəfiq ordunun nümayəndələri türklərə Azərbaycandan getməyi elan etdilər və Azərbaycanda asayiş və əmin-amanlığı öz öhdələrinə götürdülər. Türk ordusunun çəkilməyindən sonra qərbdə yaşayan müsəlmanların əhvalları fənalaşmağa üz qoydu. Axırıncı Batum əhdnaməsinə görə vaxtilə Türkiyədən zorla dartılıb alınmış olan Batum, Qars və Ərdahan nahiyələri genə türklərə qaytarılmışdı. Fəqət Müttəfiqlərlə bağlanan sülh əhdnaməsinə görə türklər bittamam [bütövlükdə] Qafqaziyanı tərk etməyə məcbur və 1914-cü sənədəki sərhədlərində bərqərar oldular. Türklər tərəfindən boşlanan həmin bu müsəlman yerlərinə dərhal bir tərəfdən gürcülərin, digər tərəfdən ermənilərin iştahası artıqlaşdı. Qoy gürcülər və ermənilər bilsinlər ki, o yerlər sahibsiz deyildir ki, onlar oranı rahat zəbt edə bilsinlər. O yerlərin birinci sahibi və təyini-müqəddərat hüququ üzrə həman o yerlərin yerli xalqı türkləridir.

Türklər Azərbaycandakı iğtişaşın yatırılması ilə tarixdə mühüm bir səhifə tutdular. Türk Ordusu paytaxtımıza daxil olanda bir para kürdlərlə başıpozuqlar yerli əhalinin pis adamları ilə mart ayının qisasını almağı fikirlərində qoyub, başladılar ermənilərdən öldürməyə və qarət eyləməyə. Həman saat o nəcib Nuri paşa həzrətlərinin hökmünə görə bu fitnənin qabağını almaqdan ötrü yüz nəfərdən ziyadə öz müsəlmanlarının asılmasına hökm verdilər və icra etdilər. Türk komandası iğtişaş salanların gözlərini qorxuzmaq üçün hər bir asılmış şəxsin üstünə eylədiyi əməli kağıza yazıb yapışdırdılar. Və bu növ ilə türklər az bir zamanda bütün cinayətlərin, oğurluqların qabağına möhkəm bir sədd çəkdilər və xalqa, asayiş sevənlərə azad nəfəs çəkmək mümkün oldu. Mart və sentyabr hadisələri Bakının ticarət və sair əhvalına öylə bir ağır zərbə vurmuşdur ki, düzəlməyinə daha bir çox vaxt istər. Bakı alındıqdan sonra Azərbaycan Məclisi-Müəssisanı dəvəti üçün hazırlıqlar görəcək komisyonun işə başlaması mümkün olurdu.

Dörd aydan tez çağır[ıl]a bilməyən Məclisi-Müəssisan əvəzində məmləkəti məclissiz qoymamaqdan ötrü noyabr ayının 16-da 1918-ci sənədə köhnə Milli Şura, sabiq siyahıları üzrə çağırılıb bütün əzasını [üzvlərini] 130 nəfərə qədər artırmaq ixtiyarı verildi. Doğrudan noyabrın 16-da açılmış həmin bu məclis böyük qorxu altında olub birinci dəfədir ki, böylə bir məclisin dəvəti mümkün görülmüşdü. Məclisin müvəqqəti sədri Məhəmməd Əmin Rəsulzadə siyasi, ictimai əhvalımız xüsusunda əvvəlcə nitq söylədi, sonra Heyəti-Vükəla rəisi [Baş nazir] Xan Xoyski cənabları keçirdiyimiz əhvali-siyasiyyə xüsusunda lazımi bəyanat verdi.

Noyabr ayının əvvəllərində 1918-ci sənədə Şurayi-Milli açılmadan qabaq Azərbaycan hökuməti Amerika Cümhuriyyəsinin rəisi Vilson cənablarına bu məzmunda bir teleqraf göndərdi:

*"Cahan müharibəsinin yanğınlı və heybətli tufanı ki, onun gətirdiyi fəlakət və xəsarət artıq bəşəriyyəti cana gətirmiş, tökülən qanların sel kimi axdığı zamanda siz özünüzə insaniyyət və bəşəriyyət naminə hərəkət verib sülh və müsalimət [asayiş] baydağını əldə tutub bütün mövcud qüvvənizlə qan tökənlərə, fəlakət edənlərə artıq sülh və müsalimət zamanının və bilümum [ümumiyyətlə] bütün mübahisəli məsələlərin ancaq sülhlə həll olunacağı[nı] uca avaz ilə qulaqlarına yetişdirdiniz. Sizin göstərdiyiniz mərhəmətdən cəhənnəmnümun [cəhənnəm kimi] atəş yağdıran makinaların və topların gurultusu kəsildi. İnsanların məhvinə icad edilən silahları əridib rəncbər kotanları yenidən qayrılmasına vaxt yetişmişdir. Tarixi dəqiqələrdə ki insaniyyət namına qalxıb insanı onun məhvinə hazırlanılan bəlalardan müdafiə və mühafizə etmək üçün, həm də xırda və balaca millətlərin hüququnu gözləyib onları cahangirlərin istibdad pəncəsindən xilas etmək niyyəti ilə meydana çıxdınız və cümlə cahana mürüvvət və rafət [lütf, mehribanlıq] nə olduğunu eşitdirdiyiniz anda Qafqaziyada mövcud üç milyona qədər Azərbaycan türk xalqı ki, Cahan müharibəsinin hər bir fəlakətindən çıxmış, eyni zamanda Müttəfiq ordu ilə bərabər Karpat dağlarına qədər rəşidanə qanlarını tökmüşlər, indi istiqlaliyyət arzusu ilə müstəqil bir dövlət təşkil etmişlərdir. Bizim cavan Azərbaycan Cümhuriyyəmizin binası əhalisinin bilafərqi-[millət] və məzhəb rizası ilə [millət və məzhəb fərqi olmadan bütün əhalisinin razılığı ilə] ədalət və müsavat üzrə mayısın 28-ndə 1918 sənədə qoyulmuşdur.*

*İbtidası [əvvəli] 146, 148, 152, 162 və 164-ncü nömrələrdə.





# Mədəniyyət





● Sənətkarlarımız

**O, sözün əsl mənasında anadan rəssam doğulmuşdu. Rəssam olmaq gerçəkdən həyatın maddi və mənəvi, görünən və görünməyən, dərk edilə bilən və bilinməyən cəhətlərinə malik ola bilmək deməkdir ki, bu xüsusiyyətlər də onda ilahinin qüdrətindən cəmlənmişdi.**






## Zamanı qabaqlayan rəssam

O, təsviri sənətin bir çox sahəsində - teatr dekorasiyası, dəzgah rəssamlığı, dekorativ tətbiqi sənət - dizayn və hətta memarlıq sahələrində maraqlı, diqqəti cəlb edən, güclü rəssamlıq təxəyyülünə malik, seyrçidə ovqat yaradan, düşündürən, bədii estetik zövq verən, təsir edən və həyata baxışlarında yardım edə bilən bədii əsərlər yaratmışdı və çox qısa - cəmi 30 yaş ömür yaşayıb, bu fani dünyadan köçmüşdü. O, Azərbaycan teatr rəssamlığı sənətinin banisi Rüstəm Məmməd oğlu Mustafayevdir (25.02.1910-19.07.1940).

R.Mustafayev Bakıda anadan olmuşdu. Azərbaycan Dövlət Ali Rəssamlıq Məktəbini bitirmişdi. Bakı Azad Tənqid-Təbliğ Teatrında (1925-1933), Türk İşçi Teatrında (1925-1927), Azərbaycan Dövlət Opera və Balet Teatrında (1931-1940), Azərbaycan Dövlət Dram Teatrında (1933-1938) səhnəyə qoyulmuş bir çox dram əsərinin bədii tərtibatını hazırlamışdı və teatrın baş rəssamı vəzifəsində işləmişdi. R.Mustafayev teatr rəssamlığı sənətimizin yaradıcılarından olub. Əgər rəssamın bədii təxəyyülü və peşəkarlığı yüksək səviyyədədirsə, incəsənətdə onun üçün birinci və ya ikinci dərəcəli sahə anlayışı olmur. Bu baxımdan rəssamın səhnə əsərlərinə vermiş olduğu bədii tərtibatlara az qala müasir və müstəqil rəssamlıq nümunəsi kimi baxılır və diqqəti hər zaman cəlb edir. R.Mustafayev səhnə tərtibatı sərhədlərə sığmayan rəssam olmuşdur. Sadəcə dövrün tələbi və zamanın ağır sınaqları qarşısında o öz yaradıcılıq potensialını belə sərhədləmişdi. R.Mustafayevin səhnə tərtibatı verdiyi tamaşalardan "Mıtı Kərim" (J.B.Molyerin "Xəsis" pyesinin təbdili, 1925), "Üsyan" (D.Furmanın "Qiyam" romanı əsasında, 1927), "Tufan" (V.Bill-Beloserkovski, 1928), "Hacı Qara" (M.F.Axundov, 1929), "Dəmirçi Gavə" (Ş.Sami, 1929), "Sevil" (C.Cabbarlı, 1930), Azərbaycan Dövlət Dram Teatrında "Ölülər" (C.Məmmədquluzadə, 1932), "Od gəlini" (C.Cabbarlı, 1933), "Şeyx Sənan" (H.Cavid, 1933), "1905-ci ildə" (C.Cabbarlı, 1932, 1935), "Dağılan tifaq" (Ə.Haqverdiyev, 1935), "Şahnamə" (M.Canan, 1936 ), Azərbaycan Dövlət Opera və Balet Teatrında "Şah İsmayıl" (M.Maqomayev, 1931), "Leyli və Məcnun" (Ü.Hacıbəyli, 1931), "Aşıq Qərib" (Z.Hacıbəyov, 1939), "Koroğlu" (Ü.Hacıbəyli, 1937, 1938), "Arşın mal alan" (Ü.Hacıbəyli, 1940) və başqalarını qeyd etmək olar. Rəssam adlarını sadaladığımız dram əsərlərinin səhnə tərtibatında yaradıcı səy göstərərək tamaşanın bədii-estetik əhəmiyyətə malik alınmasında yaddaqalan vizual dekorativ eskizlər hazırlamışdı. Onun ən uğurlu səhnə tərtibatı verdiyi tamaşalardan olan "Koroğlu" operası Moskvada təşkil olunan incəsənət dekadasında oynanılmış, bütün sənətsevərlərin rəğbətini qazanmışdı. Bu işinə görə rəssam Kreml sarayında "Şərəf nişanı" (1936) ordeni ilə təltif olunmuşdu. "Ədəbiyyat" qəzetində (08.02.1936) "Layiqli əsərlərlə cavab verəcəyik" adlı yazıda "Biz talantlı yoldaşımız R.Mustafayevlə iftixar edirik" deyə qeyd olunurdu.

R.Mustafyevin dəzgah rəngkarlığı əsərlərinə "Naturaçının portreti" (1926), "Hambalın başı" (1927), "Firdovsinin portreti" (1934) və başqalarını qeyd etmək olar. R.Mustafayev həmçinin plakat, dizayn işləri (afişa və dəvətnamələrin bədii tərtibatı) ilə də məşğul olmuş, Moskvada Azərbaycan pavilyonunun (1939) və Nizami adına Ədəbiyyat Muzeyinin (1940) bədii tərtibatının həmmüəlliflərindən olmuşdu. Rəssam kitab qrafikası sahəsində "Ulduzlar" (S.Rüstəm, 1934), "Çinar" (R.Rza, 1939), Xalq rəssamı Lətif Kərimovla birlikdə "Aşığın səsi" (1939) və "Böyük Azərbaycan şairi Nizami" (Bertels, 1940, Azərbaycan və rus diilərində nəşr olunub) adlı kitabların bədii tərtibatını yüksək zövqlə yaratmışdı.

R.Mustafayev eyni zamanda Azərbaycan abidələrini mühafizə edən Mərkəzi Dövlət İdarəsinin direktoru işləmişdi (1937-1940). Rəssam Azərbaycanın tarixi memarlıq abidələrinin bədii, elmi xüsusiyyətlərini tədqiq etmiş, öyrənmiş, onların rəsmlərini çəkmiş və elmi bərpa işlərini həyata keçirmişdi. Nizami dövrü abidələri və Şəki Xan Sarayının elmi bərpası işlərində rəssamın xüsusi xidmətləri olmuşdu. R.Mustafayev 1935-ci ildə III İran İncəsənəti Konqresinə dəvət olunmuşdu.

Görkəmli sənətkar geniş yaradıcılıq diapazonuna malik rəssam olub. Onun rəssamlıq fantaziyası və bədii yaradıcılıq təxəyyülü zamana, dövrə sığmırdı. O, zamanını qabaqlamış istedadlı sənət fədaisi idi. Rəssamın rəhbərliyi ilə Firdovsi, Şota Rustaveli, A.S.Puşkinin yubileylərinə həsr olunmuş yubiley sərgiləri təşkil olunmuşdu. O, yüksək həvəslə və güclü yaradıcılıq şövqü ilə Nizami adına Ədəbiyyat Muzeyinin yaradılmasına və fəaliyyət göstərməsinə can atırdı. Nə yazıq ki, əcəl buna imkan verməmişdi. 30 illik ömürdə zirvələr fəth etmiş rəssam yaşasaydı, incəsənət dünyamızın zənginləşməsində nə işlər görər, hansı töhfələr verə bilərdi, kim bilir...

Xalq rəssamı Qəzənfər Xalıqov rəssam dostu R.Mustafayev haqqında "Qobustan" jurnalında dərc olunmuş "Əvəzsiz rəssam, əvəzsiz dost" adlı məqaləsində yazırdı: "O, qayğıkeş insan, xeyirli məsləhətçi, şən, zarafatcıl bir yoldaş kimi bizim hamımızın hörmətini qazanmışdı. Necə deyərlər, "canlara dəyən" oğlan idi. Mən deyərəm ki, onun ölümü nəinki dostları üçün, eyni zamanda bütün Azərbaycan xalqı, onun incəsənəti üçün əvəzsiz itki idi. Tam yaradıcılıq dövrünü yaşamadan aramızdan gedən Rüstəm ən savadlı ziyalılarımızdan biri idi. Onun necə istedadlı olduğunu sözlə demək mümkün deyil. Rüstəmin yaradıcılığı yenicə çiçəklənirdi. Özü də ayla, günlə yox, saatla, dəqiqələrlə".

Tanınmış rəssamımız haqqında axtarış edəndə çox az məlumat əldə etmək olur. Rəssamın yaradıcılığı novator meyillərlə zəngin olduğundan sovetlər dönəmində kölgədə qalıb. Müstəqillik illərində isə belə rəssamlarımızın yaradıcılığına müraciət etməmək təəssüf doğurur. Həyatını incəsənətə həsr etmiş, daim yüksək bədii estetik təsir qüvvəsinə malik gözəl əsərlər yaratmış Rüstəm Mustafayevin adı incəsənət tariximizdə əbədi yaşayacaq.

***Əsəd QULİYEV,***
***Rəssamlar İttifaqının üzvü, sənətşünas***

● Tarixi abidələrimiz

## Əzəmətli Mərdəkan qalası

### Şirvanşahlar hökmdarının qələbəsi şərəfinə tikilmiş qədim müdafiə istehkamı keçmişimizin dərin qatlarından söhbət açır



**...Şirvanşah I Axsitan düşmən üzərində parlaq qələbə qazanmışdı. Döyüşçülər arasında tələfat və yaralılar olsa da, el-oba toy-bayram, şənlik içərisində idi. Məğrur sərkərdə torpağa sancdığı qılıncına dayaqlanıb düşünürdü: bütün bunlar yaxşıdır, camaatın yüksək əhvali-ruhiyyəsindən xəbər verir, amma qalıcı deyil, ötəridir. Atam Şivanşah Mənuçöhrün uğurlarından artığına nail olmalıyam. Zəfərimi daha möhkəm təməllər üzərində əbədiləşdirməliyəm...**

Beləcə hicri 583-cü ildə (m. 1187-1189) Bakının Mərdəkan kəndində möhtəşəm bir tikilinin bünövrəsi qoyuldu. Qala dördkünc formada olub ucalığı 22 metr, divarlarının hündürlüyü 7 metr, qalınlığı aşağıdan 2,10 metr, yuxarıdan isə 1,60 metrdir. İçəri də 5 yarusa bölünür. Dördkünc Mərdəkan qalası, yaxud böyük Mərdəkan qəsri Abşeronun ən qədim istehkamlarından biri və ən hündür donjonudur (Əsas qala ilə əlaqəsi olmayan divarlarla əhatəli; necə deyərlər, qala içində qala). Həyətə daxil olarkən ilk növbədə yerdəki quyular diqqəti çəkir. Dərinliyi təqribən 2 metr olan həmin quyular düşmən hücumu zamanı qalaya sığınarkən müxtəlif növ ərzaq məhsullarının saxlanılması üçün nəzərdə tutulub. Ümumilikdə, donjonun ətrafında və həyətində vaxtilə 90-dan çox quyunun (o cümlədən su quyuları) olduğu bildirilir. Bundan başqa, həyətdə qədim daş kitabələr, daşdan yonulmuş və saxsı əşyalar, qablar da var.

Qəsrin inşasında əhəng məhlulu və yerli əhəngdaşından istifadə edilib. Mərkəzi qülləsinin silindrik həcmi ətraf tikililər arasında fərqlənir və daş kronşteynlərə söykənən dişli parapetlə tamamlanır. Maşikulları saxlayan kronşteynlərə kimi qüllənin hündürlüyü 15 metrə bərabərdir. Xarici diametri 7,6 metr, divarların qalınlığı isə 2 metrdir. Daxildə qüllə üç hissəyə bölünmüş və onların hər biri daş günbəzlərlə örtülmüşdür. Günbəz örtüyünün mərkəzində dairəvi dəlik vardır. Girişi yer səviyyəsindədir. Müdafiə üçün əlverişsiz olan bu hal ikinci mərtəbəyə keçidin həddən artıq yüksəkdə yerləşməsi ilə (birinci yarusun döşəməsindən 3 metr yuxarıda) kompensasiya edilir. Qəsrə hücum edib birinci mərtəbəyə girə bilən düşmən içəridə daha bir çətinliklə üzləşir və eyni zamanda günbəz mərkəzindəki dəlikdən də hücuma məruz qalırdı.

Qapı yeri istisna olmaqla, birinci mərtəbənin divarında heç nə yoxdur, lakin ikinci və üçüncü mərtəbələrin divarlarında müxtəlif istiqamətlərə yönəlmiş mazğallar vardır. Bu mazğallar müdafiə məqsədilə yanaşı, həm də məkanın işıqlandırılması üçün istifadə edilmişdir. Qüllənin üst meydançası müdafiə xarakteri daşıdığından yaşayış üçün yalnız ikinci və üçüncü mərtəbələrdən istifadə edilirdi. Hər iki mərtəbənin ümumi sahəsi 32 kvadratmetrə bərabərdir.

Bütün mərtəbələrə ənənəvi birtərəfli spiralvari pilləkənlə qalxmaq mümkündür - dar pəncərələrdən zəif işıq düşən otaqlar, meydançalar... Bu etibarlı müdafiə tikilisinin yeraltı yolları da var. Ömrünü tarixi abidənin mühafizəsinə həsr etmiş Vidadi kişinin dediyinə görə, aşağı enməyə şərait yoxdur, gərək özünlə fənər, nərdivan, kəndir götürəsən. Həmin gizli keçidlər kiçik Mərdəkan qalasına aparır. Amma



onlar müəyyən məsafələrdə dağılıb, aşınıb tökülən torpaqla bağlanıb...

Qəsəbənin qədim tikililəri arasında dördkünc Mərdəkan qalasından başqa, dairəvi Mərdəkan qalası (1232) və ya kiçik Mərdəkan qəsri də var ki, Mədəniyyət Nazirliyi tərəfindən dünya əhəmiyyətli abidə kimi qeydiyyata alınmışdır. Qəsrin kitabəsində 1232-ci ildə memar Əbdülməcid Məsud oğlunun Şirvanşah III Fəribürzün sifarişi ilə inşa edildiyi bildirilir. Tikili XII-XV əsrlər Ön və Orta Asiya şəhərləri üçün xarakterik memarlıq planına malikdir.

Mərdəkan sözü də "mərdlər məkanı" kimi mənalanır, yaşayış məskəninin qədim Mard tayfaları tərəfindən salınmasına işarədir. Mardların adına isə ilk dəfə Qafqaz Albaniyasında yaşayan tayfalar sırasında rast gəlinir. Mərdəkan yaxınlığında qayalarda Tunc dövrünə (e.ə. 3-2-ci minilliklər) aid keçi, kaman, taxta balta, müxtəlif quş, ocaq və s. təsvirləri, habelə qədim yaşayış yerləri aşkarlanmışdır.

Hələ qədimdən xalq memarlığının mərkəzi sayılan Mərdəkan haqqında müxtəlif xarici səyyahların salnamələrində məlumatlar var. Bakı milyonçularından Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev və başqalarının burada bağları, yaraşıqlı binaları olmuşdur. Məşhur rus şərqşünası İ.N.Berezin "Abşeron yarımadasına səyahət" (1845) əsərində Mərdəkana gəlişindən, bu kəndin tarixi-memarlıq abidələrinin qeyri-adiliyindən yazırdı. O, 1720-1721-ci illərdə Bakı hakimi Mirzə Məhəmməd xan tərəfindən tikdirilmiş başqa bir qalanın (hazırda dağılıb) təsvirini də verib. Tədqiqatçılar bildirirlər ki, Herodot, Strabon kimi tarixçi-səyyahların da Mərdəkan haqqında yazıları olub. Qəsəbənin maddi-mədəniyyət abidələri siyahısına Xanbaba hamamı (XIX əsr), Şeyx Kazım hamamı, Pir-Həsən məqbərəsi (1612), Tağıyevin imarəti (1900-cü illər), Tuba Şahi məscidi (1482), türbələr (XV və XVII əsrlər) və sair daxildir ki, bu gün nəinki yerli, çoxsaylı əcnəbi turistlərin də böyük diqqəti və marağı ilə qarşılanır.

***Qurban MƏMMƏDOV,***
***"Azərbaycan"***

## Azərbaycan Sankt-Peterburq Beynəlxalq Konservatoriya Həftəsində təmsil olunur

**XXIV Beynəlxalq Konservatoriya Həftəsi festivalı şənbə günü Sankt-Peterburqun Dmitri Şostakoviç Filarmoniyasının böyük zalında bayram konserti ilə açılacaq. Bu tədbir 8 ölkədən musiqi universitetlərinin və qonaqların iştirakı ilə noyabrın 5-dək şəhərin müxtəlif məkanlarında, o cümlədən Mariinski Teatrında baş tutacaq.**



Proqramlarda Sankt-Peterburq, Moskva və Nijni Novqorod konservatoriyaları, Belarus Dövlət Musiqi Akademiyası (Minsk), Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası (Azərbaycan), Özbəkistan Dövlət Konservatoriyası (Daşkənd), Belqrad İncəsənət Universitetinin (Serbiya) solistləri və yaradıcı kollektivləri, həmçinin Çinin ali musiqi məktəbləri, Macarıstan və Livandan olan qonaqlar iştirak edəcəklər.

Əsas hadisələrə iki dünya premyerası daxildir. Dövlət Ermitajı Baş qərargahının Atriumunda Sankt-Peterburq bəstəkarları Anton Tanonov və Sergey Yekimovun "Kozma Minin və Nijni Novqorod şəhərinin əfsanəsi" adlı birgə kompozisiyası təqdim olunacaq. Bəstəkar Yanq Cinpenqin "Çin şüası" kantatasının ifası Rusiya ilə Çin arasında diplomatik münasibətlərin qurulmasının 75-ci ildönümünə həsr olunacaq.

Ermitaj Teatrında keçiriləcək "Klassiklər - Etno - XXI" layihəsində Özbəkistan Dövlət Konservatoriyasının Xalq Çalğı Alətləri Ansamblı, eləcə də Sankt-Peterburq Konservatoriyasının solistləri və Rus Xalq Çalğı Alətləri Orkestri çıxış edəcəklər.

Beynəlxalq Konservatoriya Həftəsinin innovativ hissəsi Ekspert Şurasında mədəniyyət müəssisələrinin rəhbərlərinin iştirakı ilə musiqi tədbirlərinin hazırlanması və təqdimatı üçün "Gənclərin İdeyaları Forumu"nu özündə əks etdirən "Festival Biznes Platforması" layihəsi olacaq. Konservatoriyaların və şəhərin yaradıcılıq universitetlərinin tələbələri mədəniyyət və incəsənət sahəsində gələcək tədbirlərin təşkilatçıları kimi özlərini sübut etmək imkanı əldə edəcəklər. "Festival Biznes Platforması"nda həmçinin "Sankt-Peterburq Konservatoriyasının Könüllülər Klubu"nun yaradılmasına həsr olunmuş tələbə-könüllülər hərəkatının müxtəlif sahələrinin nümayəndələrinin görüşü keçiriləcək.

Festivalın elmi-nəzəri bölməsində Puşkin, Qlinka, Rimski-Korsakovun yubileylərinə həsr olunmuş "Sankt-Peterburq sənətinin ənənələri" adlı elmi konfrans və sənədli sərgi, xor və opera-simfonik dirijorluğu, nəfəs alətlərində ifaçılıq, konsertin idarə edilməsi üzrə tədris seminarları, yaradıcılıq görüşləri və ustad dərsləri olacaq. Sənətşünaslıq doktoru, Moskva Konservatoriyasının professoru, "Muzıkalnaya jizn" jurnalının baş redaktoru Yevgeniya Krivitskayanın rəhbərliyi ilə "Musiqi jurnalistikası üzrə yaradıcılıq emalatxanası" da öz işini davam etdirəcək. Ənənəvi olaraq, "Beynəlxalq Konservatoriya Həftəsi"nin tədbirləri ilə bağlı icmallar, videoreportajlar, müsahibələr və esselərin yaradılması məqsədilə "Festivalın nəbzi" müsabiqəsi keçiriləcək.

## XIX Bakı Caz Festivalı başa çatıb

**XIX Bakı Caz Festivalı amerikalı müğənni və aktrisa Şeril Pepsi Reyli və "Interplay" qrupunun çıxışı ilə başa çatıb. Festivalın yekun konserti "The Jazz Club"da ("Fairmont") baş tutub.**



Gecənin əvvəlində Bakı Caz Festivalının təşkilatçısı və bədii rəhbəri Rain Sultanov və ABŞ səfirliyinin nümayəndəsi Bill Murat tamaşaçılar qarşısında çıxış edib, onları salamlayıblar.

Tədbirdə diplomatik korpusun üzvləri, mədəniyyət və incəsənət xadimləri, cazsevərlər, bakılılar və paytaxtın qonaqları iştirak ediblər.

Şeril Pepsi Reyli daha çox 1988-ci ildə yayımlanan "Thanks for My Child" adlı hit mahnısı ilə tanınır. Vokalistin üslubu özündə qospel, R&B və soul elementlərini birləşdirir. Amerikalı müğənni XIX Bakı Caz Festivalında iştirakla bağlı təəssüratlarını bölüşüb.

"Bu, Azərbaycana ilk səfərimdir. Bakıya dünən gəlmişəm. Ölkəniz gözəldir və Bakı çox füsunkar şəhərdir! Bu festivalda iştirak etdiyimə görə şadam, əvvəllər də onun barəsində eşitmişəm. Belə festivalların keçirilməsi çox vacibdir. Müxtəlif musiqiləri tamaşaçılara, xüsusən də gənclərə təqdim etmək gözəldir! Bu gün mən mahir ifaçıları olan "Interplay" qrupu ilə çıxış edəcəyəm. Hamımız bu tədbirin bir hissəsi olmaqdan şadıq. Mən də Azərbaycan musiqisini dinləmək istərdim. Hələ ki, buna imkanım olmayıb. Bakıdan getməzdən əvvəl bunu mütləq etmək istəyirəm", - deyə musiqiçi bildirib.

"Interplay" qrupu ( Tomaş Henrik (klaviaturalar), Loyrens Kottl (bas gitara), Nataniel Taunsli (zərb alətləri) - caz füzyon janrında çıxış edir. Bu musiqi kollektivi yüksək enerjisi, virtuozluğu, caz, rok və fank elementlərini vahid harmonik palitrada birləşdirmək bacarığı ilə tanınır.

Konsert böyük uğurla keçib və yüksək notda başa çatıb.

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi
## AZ-MLSPP-9044-FA/2-GOODS-COC3
## Müqavilə barədə bildiriş

**Məşğulluğa Dəstək Layihəsi çərçivəsində 3 lot üzrə 900 aktiv paketinin təchizatı və quraşdırılması üzrə satınalma**

**Satınalan təşkilat:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
**Layihə:** Məşğulluğa Dəstək Layihəsi
**Müqavilənin adı:** Məşğulluğa Dəstək Layihəsi çərçivəsində 900 aktiv paketinin təchizatı və quraşdırılması
**Ölkə:** Azərbaycan
**Kredit №** / Qrant №: № AZ-9044
**RFQ №:** AZ-MLSPP-9044-FA/2-GOODS-COC3

Hazırkı bildiriş Məşğulluğa Dəstək Layihəsi çərçivəsində Lot 1, Lot 3 və Lot 4 üzrə 900 aktiv paketinin təchizatı və quraşdırılması (tələbə uyğun olaraq) üzrə 9 sentyabr 2022-ci il tarixində imzalanmış Çərçivə Sazişi-2-yə müvafiq olaraq keçirilmiş ikinci satınalma prosesini, qiymətləndirmə nəticələrini və müqavilələrin təltif edilməsi məlumatlarını əks etdirir. Aktiv paketlərinin təchizatı üçün Çərçivə Sazişi-2 aşağıdakı müəssisələrlə imzalanmışdır:

1. "Albenafsaj General Trading və Excellent Trade QSC" BM (LOT 1, LOT 2, LOT 3, LOT 4)
2. "Endless Goods QSC və Yasef MMC" BM (LOT1, LOT3, LOT4)
3. "Az Nest" QSC (LOT1, LOT 2, LOT 3, LOT 4)
4. "Megamax" MMC (LOT 2)
5. "Halal-P" MMC (LOT 2)

Müvafiq lotlar üzrə Çərçivə Şazişi imzalanmış 3 iddiaçı 08 avqust 2024-cü il tarixində müqavilə imzalanması üçün ən rəqabətli qiymət təklifi təqdim etmələri üçün COC 3-ə dəvət edilmişdir. COC 3 təkliflərinin açılış tarixi və vaxtı 04 sentyabr 2024-cü il, Bakı vaxtı ilə saat 15:00 müəyyən edilmişdir. Açılış zamanı elan edilmiş qiymətlər aşağıdakı kimidir:

| No. | Təchizatçı | Təklif olunmuş qiymətlər |
|---|---|---|
| 1 | "Albenafsaj General Trading və Excellent Trade QSC" BM | LOT 1 - 663,592.82 USD<br>LOT 3 - 1,248,908.46 USD<br>LOT 4 - 1,435,787.89 USD |
| 2 | "Endless Goods QSC və Yasef MMC" BM | LOT 1 - 660,666.66 USD<br>LOT 3 - 1,338,479.31 USD<br>LOT 4 - 1,482,273.52 USD |
| 3 | "Az Nest" QSC | LOT 1 - 672,501.59 USD<br>LOT 3 - 1,275,295.62 USD<br>LOT 4 - 1,404,184.42 USD |

Tender komissiyası yekun qiymət təkliflərini qiymətləndirmiş və hər aktiv paketi üzrə ən aşağı qiymət təklifi təqdim etmiş təchizatçılarla müqavilələrin imzalanmasını tövsiyə etmişdir. Uğursuz iddiaçılara tenderin nəticələri haqqında bildirişlər 27 sentyabr 2024-cü il tarixdə göndərilmişdir. Gözləmə müddəti 27 sentyabr tarixdən 4 oktyabr 2024-cü il tarixləri arasında tətbiq edilmişdir. Bu vaxt ərzində Layihə İcra Qrupuna heç bir şikayət/aydınlaşdırma sorğusu daxil olmamışdır. Gözləmə müddəti bitdikdən sonra qalib gələn iddiaçılara müqavilə imzalanması barədə bildirişlər göndərilmişdir. Keçirilmiş müsabiqə nəticəsində 22 oktyabr 2024-cü ildə aşağıdakı müqavilələr imzalanmışdır:

1) "Albenafsaj General Trading və Excellent Trade QSC" BM (LOT 1 hissəli) - *Cəmi dəyəri ƏDV daxil olmaqla - 498,836.98 ABŞ dolları (dörd yüz doxsan səkkiz min səkkiz yüz otuz altı ABŞ dolları və doxsan səkkiz sent);*
2) "Endless Goods QSC və Yasef MMC" BM (LOT 1 hissəli) - *Cəmi dəyəri ƏDV daxil olmaqla - 159,848.70 ABŞ dolları (bir yüz əlli doqquz min səkkiz yüz qırx səkkiz ABŞ dolları və yetmiş sent);*
3) "Albenafsaj General Trading və Excellent Trade QSC" BM (LOT 3) - *Cəmi dəyəri ƏDV daxil olmaqla - 1,248,908.46 ABŞ dolları (bir milyon iki yüz qırx səkkiz min doqquz yüz səkkiz ABŞ dolları və qırx altı sent);*
4) "Az Nest" QSC (LOT 4) - *Cəmi dəyəri ƏDV daxil - 1,404,184.42 ABŞ dolları (bir milyon dörd yüz dörd min bir yüz səksən dörd ABŞ dolları və qırx iki sent).*

**Beləliklə, Çərçivə Sazişi-2 COC 3-ün ƏDV daxil cəmi dəyəri 3,311,778.26 ABŞ dolları *(üç milyon üç yüz on bir min yeddi yüz yetmiş səkkiz ABŞ dolları və iyirmi altı sent)* təşkil etmişdir.**

## Ministry of Labor and Social Protection of Population / Employment Support Project
## AZ-MLSPP-9044-FA/2-GOODS-COC3
## AWARD NOTICE

**Procurement of Supply and installation of 900 assets in 3 lots under the Employment Support Project**

**Purchaser:** Ministry of Labor and Social Protection of Population
**Project:** Employment Support Project
**Contract title:** Procurement of supply and installation of 900 assets under the Employment Support Project
**Country:** Azerbaijan
**Loan No. /Credit No. / Grant No.:** No. AZ-9044
**RFQ No:** AZ-MLSPP-9044-FA/2-GOODS-COC 3

This notice includes the results of the bid evaluation and contract awards for the RFQ process for the Supply and installation (as required) of 900 assets under Lot 1, Lot 3 and Lot 4 following Framework Agreement-2 (FA/2) signed on September 09, 2022 under the Employment Support Project. Framework Agreement-2 for procurement of assets was signed with the following Bidders:

1. Joint Venture of "Albenafsaj General Trading and Excellent Trade CJSC" (LOT 1, LOT 2, LOT 3, LOT 4)
2. Joint Venture of "Endless Goods CJSC and Yasef LLC" (LOT1, LOT3, LOT4)
3. "Az Nest" CJSC (LOT1, LOT 2, LOT 3, LOT 4)
4. "Megamax" LLC (LOT 2)
5. "Halal-P" LLC (LOT 2)

Three of the awarded Bidders for respective lots were invited to COC 3 on August 8, 2024. The opening date and time for COC-3 proposals were September 04, 2024, 15:00 Baku time. The red-out bid prices are as follows:

| No. | Name of Bidder | Bid Price as Read Out No. |
|---|---|---|
| 1 | Joint Venture of "Albenafsaj General Trading and Excellent Trade CJSC" | LOT 1 - 663,592.82 USD<br>LOT 3 - 1,248,908.46 USD<br>LOT 4 - 1,435,787.89 USD |
| 2 | Joint Venture of "Endless Goods CJSC and Yasef LLC" | LOT 1 - 660,666.66 USD<br>LOT 3 - 1,338,479.31 USD<br>LOT 4 - 1,482,273.52 USD |
| 3 | "Az Nest" CJSC | LOT 1 - 672,501.59 USD<br>LOT 3 - 1,275,295.62 USD<br>LOT 4 - 1,404,184.42 USD |

The Tender Committee evaluated the final prices and recommended the contracts to be signed. The notification of tender results was issued to the unsuccessful Bidders on September 27, 2024. The standstill period was applied from September 27 to October 04, 2024. No any complains/clarification requests were received. After expiry of the standstill period the Letter of award to successful bidders were issued. As a result of COC-3 the following contracts were signed in October 22, 2024:

1) Joint Venture of "Albenafsaj General Trading and Excellent Trade CJSC" (LOT 1 Partial) - Total cost including VAT - USD 498,836.98 *(four hundred ninety-eight thousand eight hundred thirty-six United States dollars and ninety-eight cents);*
2) Joint Venture of "Endless Goods CJSC and Yasef LLC" (LOT 1 Partial) - Total cost including VAT - USD 159,848.70 *(one hundred fifty-nine thousand eight hundred forty-eight United States dollars and seventy cents);*
3) Joint Venture of "Albenafsaj General Trading and Excellent Trade CJSC" (LOT 3) - Total cost including VAT - USD 1,248,908.46 *(one million two hundred forty-eight thousand nine hundred eight United States dollars and forty-six cents);*
4) "Az Nest" CJSC (LOT 4) - Total cost including VAT - USD 1,404,184.42 *(one million four hundred four thousand one hundred eighty-four United States dollars and forty-two cents).*

**Total cost of FA2 COC 3 including VAT is 3,311,778.26 *(three million three hundred eleven thousand seven hundred seventy-eight United States Dollar and twenty-six cents).***

# Dörd ölkədə parlament seçkiləri keçirildi

**Son bir həftədə Yaponiya, Bolqarıstan, Gürcüstan və Özbəkistanda parlament seçkiləri keçirilib. Səsvermələrin nəticələrinə əsasən bəzi ölkələrdə maraqlı vəziyyət yaranıb.**









### Yaponiyada hakim partiya parlament çoxluğunu itirib

Yaponiyanın hakim Liberal Demokratik Partiyası (LDP) parlamentin aşağı palatasına erkən seçkilərdə liderdir, lakin 2012-ci ildə hakimiyyətə qayıtdıqdan sonra ilk dəfə parlament çoxluğunu itirib.

Baş nazir İşiba Şigerunun partiyası 465 yerlik Seymdə ona üstünlük verən 233 yeri qazana bilməyib. Bundan əvvəl liberal demokratlar digər mühafizəkar "Komeyto" Partiyası ilə koalisiya yaratmışdı.

İşiba Şigerunun dediyinə görə, partiya siyasət və iqtisadiyyat məsələlərində ictimai anlaşma əldə edə bilməyib və bu, LDP-yə ən böyük zərbə olub.

Müxalif Konstitusiya Demokrat Partiyası əvvəlki seçkilərlə müqayisədə mövqelərini gücləndirəcək. Çoxluğun olmaması hökumətin dəyişməsi demək deyil, lakin nəticələr baş nazirin partiyasının siyasətini parlamentdən keçirməsini çətinləşdirəcək və Şigeru koalisiyada üçüncü tərəfdaşı axtarmalı olacaq.

Parlamentin aşağı palatasına seçkilər dörd ildən bir keçirilir. Əvvəlki seçki 2021-ci il oktyabrın 31-də keçirilib, yenisi isə yalnız gələn il keçirilməli idi. Lakin LDP-nin sədri seçildikdən az sonra İşiba hakim partiyada baş verən bir sıra qalmaqallara görə Yaponiya cəmiyyətindən mandat almaq üçün erkən seçkilər təyin etmək qərarına gəlib. Oktyabrın 1-də İşiba Seym tərəfindən yeni baş nazir kimi təsdiqlənib və cəmi səkkiz gün sonra o, aşağı palatanı rəsmən buraxıb. Bu, ölkənin müharibədən sonrakı tarixində rekord vaxt idi.

### Bolqarıstanın yeni parlamentinə iki yeni partiya da daxil olub

Bolqarıstanda keçmiş baş nazir Boyko Borisovun sağ mərkəzçi GERB partiyası ötən bazar günü keçirilən növbədənkənar parlament seçkilərində lider olub. Mərkəzi Seçki Komissiyasının müvafiq məlumatı BNR tərəfindən təqdim edilib.

İkinci nəticəni "Davamlı Dəyişiklik - Demokratik Bolqarıstan" göstərirb. Sonrakı yerlərdə "Dirçəliş", "Hüquq və Azadlıqlar Hərəkatı - Yeni Başlanğıclar", Bolqarıstan Sosialist Partiyası, "Hüquq və Azadlıqlar Alyansı" və "Belə bir xalq var" partiyaları qərarlaşıb.

Bolqarıstanın yeni parlamentinə iki yeni partiya da daxil olub: MEÇ (Əxlaq, Birlik, Şərəf) və sağçı populist "Böyüklük".

Koalisiya yaratmaq imkanını şərh edən qalib partiyanın lideri Boyko Borisov bildirib ki, "Dirçəliş"dən başqa bütün partiyalar koalisiyada potensial tərəfdaş ola bilər.

Bolqarıstanda son bir neçə il ərzində - 2021-ci ilin aprelində, iyulunda, noyabrında, 2022-ci ilin oktyabrında, 2023-cü ilin aprelində və 2024-cü ilin iyununda -altı parlament seçkiləri keçirilib.

Son növbədənkənar seçkilər daimi hökumətin formalaşmasına səbəb ola bilməyib.

### Gürcüstanda hakim "Gürcü Arzusu" partiyası qalibdir

Mərkəzi Seçki Komissiyasının məlumatına görə, Gürcüstanda hakim "Gürcü Arzusu" partiyası 54,08 faiz səslə qalib gəlib.

MSK-nın məlumatına görə, həmçinin dörd müxalifət bloku parlamentə daxil olub - "Dəyişiklik Koalisiyası" "Vahid Milli Hərəkat", "Güclü Gürcüstan" və "Gürcüstan Naminə".

Qalan partiyalar beş faizlik həddi aşa bilməyib.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze bildirib ki, Avropa strukturlarından olan beynəlxalq müşahidəçilər ölkədə keçirilən parlament seçkilərinin bütün seçki prinsiplərinə uyğunluğunu təsdiqləyiblər.

### Özbəkistanda ilk dəfə seçkilər majoritar və proporsional seçki sistemi əsasında keçirilib

Özbəkistanda Ali Məclisin (parlamentin) Qanunvericilik Palatasına və yerli şuralara seçkilərdə səsvermə başa çatıb. Bu barədə ölkənin Mərkəzi Seçki Komissiyası məlumat yayıb.

Seçkilərdə Özbəkistan Liberal Demokrat Partiyası (ÖLDP), Özbəkistan Xalq Demokratik Partiyası (ÖXDP), Özbəkistanın "Milli Tiklaniş" Demokratik Partiyası ("Milli Dirçəliş"), "Adolat" Sosial Demokrat Partiyası ("Ədalət") və Ekologiya Partiyası mübarizə aparıb.

Son məlumata görə, Özbəkistanda keçirilən parlament seçkilərində Liberal Demokrat Partiyası 34,75 faiz səs toplayaraq qalib gəlib və parlamentin qanunvericilik (aşağı) palatasında 150 mümkün yerdən 64-nə sahiblənib.

Qalan mandatları "Milli Tiklaniş" Demokratik Partiyası, "Adolat" Sosial Demokrat Partiyası, Xalq Demokratik Partiyası və Ekologiya Partiyası qazanıb.

Qeyd edək ki, seçkilər ilk dəfə qarışıq - majoritar və proporsional seçki sistemi əsasında keçirilib. Hər sistem üzrə 75 deputat seçilib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Hava əsasən yağmursuz olacaq

Azərbaycanda oktyabrın 29-na gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Səhər bəzi yerlərdə arabir duman olacaq. Şimal-qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 8-11°, gündüz 15-18° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi normadan yüksək - 766 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şərq rayonlarında az çiskinli olacağı proqnozlaşdırılır. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-8°, gündüz 14-19° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-8° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Daşqın Əliyev, Səbuhi Fətəliyev, Vasif Qurbanov, Ceyhun Ağayev, Cəfər Quluzadə, Rəşad Məmmədov və Ceyhun Nəcəfli Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Bakı Baş Gömrük İdarəsi rəisinin müavini Mahmud Nuriyevə əzizi, ATU-nun Onkologiya kafedrasının dosenti, tanınmış həkim-onkoloq

**YUSİF ƏLİ OĞLU NURİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İba Həsənov, Qəşəm Məmmədov, Yaqub Bayramov, Mehman və Rafiq Hüseynovlar, Rza İsmayılov, Sabir və Zaur Hacıyevlər Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Bakı Baş Gömrük İdarəsi rəisinin müavini Mahmud Nuriyevə əzizi

**YUSİF ƏLİ OĞLU NURİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4207
Sifariş 2477

Qiyməti 60 qəpik